Xalqın qəzeti!

# Xalq qəzeti

№ 285 (30401) 28 dekabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Qorxunun yaratdığı trayektoriya

*Fransa və dünyadakı "erməni sevdası" haradan qidalanır?*



***Mövzumuz qorxu barədədir. Yəni, Fransanın erməni qorxusu barədə. Yazının sonlarına doğru bu qorxunun konkret nədən qaynaqlandığını diqqətə çatdıracağıq. Onu da görəcəksiniz ki, erməni qorxusu təkcə Fransa üçün aktual deyil. Sən demə, hamı ermənilərdən ehtiyat edirmiş. Baxın, dünyanın müxtəlif ölkələrində erməni təəssübkeşliyi var və bunlar heç də səbəbsiz deyil...***

Fransanın qatı ermənipərəst mövqe tutduğu aşkardır. Dəfələrlə görmüşük ki, bu ölkənin rəsmiləri bir murdar xislətli ermənidən daha murdar olmağa çalışırlar. Özü də iddialarını ağına-bozuna baxmadan, bütün beynəlxalq hüquq normalarını aşaraq ortaya qoyurlar. Ümumən, Fransa cəmiyyətinin də mövcud istiqamətdə "canfəşanlığı" diqqətdən yayınmır.

Bəli, rəsmi Parisin, o cümlədən, Prezident Emmanuel Makronun son dövrlər nümayiş etdirdiyi ermənipərəstliyin heç bir əndazəyə sığmadığı məlumdur. Bir müddət əvvəl ölkənin sabiq prezidenti Fransua Olland da Fransa üçün erməni amilini, az-qala, ölüm-dirim məsələsi kimi təqdim etmişdi. Onun sözlərindən belə çıxırdı ki, Ermənistanı müdafiə ölkəsi üçün son dərəcə müqəddəs vəzifədir. Bir sözlə, Olland özünü tarixi Xaç yürüşlərinin ilhamvericisi kimi tanınan Roma papası II Urbana bənzətmişdi. Elə təəssürat yaratmışdı ki, İsa peyğəmbərin (ə.) qəbri Qüdsdə yox, İrəvandadır və onu xilas etmək dünya xristianlarının borcudur.

**(ardı 4-cü səhifədə)**

# "Yaşıl artım ölkəsi" kimi tanınmağımız COP29-u Bakıya gətirdi

**"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkəmizin "yaşıl enerji məkanı"na çevrilməsi məqsədilə bir sıra mühüm tədbirlər nəzərdə tutulub. Respublikamızda "Masdar", "ACWA Power", "bp", "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy" və "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 28 QVt-dan çox layihələrə dair əməkdaşlıq sənədlərinin imzalanması da Azərbaycanın "yaşıl enerji" kursuna olan beynəlxalq maraqdan, ölkəmizin "yaşıl gələcəyi"nə dərin inamdan irəli gəlib.**

Prezident İlham Əliyevin qlobal iqlim dəyişikliyi ilə bağlı məsələlərə ciddi yanaşmasının, karbon emissiyalarının mümkün qədər azaldılması ilə əlaqədar strateji planların hazırlanması və gerçəkləşdirilməsinin nəticəsidir ki, Azərbaycanda gələn il daha bir əhəmiyyətli tədbirin – BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının keçirilməsi qərara alınıb.

**(ardı 12-ci səhifədə)**



# "Böyük Peterhof Sarayı"nda blits-görüş

*Azərbaycan Prezidenti ilə Ermənistan baş nazirinin qeyri-formal görüşü, eləcə də diqqətçəkən digər məsələlər barədə*



**Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın şimal paytaxtı sayılan, həm də dövlət başçısı Vladimir Putinin doğma şəhəri hesab olunan Sankt-Peterburqda təntənəli şəkildə qarşılanıb. Vladimir Putinlə İlham Əliyevin bir-birini dostcasına, səmimi salamlamaları diqqət çəkib. Ölkələrarası əlaqələrdə dövlət başçılarının qarşılıqlı etimada və şəxsi hörmətə söykənən münasibətlərinin böyük əhəmiyyət daşıdığı danılmaz amildir.**

Bu düsturu siyasi cəhətdən möhkəmləndirən ən vacib məqam isə Azərbaycanın Cənubi Qafqazda Rusiyanın əsas tərəfdaşı olmasıdır. Həmin tərəfdaşlığın ən yüksək səviyyədə inkişafına zəmin yaradan 2022-ci ilin fevralında imzalanmış Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamədir. Dövlət başçıları ikitərəfli görüşləri zamanı ölkələrimiz arasında əlaqələrin bütün sahələr üzrə yüksələn xətlə inkişaf etdiyini dəfələrlə dilə gətiriblər.

Xatırladaq ki, dekabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Sankt-Peterbur şəhərində işgüzar səfərdə olub. Artıq ənənə halını almış MDB üzvü olan ölkələrin liderlərinin Sankt-Peterburq Sammiti bu dəfə şəhərin saray və park kompleksləri ilə tanışlıqdan başlanıb. MDB dövlət başçılarının qeyri-rəsmi sammiti danışıqlar masası arxasında deyil, "Böyük Peterhof Sarayı"nda keçirilib. Sammit şimal paytaxtının Strelnadakı Konstantinovski sarayında müzakirələrlə başa çatıb.

**(ardı 4-cü səhifədə)**



# Sən Qafqazda yadsan, müsyö!

*Parisin Afrika üzqaralığından sonra ən çox uğursuzluğa uğradığı məkan Cənubi Qafqazdır*

**Deyəsən, müasir Fransa XXI əsrdə dünyanın ən güclüsü olmaq iddiasına düşüb. Bunu da ötən əsrlərdə olduğu kimi, digər məmləkətləri müstəmləkə altına almaq, sərvətlərini talamaq yolu ilə reallaşdırmaq istəyir. Fəqət müftəxorluğa adət etmiş rəsmi Paris indi bunun mümkünsüzlüyünü gördükcə qəzəbindən dünyanın dörd tərəfinə nifrət püskürməyə başlayıb.**

Arzuları ilə imkanları üst-üstə düşməyən Fransa prezidenti Emmanuel Makronun çağdaş çağırışlara cavab verməyən siyasəti ölkəsinin bütün istiqamətlər və parametrlər üzrə nüfuzdan düşməsinə gətirib çıxarıb. Bu müstəvidə Makron sonuncu zərbəni Bakıdan aldı. Ədalətsizliyi, ikiüzlülüyü əlində bayraq edən, reallığa "kəllə atan" Fransa prezidenti Cənubi Qafqazda "siyasi komaya düşmüş" Ermənistanı hansı üsullarlasa reanimasiyadan çıxarmaq üçün baş sındırmaqla məşğuldur. Azərbaycanın xoşməramlı münasibətinə rəğmən, xüsusilə Makronun prezidentliyi dövründə Fransanın qəti şəkildə Ermənistanın tərəfini tutması regionun liderinə çevrilən Azərbaycanı sürətlə itirməsi ilə nəticələndi. Avropanın qosqoca dövlətinin xarici siyasətdəki uğursuzluğuna dəlalət edən fakt: dövlətin başçısı Paşinyandan daha artıq ermənipərəst olduğunu erməni diasporu ilə keçirdiyi görüşdə fəxrlə söyləyir. Yəni, o boyda Fransa Marsel haylarının, ermənipərəst şovinist qövmün əlində girinc olub.

**(ardı 3-cü səhifədə)**

## Havayı reklam lövhələri – dayanacaqlar?!



Səhifə ⇨ 14

## Rusiya–Ukrayna müharibəsi: "Görək kim-kimi yordu..."



Səhifə ⇨ 15

## Türk-alban kilsəsinin baş məbədi



Səhifə ⇨ 13

## Azərbaycan –Tükiyə: "ağıllı kənd"ə doğru

Səhifə ⇨ 12

## “Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 704; 2002, № 1, maddə 22; 2004, № 6, maddə 436, № 7, maddə 534; 2005, № 10, maddə 910; 2006, № 7, maddə 588; 2007, № 3, maddə 229; 2014, № 9, maddə 1027; 2015, № 9, maddə 1015, № 11, maddə 1301; 2016, № 8, maddə 1384; 2017, № 5, maddə 772, № 8, maddə 1521; 2018, № 2, maddə 175; 2019, № 9, maddə 1487; 2020, № 2, maddə 105; 2022, № 4, maddə 303, № 12, maddə 1440; 2023, № 7, maddə 980) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adından (hər iki halda), preambulasından, 1-ci və 2-ci hissələrindən “Azərbaycan Respublikasının Prezidenti yanında” sözləri çıxarılsın;

1.2. həmin Fərmanın 2-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın sədri**

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası müdafiə nazirinin müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini
Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini
Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti.”;

1.3. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə”nin adından və 1-ci hissəsindən “Azərbaycan Respublikasının Prezidenti yanında” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. dövlət sirri sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 dekabr 2023-cü il**

**Mərkəzi Seçki Komissiyası**

# Seçkilərə hazırlıq çərçivəsində Gəncədə regional seminar keçirilib

**Fevralın 7-də Azərbaycan Respublikasında növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə əlaqədar olaraq, Mərkəzi Seçki Komissiyasının Hüquq və İnsan Haqları İnstitutu ilə birgə layihəsi çərçivəsində Gəncədə seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr edilən regional seminar təşkil olunub.**



Dekabrın 27-də keçirilən seminarda Gəncəbasar üzrə dairə seçki komissiyalarının Ekspert qruplarının üzvləri iştirak ediblər.

Mərkəzi Seçki Komissiyasının üzvü Fuad Cavadov çıxışında bildirib ki, yeni forma və məzmunda ilk dəfə Azərbaycan Respublikası Prezidenti seçkilərində keçirilən bugünkü tədbir vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan müraciət və şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılmasına, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib.

Sonra MSK üzvü Qavil Orucovun, institutun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin müdiri, vəkil Vüsalə Muradxanlının və institutun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin təlimçi-eksperti Hamlet Babayevin seçkilərlə bağlı Ekspert qruplarının fəaliyyətlərinin əsasları, kazuslar üzrə praktiki məşğələlər, sinaq testlərin həlli və digər məsələlər ətrafında maraqlı və faydalı çıxışları dinlənilib.

Tədbirin praktiki hissəsində seçki qanunvericiliyi və ekspert fəaliyyəti ilə bağlı kazuslar üzrə məşğələlər keçirilib, iştirakçılar sınaq testlərinin həllinə cəlb edilib.

Sonda iştirakçılara ilk dəfə olaraq ekspert qrupunun üzvləri üçün hazırlanan, onlara yardımçı olacaq yeni yaddaş kitabçası paylanılıb.

**XQ**

# Şəkidə Ekspert qruplarının üzvləri üçün regional seminar





**Gələn il fevral ayının 7-nə ölkəmizdə növbədənkənar prezident seçkiləri təyin edilib. Seçkilərin yüksək səviyyədə, azad, ədalətli və şəffaf təşkili məqsədilə Mərkəzi Seçki Komissiyası paytaxtla yanaşı, regionlarda da genişmiqyaslı tədbirlər keçirir.**

Mərkəzi Seçki Komissiyasının Hüquq və İnsan Haqları İnstitutu ilə birgə layihəsi çərçivəsində “Seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr edilən” növbəti regional seminar Şəkidə təşkil olunub.

Tədbirdə Hüquq və İnsan haqları üzrə mütəxəssislər, eləcə də İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları üzrə dairə seçki komissiyalarının Ekspert qruplarının üzvləri iştirak ediblər.

Mərkəzi Seçki Komissiyasının üzvü Bəxşeyiş Əsgərov seminarda “Seçki hüquqlarının pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırması prinsipləri” mövzusunda məruzə edib.

Hüquq və İnsan Haqları İnstitutunun Ekspert Şurasının üzvü Vəfaddin İbayev “Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququ (I hissə)” mövzusunda təqdimatla çıxış edib.

Çıxışlar zamanı, həmçinin iştirakçılara əyani vəsaitlərdən istifadə etməklə mövzular barədə ətraflı məlumat verilib.

Daha sonra “Seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması, Ekspert qruplarının fəaliyyətinin əsasları”, “Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququ (II hissə)”, seçkilərlə bağlı Ekspert qruplarının fəaliyyətlərinin əsasları, kazuslar üzrə praktiki məşğələlər, sinaq testlərin həlli və digər məsələlər barədə çıxışlar dinlənilib, məlumat verilib.

Tədbirin praktiki hissəsi başa çatandan sonra MSK nümayəndələri seçki qanunvericiliyi və ekspert fəaliyyəti ilə bağlı kazuslar üzrə məşğələlər keçirib, dairə seçki komissiyaların üzvləri sınaq testlərinin həllinə cəlb olunub.

Həmçinin ilk dəfə Ekspert qrupunun üzvləri üçün hazırlanan, onlara yardımçı olacaq yeni yaddaş kitabçası paylanılıb.

**XQ**

# Veteranlar Prezident İlham Əliyevin siyasətinin davam etməsini istəyir

**Dünən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı İctimai Birliyi ümumi yığıncağını keçirib.**



Yığıncağı təşkilatın müavini, polkovnik Cəlil Xəlilov açaraq qeyd edib ki, Ulu öndərin imzaladığı ilk qanunlardan biri veteranların hüquqlarının bərpası ilə bağlı qanun olub. Bununla da veteranlara dövlət qayğısı tamamilə bərpa edilib, onlara münasibət yüksək səviyyəyə qaldırılıb.

Veteranlara dövlət qayğısının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirən sədr müavini, onlara olan bu münasibətin hər kəs üçün örnək olduğunu qeyd edib.

Tədbirdə çıxış edən təşkilatın sədri Fatma xanım Səttarova ölkədə veteranlara göstərilən qayğı və diqqətə görə Prezidentə, Birinci vitse-prezidentə öz dərin minnətdarlığını bildirib.

Sumqayıt Şəhər Veteran Təşkilatının sədri – əmək veteranı Sovet Şükürov, Əməkdar müəllim Sara xanım Xanlarova, Milli Qəhrəman polkovnik-leytenant Anar Mirzəyev, istefada olan general-mayor Vladimir Timoşenko və başqaları çıxış edərək Ulu öndərin tarixi xidmətlərindən bəhs edib, Heydər Əliyev siyasi kursunun uğurlu davamçısı Prezident İlham Əliyevin Azərbaycanın hərbi, iqtisadi və siyasi qüdrətini artırmaq üçün gördüyü misilsiz işlərə diqqət çəkiblər.

Müzakirələrin sonunda Prezident İlham Əliyevə dəstək Bəyanatı qəbul edib.

**XQ**

# Azərbaycanın Rus İcması seçiciləri aktivliyə çağırdı

**Azərbaycanın Rus İcmasının Respublika Şurası Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə bağlı müraciət yayıb.**

Müraciətdə deyilir: “Rus İcmasının üzvləri “Yeni Azərbaycan” partiyasının 2024-cü il fevralın 7-də keçiriləcək seçkilərdə İlham Heydər oğlu Əliyevin bu partiyadan prezidentliyə namizədliyini irəli sürməsini dərin məmnunluq hissi ilə qarşılayıblar. Əminik ki, Rus İcmasının üzvləri bundan sonra da Prezidentimizi, onun sülhün möhkəmlənməsi, çoxmillətli cəmiyyətdə dostluq və qardaşlığın qorunub saxlanılması, ölkənin silahlı qüvvələrinin gələcək inkişafı və güclənməsi istiqamətində məqsədyönlü, barışmaz mövqeyini dəstəkləyəcək və Vətənimizin işıqlı gələcəyi naminə öz səslərini İlham Heydər oğlu Əliyevə verəcəklər”.

**XQ**

# “Heydər Əliyev İli”nə həsr olunan xüsusi kollegiya iclası



**Dekabrın 27-də Ədliyyə Nazirliyində “Heydər Əliyev İli”nə həsr olunan xüsusi kollegiya iclası keçirilib.**

Nazir Fikrət Məmmədov müasir müstəqil dövlətimizin banisi ulu öndər Heydər Əliyevin demokratik hüquqi dövlət quruculuğunda misilsiz xidmətlərindən danışıb.

Bildirib ki, Heydər Əliyevin müasir hüquq sistemimizin banisi olaraq xidmətləri danılmazdır. Ulu öndərin 100 illiyini qeyd etdiyimiz “Heydər Əliyev İli”ndə Ədliyyə Nazirliyi tərəfindən Ümummilli liderin müasir ədliyyə və məhkəmə-hüquq sisteminin bərpərar olmasında dühasına, humanizm və gənclər siyasətinə, digər sahələrdə əvəzsiz xidmətlərinə həsr olunan silsilə tədbirlər keçirilib.

Heydər Əliyevlə bağlı xatirələrini bölüşən Dilarə Seyidzadə Ümummilli liderin böyük məktəb, həyat və fəaliyyətinin isə hər kəs, xüsusilə gənclər üçün örnək olduğunu bildirib, zəngin irsinin daim öyrənilməsinin və ondan bəhrələnilməsinin əhəmiyyətini qeyd edib, Azərbaycanı dünyada tanıtmaq Heydər Əliyevin böyük amallarından biri olduğunu vurğulayıb.

Ölkəmizin bu gününün və sabahının qarantı, sülhün və sabitliyin təminatçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bundan sonra da zirvələrə doğru uğurla irəliləyəcəyi vurğulanıb.

**XQ**

# 2 diplomatımız “persona non-grata” elan edilib



**Azərbaycanın Parisdəki səfirliyinin iki əməkdaşı Bakının fransalı diplomatlara qarşı oxşar hərəkətinə cavab olaraq “persona-non-grata” (arzuolunmaz şəxs) elan edilib.**

Bu barədə Fransa Xarici İşlər Nazirliyi "X" səhifəsində məlumat yayıb.

“Rəsmi Paris Azərbaycanın Fransanın Azərbaycandakı səfirliyinin diplomatik heyətinin iki əməkdaşını “persona-non-grata” (arzuolunmaz şəxs) elan etməsi ilə bağlı qərarını nəzərə alıb. O, Azərbaycanın öz qərarını əsaslandırdığı iddiaları qəti şəkildə rədd edir. Fransa cavab tədbiri olaraq Azərbaycanın Fransadakı səfirliyinin iki əməkdaşını “persona-non-grata” (arzuolunmaz şəxs) elan edib”, – məlumatda deyilir.

# Sən Qafqazda yadsan, müsyö!



(əvvəli 1-ci səhifədə)

Makron doğrudanmı bu qədər qətiyyətsizdir ki, bir ovuc erməninin qarşısında farağat dayanır? İş o həddə çatıb ki, Azərbaycan Prezidenti ilə görüşdən sonra bu barədə Fransadakı erməni diasporunun həmsədri Papazyana hesabat verir. Fransanın bölgədə yad aktora dönməsi üçün başqa hansı tutarlı səbəb lazımdır?

## Əvvəlcə Bakıdan, sonra Qafqazdan rədd olacaqsan

Fransanın Azərbaycandakı səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" elan olunması bu ölkənin diplomatik nümayəndəliklərinin "casus yuvası"na çevrildiyindən xəbər verir. Bununla əlaqədar Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.

XİN-in yaydığı məlumatda qeyd edilir ki, Fransa səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətlərinə görə ciddi etiraz bildirilib və onların Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" elan olunduğu Fransa səfirinin diqqətinə çatdırılıb. Həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb olunub və XİN-in müvafiq etiraz notası Fransa səfirinə təqdim edilib.

Oxucularımıza xatırladaq ki, bir müddət əvvəl "indentificator.in.ua" saytı yaydığı məlumatında Azərbaycan xüsusi xidmət orqanlarının uğurlu əməliyyatı nəticəsində ölkə ərazisində Fransa səfirliyinin agentura şəbəkəsinin aşkarlandığını bildirmişdi. Fransa casus şəbəkəsi ilə bağlı xəbərə görə, rezidentura Fransanın "tərəfdaşları" kimi tanınan ölkələrin nümayəndələrinə qarşı çox inamlı və sakit şəkildə kəşfiyyat əməliyyatları aparıb. Üstəlik, rezidentura geniş əlaqələrdən istifadə edərək region ölkələrində fəal şəkildə fəaliyyət göstərib, yeni məqsədlər formalaşdırıb və təsir dairəsini genişləndirib. Fransa buna qədər də özünün anti-Azərbaycan fəaliyyəti ilə daim "diqqət mərkəzində" olub. Rəsmi Paris ATƏT-in Minsk qrupunun həmsədri kimi Ermənistan və Azərbaycan arasında sülh danışıqlarına yardım etmək əvəzinə, bütün fəaliyyətini qərəz və ikili siyasətə söykənərək aparırdı. Fransa birmənalı şəkildə işğalçı Ermənistanın böyründə durmaqla yanaşı, Qarabağda separatizmə dəstək verməyi də "unutmurdu". İndiki məqamda isə Azərbaycanın Qarabağda suverenliyinin bərpasını qəbul etmək əvəzinə, tərəflərin sülhə gəlməsinə hər cür üsulla mane olmağa çalışır. Məlum olduğu kimi, Azərbaycan gələn il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyi edəcək. Belə mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsinə hətta rəsmi İrəvanın dəstək verdiyi halda, Parisdəki anti-Azərbaycan "çete"si buna qarşı çıxır, ora-bura müraciətlər edirlər. Yelisey Sarayının anti-Azərbaycan siyasətinin ölkəmizdə casus şəbəkəsi yaratmağa qədər getməsinin arxasında rəsmi Bakının tutduğu prinsipial mövqe, Fransanın müstəmləkəçilik siyasətinə qarşı çıxması, bununla bağlı beynəlxalq tədbirlər keçirməsidir. Bəli, ədalət haqsızlığa qarşı durub. Hələlik iki fransız casus Azərbaycanda "persona-non-grata" elan edilib. Bunun ardınca Fransanın Qafqazdan qovulması gəlir.

## Sonuncu "va-bank" da alınmadı

Şübhəsiz ki, agentura şəbəkəsinin ifşa olunması E.Makron hökumətinin iflası deməkdir. Fransa gələn il keçiriləcək Yay Olimpiya Oyunlarına hazırlaşmaq əvəzinə, ölkələrin daxili işlərinə qarışır, qarşıdurma yaradır. Müstəmləkəçilik siyasətinə qarşı çıxanlara qarşı sərt addımlar atır. Məsələn, Nigerdən qovulan Fransa cavab tədbiri kimi Parisin himayəsi altında olan və fransızdilli ölkələri birləşdirən Frankofoniya Beynəlxalq Təşkilatından (FBT) Nigerin kənarlaşdırmağa nail olub. Nəzərə çatdıraq ki, bu təşkilata 88 dövlət üzdür və dünyada frankofonların sayı 321 milyon nəfərdir.

Qeyd edək ki, Fransa casus şəbəkəsi ilə bağlı yerləşdirilən xəbərə görə, rezidentura Fransanın "tərəfdaşları" kimi tanınan ölkələrin nümayəndələrinə qarşı çox inamlı və sakit şəkildə kəşfiyyat əməliyyatları aparıb. Üstəlik, rezidentura geniş əlaqələrdən istifadə edərək region ölkələrində fəal şəkildə fəaliyyət göstərib, yeni məqsədlər formalaşdırıb və təsir dairəsini genişləndirib.

Məlumatlı mənbələrin xəbərinə görə, bu istiqamətdə araşdırma bir-biri ilə əlaqəli olan şəxslərin şəbəkəsini aşkarlamağa imkan verən çox maraqlı məqamları üzə çıxarıb. Uzun illər Fransa kəşfiyyatının ştatdankənar əməkdaşı olmuş vətəndaşlardan biri könüllü olaraq Azərbaycanın hüquq-mühafizə orqanları ilə əməkdaşlıq təşəbbüsü ilə çıxış edib. Bu əməkdaşlıq nəticəsində Azərbaycanda xidmət etmiş, fəaliyyətlərini davam etdirən, bəziləri isə hazırda bir sıra qonşu dövlətlərdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən onlarca fransız məxfi agent ifşa edilib. Bununla yanaşı, Azərbaycan xüsusi xidmət orqanlarına Fransa rezidenturasının Cənubi Qafqaz, Yaxın Şərq, Ukrayna və Moldovadakı fəaliyyəti ilə bağlı sübut və sənədlər təqdim olunub. Bundan başqa, məlum olub ki, Azərbaycanın xüsusi xidmət orqanlarının araşdırdığı cinayət işi ilə bağlı Ukrayna, Gürcüstan və Azərbaycanla bağlı kəşfiyyat fəaliyyəti həyata keçirmiş bir sıra şəxslər həbs edilib. Bölgədə maraqlarını təmin etmək üçün, necə deyərlər, "va-bank"a gedən Parisin bu cəhdi də baş tutmadı.

## Fransızların üçdə ikisi Makrona inanmır

Belə bir qənaət ölkədə keçirilən sonuncu sosioloji sorğunun nəticələrindən qaynaqlanır. Ölkənin nüfuzlu "Le Journal du Dimanche" nəşri yazır ki, sorğuda iştirak edən 18–24 yaş arası gənclərin 54 faizi Emmanuel Makron administrasiyasının idarəetmə üsulundan yorulduğunu və ölkəni tərk etmək istədiyini bildirib. Yuxarı yaş qrupundan olan respondentlərin isə 69 faizi anketdə eyni istəyi qeyd ediblər.

"Makronizm"in Fransaya bəxş elədiyi fəsadlar tək bundan ibarət deyil. Tam əminliklə söyləyə bilərik ki, Emmanuel Makron yalnız ölkə daxilində deyil, həmçinin onun hüdudlarından kənarda da uğursuzluq uçurumuna yuvarlanlıb. Burada Cənubi Qafqazı xüsusi qeyd etməyə dəyər. Bir qədər konkretləşdirsək, Makron administrasiyası son otuz ildə var gücü ilə işğalçı Ermənistanı dəstəkləyib və bu gün də həmin siyasətini davam etdirir. Bəs açıq-aşkar anti-Azərbaycan mövqeyində dayanan Paris sonda nəyə nail oldu? Demək olar ki, heç nəyə! Amma Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, ardınca revanşist meyilli İrəvana sülməramlı əlini uzatdı.

Bölgənin şəriksiz liderinə, dünyada söz sahibinə çevrilmiş Azərbaycan Prezidenti İlham Əliyevlə müqayisədə Emmanuel Makron ilin ən uğursuz və etimadsız dövlət başçısı "statusunu" qazanıb. Bunu biz yox, fransızların özləri deyirlər. Daha doğrusu, "Le Figaro" qəzetinin keçirdiyi sosioloji rəy sorğusunun nəticələri bu qənaətə gəlməyə dəstəvuz verir. Rəqəmlərin dili ilə danışsaq, rəyi soruşulan fransızların 67 faizi hazırki prezidentə etimadını itirib. İkinci dəfə dövlət başçısı postuna yiyələnməsindən 18 ay keçsə də, Emmanuel Makron vədlərinə əməl etməyi, vətəndaşların inamını qaytarmağı bacarmayıb. İndi onun güvənə biləcəyi yeganə instansiya partiyadaşlarının ("Dirçəliş" partiyası) çoxluq təşkil etdiyi Senatdır. "Le Figaro" yazır ki, nə qədər gec deyil, Makron düşdüyü fors-major situasiyadan çıxmalıdır. Əks-təqdirdə onun siyasi aqibətinin necə olacağını proqnozlaşdırmaq belə çətindir.

Fransa ilə yanaşı, Ermənistan da bu məlumatlardan özünə nəticə çıxarmalıdır. İrəvan, nəhayət, anlamalıdır ki, onun üçün çıxış yolu Fransaya və ya başqa birisinə güvənmək yox, Azərbaycanla sülhə gəlməkdir.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Könül NURULLAYEVA,**
**Milli Məclisin deputatı, Azərbaycan–Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü**

Fransanın Qafqaz siyasəti bütün cəbhələrdə iflasa uğrayıb. Azərbaycanın haqlı olaraq Fransa səfirliyinin iki əməkdaşını "persona-non-grata" elan etməsi rəsmi Parisin bölgədə pozuculuq fəaliyyəti ilə məşğul olduğunu bir daha təsdiqləyib. Yelisey Sarayının xarici siyasətdəki uğursuzluğu həm də Azərbaycana qarşı BMT Təhlükəsizlik Şurasında cəhdlərinin nəticəsiz qalması ilə də müşaiyət olunub. Görünən budur ki, Fransanın Cənubi Qafqazda yürütməyə çalışdığı siyasət bütün istiqamətlər üzrə fiaskoya uğrayıb. Azərbaycan xüsusi xidmət orqanlarının yüksək peşəkarlıqla həyata keçirdikləri əməliyyat nəticəsində Fransa səfriliyinin çətiri altında Ukrayna, Gürcüstan və Azərbaycanla əlaqədar kəşfiyyat-pozuculuq fəaliyyəti ilə məşğul olan bir sıra şəxslər həbs olunublar. Bu, Makron hakimiyyətinin növbəti fiaskosudur. Prezident İlham Əliyevin də söylədiyi kimi, Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar: "Bu günün reallığı onu göstərir ki, Ermənistan Fransa tərəfindən silahlandırılsa da, revanşizmə açıq dəstək versə də Azərbaycanla danışaqlara getməkdən başqa çıxış yolu yoxdur".

Fransada ümid edirlər ki, ermənilərə işlənmiş üç-beş zirehli döyüş maşını verməklə burada önəmli faktora çevrilə biləcəklər. Azərbaycanla normal münasibətlər qurmayınca, Fransanı Cənubi Qafqazda siyasi uğur gözləmir. Bundan savayı, Paris Orta Asiya ilə qurduğu təmasların Bakısız uğurlu olacağına ümid edə bilməz.

Bizə beynəlxalq müstəvidə, eləcə də ikitərəfli münasibətlərdə təsir göstərmək istədilər, alınmadı. İndi qisaslarını Xan qızı Xurşidbanu Natəvanın heykəlini sökmək kimi ucuz şou ilə alırlar. Azərbaycan isə ciddi dövlət olduğunu növbəti dəfə nümayiş etdirdi. Həm də konkret fakt və sübutlarla. Ümid edirik ki, bu ölkənin xanım səfiri Xarici İşlər Nazirliyində ona söylənənləri Parisin diqqətinə çatdıracaq.

### Ekspert rəyi



**Elçin MİRZƏBƏYLİ,**
**siyasi şərhçi**

Dekabr ayının əvvəllərində Burkino-Fasoda Fransa səfirliyinin 4 əməkdaşı casusluq və pozuculuq fəaliyyətində şübhəli bilinərək saxlanıldı. Üzə çıxdı ki, "casus-diplomatlar"ın əsas "fəaliyyət istiqamətləri" Burkino-Fasoda Fransanın müstəmləkəçilik siyasətinə qarşı çıxış edənlər barədə məlumat toplamaq, "beşinci kolon" təmsilçilərini təlimatlandırmaqdan ibarət olub.

Bu faktlar, həmçinin Fransa xüsusi xidmət orqanlarının Cənubi Qafqazda, Mərkəzi Asiyada fəallaşması ilə bağlı Azərbaycanın təhlükəsizlik orqanlarının peşəkarlığı sayəsində əldə olunan məlumatlar Parisin mühüm enerji və nəqliyyat dəhlizlərinin keçdiyi geniş bir regionda sabitliyi pozmaq, qarşıdurma yaratmaq niyyətindən xəbər verir. Fransanın Cənubi Qafqazda və digər regionlarda əsasən diplomatik korpus üzvlərindən ibarət casus şəbəkəsinin rüsvayçı ifşası bu ölkənin xarici təhlükəsizlik baş idarəsinin rəhbərinin istefaya göndərilməsi ilə nəticələnib.

Parisin iddialı davranışları təkcə Afrikada, Yaxın Şərqdə, Aralıq dənizi hövzəsində deyil, Cənubi Qafqazda, Mərkəzi Asiyada da dalana dirənib. Azərbaycana qarşı qərəzli siyasət, həmçinin rəsmi Bakının uğurlu diplomatik gedişləri Fransanın BMT Təhlükəsizlik Şurasında təxribat xarakterli qərarların qəbuluna bütün cəhdlərini iflasa uğradıb.

Fransanın müstəmləkəçi siyasəti, tarix boyu kütləvi qətliamlarla, dəhşətli müharibə cinayətləri ilə müşayiət olunan "səlib yürüşləri", müharibə və münaqişələr üzərində qurulub. Cənubi Qafqazda xarici maraqların ifadəçisi olan, gah bu, gah da digər qütbün "ətəyinə bürünən" Ermənistanı hədsiz qəzəblə himayə etməsi Parisin feodal dövrünün qaranlıqlarından qopa bilmədiyindən xəbər verir. Görəsən, 30 il ərzində azərbaycanlılara məxsus dini abidələri, qəbiristanlıqları dağıdan və bundan "zövq" alan ultramillətçi erməni təfəkkürü ilə səlibçi, neokolonist fransız dünyagörüşü arasında hansı fərq var?

KÖŞƏ

# Fransa şəbəkəsi üzərində əməliyyat Azərbaycanı dünya KİV-lərinin gündəminə çıxarıb



***Müşfiq ƏLƏSGƏRLİ,***
*Mətbuat Şurası İdarə Heyətinin üzvü, Media eksperti*
*mushfiq@juhiaz.org,*

**Fransa xüsusi xidmət orqanlarının formalaşdırdığı casus şəbəkəsinin Azərbaycan Dövlət Təhlükəsizlik Xidməti tərəfindən ifşa olunması qlobal xəbər gündəmində yer tutub. Reuters, Deutsche Welle, The Street Journal, TRT World, Le Monde, TASS, Radio Free Europe/ Radio Liberty və digər məşhur trans-milli KİV-lər mövzu üzrə çoxsaylı xəbərlər paylaşıblar. Paralel şəkildə trans-sərhəd KİV-lər də insidenti diqqət mərkəzində saxlayıblar. Belə KİV-lərin sayı kifayət qədər çoxdur.**

Qlobal ictimai rəy yaradıcısı olan KİV-lərin mövzuya yanaşmasında 2 istiqamət diqqət çəkir. Birinci istiqamət odur ki, əksər KİV-lər mövzunu şərh etmədən statistik informasiyalar yayırlar. Yəni, Fransa xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən casus şəbəkəsinin ifşa olunması, prosesin davamı olaraq Fransa səfiri Ann Buayonun Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılması və nota verilməsi, həmçinin, prosesdə rol alan iki nəfər səfirlik əməkdaşının "arzuedilməz şəxs" qismində ölkədən çıxarılmasına dair ümumi xəbərlər paylaşırlar.

2-ci istiqamət isə odur ki, trans-milli KİV-lər insidentin motivini açmağa çalışırlar. Son insidenti Fransanın Cənubi Qafqaza yönəlik ekspansiya siyasəti ilə əlaqələndirirlər. Bu kontekstdə Azərbaycanın diplomatik uğurları və Dövlət Təhlükəsizlik Xidmətinin bacarıqları önə çəkilir. Məsələ ondadır ki, DTX-nın zərərsizləşdirdiyi şəbəkənin fəaliyyəti təkcə Azərbaycan ərazisi ilə məhdudlaşmayıb. Ukrayna, Moldova, Gürcüstan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrini də əhatə edib. Belə geniş coğrafiyanı əhatə edə bilmiş bir şəbəkənin məhz Azərbaycan təhlükəsizlik orqanları tərəfindən ifşa olunması diqqət çəkir. Azərbaycan xüsusi xidmət orqanları Fransa rezidenturasının Cənubi Qafqaz, Yaxın Şərq, Ukrayna və Moldovadakı fəaliyyətinə dair dəlil və sənədlər təqdim ediblər. Bu sənədlər əsasında Ukrayna, Gürcüstan və Azərbaycanla əlaqədar kəşfiyyat fəaliyyətini həyata keçirən bir sıra şəxslər həbs olunublar. Digərləri isə istintaq altındadır.

Qeyd edək ki, Azərbaycan DTK-nın bu əməliyyatı Fransa Prezidenti Emmanuel Makronun komandasına ciddi sarsıntısı yaşadıb. Dünya KİV-ləri açıq tekstlə yazırlar ki, Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi əməliyyat Fransa xüsusi xidmət orqanlarına nüfuz zərbəsi olub. Bu, "son 50 ildə Fransa xüsusi xidmət orqanlarının rastlaşdığı ən böyük rüsvayçılıq" kimi şərh edilir.

Yeri gəlmişkən bildirək ki, Azərbaycan 2023-cü ildə Fransanın təkcə xüsusi xidmət orqanlarını deyil, həm də diplomatik qurumlarını pat vəziyyətinə salıb. Belə ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədri qismində uzun müddət Qarabağ münaqişəsini ədalətsiz formada, Ermənistanın xeyrinə həll etməyə çalışıb. Ermənistan üzərindən iş quraraq, Cənubi Qafqaza daxil olmaq istəyib. 2022-ci ildən etibarən, bu iddialarını daha da intensivləşdirib.

Rəsmi Paris özünün Cənubi Qafqazda iştirakını münaqişələrin alovlandırılmasında görür. İki ölkə arasında münaqişənin yenidən alovlandırılması üçün Ermənistanı silahlandırır. Beynəlxalq təşkilatlardakı təmsilçiliyindən faydalanaraq Azərbaycana qarşı qondarma müzakirələr açır. Hələ 2020-ci ildə-II Qarabağ Müharibəsinin davam etdiyi dövrdə Azərbaycanın məsələsini BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxararaq, təzyiq göstərmək, ölkəmizi haqq işindən yayındırmaq istəmişdi. 2022-ci ilin dekabrında isə "Laçın yolu" mövzusunu əsas götürərək, Azərbaycan məsələsini BMT müstəvisinə çıxarmaq üçün növbəti dəfə təşəbbüs göstərmişdi. Eyni hərəkətlərini 2023-cü ilin avqust ayında da təkrarlamışdı.

Azərbaycan Fransa prezidenti Makronun bütün təşəbbüslərini iflasa uğrada bildi. Qarabağ münaqişəsini Ermənistanın xeyrinə həll etmək üçün onun göstərdiyi bütün səylər nəticəsiz qaldı. Azərbaycan öz dostlarının dəstəyindən istifadə edərək, Fransanın BMT müstəvisində irəli sürdüyü təşəbbüsləri də zərərsizləşdirdi. Hətta, BMT Təhlükəsizlik Şurasının sədri olduğu dönəmdə də Fransa "Laçın yolu" mövzusunu BMT müstəvisində müzakirəyə çıxarıb uğurlu nəticələr qazana bilmədi. Avropa İttifaqındakı imkanları da onun qalibiyyətini şərtləndirmədi.

Azərbaycan özünün sistemli hərəkətləri ilə Fransanın "sülhsevər, demokratik ölkə" imicini dağıtdı.

Görünən budur ki, Makron komandası "məğlubiyyət sindromu" yaşayır. Fransa Xarici Təhlükəsizlik Baş İdarəsinin (DGSE) rəisi Bernar Emyenin qəfildən istefaya göndərilməsi də bu sindromun əlaməti kimi şərh edilə bilər.

# DIN-də əməliyyat müşavirəsi

**Daxili İşlər Nazirliyində 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında əhalinin təhlükəsizliyinin təminatına dair onlayn formatda əməliyyat müşavirəsi keçirilib.**



Naziri general-polkovnik Vilayət Eyvazov əməliyyat müşavirəsində asayişin mühafizəsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliklə bağlı qarşıda duran vəzifələri və tapşırıqları diqqətə çatdırıb.

Nazir bayram günlərində daxili işlər orqanlarının şəxsi heyətinin gücləndirilmiş rejimdə xidmət edəcəyini, əhalidən daxil olan bütün çağırışlara dərhal və çevik reaksiya verilməsinin, naryad qruplarının fəaliyyətinin fasiləsizliyi, əhalinin narahatlığına səbəb ola biləcək halların aradan qaldırılmasının, hərəkətin intensiv olacağı küçə və prospektlərdə, magistral yollarda xidmətin nümunəvi təşkilinin vacibliyini diqqətə çatdırıb.

Əməliyyat müşavirəsində 2024-cü il fevralın 7-nə təyin olunan növbədənkənar prezident seçkiləri ilə bağlı vətəndaşların seçki hüququnun təmin olunması məsələləri də müzakirə edilib.

Nazir V.Eyvazov seçki gününədək şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən, habelə 18 yaşı tamam olan vətəndaşların yeni sənədlərlə təmin olunması, eləcə də vətəndaşların yaşayış yeri üzrə qanunamüvafiq olaraq qeydiyyata alınmaları ilə bağlı zəruri tədbirlərin görülməsinə dair göstərişlər verib.

Müşavirədə iştirak edən daxili işlər orqanlarının rəhbər heyətindən respublikada asayişin, təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində fəaliyyət nəzarətdə saxlanılmaqla, qabaqlayıcı tədbirlərin səmərəliliyinin artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi tələb edilib.

***XQ***

# "Böyük Peterhof Sarayı"nda blits-görüş



(əvvəli 1-ci səhifədə)

Qeyri-formal görüşün gedişində diqqəti çəkən məqamlardan biri də Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla qeyri-formal şəkildə ayaqüstü görüşü və söhbəti olub. Aydın məsələdir ki, bu blits-görüşün mövzusu Azərbaycan və Ermənistan arasında sülh gündəliyi olub. Yeri gəlmişkən, Sankt-Peterburq görüşü barədə Rusiya Prezidentinin sözçüsü Dmitri Peskov kifayət qədər nikbin tonda şərh verib. "Bakı və İrəvan sülh müqaviləsini yekunlaşdırmağa hazırdır", – deyən Kremlin mətbuat katibi hesab edir ki, Ermənistan və Azərbaycan artıq müharibə edən tərəflər deyil: "Onlar vahid sənəd əldə etməyə, sülh danışıqlarını yekunlaşdırmağa, sülh müqaviləsinə nail olmağa tam hazır olduqlarını bildirirlər. Burada heç bir risk yoxdur".

Sankt-Peterburq Sammiti ilə bağlı rusiyalı siyasi şərhçi Aleksandr Razuvayev maraqlı açıqlama ilə çıxış edib. Onun sözlərinə görə, Putin öz milli maraqlarını qoruyan güclü suveren dövlətlərlə işləməyin çox rahat olduğunu, onlarla razılığa gəlməyin mümkünlüyünü dəfələrlə qeyd edib: "Postsovet məkanında bu ölkə Azərbaycandır. MDB məkanında qeyri-suveren oyunçuya misal olaraq isə Ermənistanı göstərmək olar. Onun Qərblə yaxınlaşma istiqamətində indi atdığı addımlar təkcə özünə deyil, eyni zamanda, MDB "orqanizmində" mövcud sabitliyə mənfi təsir göstərəcək. Bu mənada Ermənistan birlikdə sabitliyin pozulmasının aparıcı qüvvəsidir. Bölgədə kənar oyunçuların maraqlarını təşviq edən belə bir tərəfdaşla işləmək olduqca çətindir. Azərbaycanı MDB dövlətləri arasında vasitəçi də adlandırmaq olar. Axı Bakı MDB-nin daxili strukturunda regional çoxluğu təşkil edən Mərkəzi Asiya ölkələri ilə əlaqələri gücləndirir. Rusiya–Azərbaycan münasibətləri isə həmin strukturu daha da gücləndirən alətdir".

Rusiya liderinin "dəyirmi masa" görüşündə Ermənistan baş nazirinə yumurta ilə bağlı ironiyasına toxunan A.Razuvayev, əslində, iqtisadi baxımdan yumurta hekayəsinin də bir göstərici olduğunu vurğulayıb. O, Rusiyada müəyyən sahələrdə boşluq ortaya çıxan kimi, həmin kəsiri Azərbaycan və Türkiyənin uğurla bağlamağa başladığını bildirib.

***

Beləliklə, MDB dövlət və hökumət başçılarının Sankt–Peterburqdakı qeyri-formal Sammitindən müəyyən nəticələr çıxarmaq, ehtimallar irəli sürmək mümkündür. Ermənistanın bu geosiyasi məkanda yerinə və mövqeyinə diqqət yetirsək görərik ki, ondan ötrü Cənubda anti-Qərb İran, şimalda NATO və Aİ ilə münaqişədə olan Rusiya, şərqdə isə Aİ-yə daxil olmağa heç də can atmayan Azərbaycan var. Nikol Paşinyan diplomatiyada nə qədər axsasa da, coğrafiyanı və iqtisadiyyatı yaxşı bildiyini bir neçə dəfə göstərib. O, anlayır ki, Ermənistan regiondan kənarda mövcud ola bilməz. Bu ölkənin enerji təminatı, ümumiyyətlə, bütün iqtisadiyyatı Moskvanın himayəsi və nəzarəti altındadır. Onun təhlükəsizliyinə də Rusiyanın Gümrüdəki hərbi bazası zəmanət verir. Bu şərtlər daxilində Rusiyadan tamamilə ayrılma Ermənistanı hərbi-siyasi, eləcə də maliyyə fəlakətinə sürükləyə bilər. Hətta, "dərs olaraq" müəyyən ərazilərini itirər. Güman edirik ki, Paşinyan məhz buna görə AİI-nin toplantısına və MDB liderlərinin qeyri-formal sammitinə qatıldı. Onun Sankt-Peterburqa səfərinin köhnə səhvlərini qismən düzəltməyə hesablandığını tezliklə görəcəyik. İndilikdə bir faktı söyləmək olar ki, Paşinyan Rusiyaya səfər etməklə hazırkı geosiyasi reallığı qəbul etdiyini ortaya qoymuş oldu. İntəhası, onun fürsət düşən kimi qərbli tərəfdaşlarının yanına "qaçacağı", yenə eyni vaxtda "iki stulda əyləşməyə" çalışacağı şübhəsizdir. Amma o zaman Qərbin özünün buna hazır olub-olmayacağı böyük sual altındadır.

**_İ.HƏSƏNQALA_**
**_XQ_**

## Ekspert rəyi

**Tofiq ABBASOV,**
**siyasi şərhçi**



Qeyri-formal xarakter daşısa da, Sankt-Peterburq sammiti vacib görüşdür. Bu xarakterli görüşlərdə dövlət başçılarının hətta ayaqüstü görüşlərində müəyyən nəticələr də ortaya çıxa bilər. Burada görüşün mənəvi-siyasi yükü həm də ondadır ki, belə təmaslar münasibətlərin nizamlanmasına da təsirsiz ötüşmür. Düzdür, hər iki tərəfdən rəsmi dairələr və ekspertlər 2023-cü ilin sonuna kimi sülh sazişinin mütləq imzalanacağı barədə nikbin açıqlamalar və proqnozlar verilirdi. Amma hələ ki, bunun real işartıları görünmür.

Əsas problem İrəvanın konkret qərara gələ bilməməsindədir. Ermənistan rəhbərliyinin sülh müqaviləsinin mətni ilə bağlı müxtəlif bəhanələr gətirməsi bu prosesin gedişində, guya, manevr etdiyini göstərir. Baxaq görək, rəsmi İrəvanın manevr imkanları nə boydadır və hansı səviyyədə ümidvericidir? Ermənistan olduqca məhdud və yöndəmsiz bir məkandır. Yəni, o balaca perimetrdə hansı addımı atsan da, heç vaxt strateji üstünlük qazana bilməyəcəksən. Taktiki hərəkətlərinin yalnız ani faydası ola bilər. Amma onun Azərbaycan qarşısında etdiyi mansevrlərdən böyük qazanc əldə etmək ehtimalı səfərə bərabərdir.

İrəvan, nəhayət, anlamalıdır ki, Fransa, Avropa İttifaqı, ABŞ, sadəcə olaraq, onu aldadırlar. Bəli, Paşinyan bunu yaxşı başa düşdüyü üçün Rusiyanın əhatəsindən çıxa bilməyəcəyini də anlayır. İqtisadiyyatının doxsan beş faizi Rusiyadan asılı olan ölkə hansı yolla bu təsirdən qurtula bilər? Ermənistan hakimiyyəti həm də Fransanın Cənubi Qafqazda, konkret olaraq, Azərbaycanda üzləşdiyi uğursuzludan nəticə çıxarmalıdır. Çox güman ki, Sankt-Peterburqdakı görüşdə Prezident İlham Əliyev bu motivləri Nikol Paşinyanın diqqətinə bir daha çatdırıb.

İlin sonudur və İrəvanın "sülh komediyası" da başa çatır. O, artıq yeni bir dönəmə hazırlaşmalı və Azərbaycanla sülhə gəlməyin, ilk növbədə, özünə xeyir gətirəcəyini tam anlamalıdır. Bunun alternativi yoxdur.

# Qorxunun yaratdığı trayektoriya



(əvvəli 1-ci səhifədə)

Əlbəttə, bu yerdə Fransadakı erməni lobbi və diaspor təşkilatları amili üzərində də dayanmaq lazımdır. Bu qurumlar ölkənin həyatına təsir göstərmək gücündədirlər. O cümlədən, seçkilərə. Ancaq bütün dediklərimizin fonunda yenə də sual yaranır: niyə Fransa Ermənistanı dəstəkləyir? Nəyə görə İrəvan Paris üçün vazkeçilməzdir?

Bəli, istər-istəməz bu bağlantıda hansısa başqa məqamlar da axtarmaq zərurəti meydana çıxır. Əlbəttə, ilk növbədə, mənəvi bağ barədə düşünmək mümkündür. Ancaq görürük ki, ermənilər Fransa cəmiyyətində nə qədər aktiv olsalar da, onların fəallığı klassik fransız estetik ruhu ilə çulğalaşmış durumda deyil. Məsələn, erməni varlığı Rusiyanın həyatında daha çox ziyalı ampluasındadır, nəinki Fransanın. Elə isə nə? Bəlkə elə qorxu?

Qorxu psixoloji baxımdan həm də yönləndirən vasitədir. Bəzən təkcə fərdləri yox, bütöv bir toplumu idarə edir. Bəzən də dövlətlər qəsdən yaratdıqları qorxu mifi ilə öz cəmiyyətlərini nizama salırlar. Məsələn, ermənilər tarixən türklərin böyüklüyündən qorxublar. Əlbəttə, eyni zamanda, onlara paxıllıq da ediblər. Tədricən, paxıllıqları mərdimazarlığa çevrilib. Daha sonra isə nifrətə.

Göründüyü kimi, ortada qorxunun müəyyənləşdirdiyi trayektoriya var. Yeri gəlmişkən, qorxunun yaratdığı gücün təsdiqi baxımından daha bir tarixi örnək də mövcuddur. Götürək, "monqol" ifadəsini. Yəqin, fikir vermisinizsə, məişətdə, ara söhbətlərində kimsə qammaz, key təsir bağışlayan digərinə qeyri-ixtiyari "monqol" deyir. Sizcə, monqollar qanmazdırlar? Xeyr! Bu deyimi üç yüz il Monqol imperiyasının əsarətində qalmış ruslar onlara olan qorxularını yenmək üçün işlədiblər. Təxminən belə: monqol, yəni vecsiz, əhəmiyyətsiz adam.

Belə görünür, Fransa dövləti erməni qorxusunu dəf etmək üçün heç bir iksir tapmayıb. Eləcə də digərləri. Bəs, qorxu nədəndir? Şübhəsiz ki, terrordan. Çünki erməni varlığının düz-əməlli bacardığı iş elə terrordur. Dediklərimizin təsdiqini "Армянский геноцид: миф и реальност" («Erməni soyqırımı: mif və reallıq») kitabında yazılanlarda da görmək mümkündür. Bu nəşrdə yer alanlar ən çox Fransanın, ümumilikdə isə dünyanın erməni qorxusunun səbəblərinə aydınlıq gətirmək baxımından önəmlidir.

Beləliklə, "Армянский геноцид: миф и реальност" kitabında Vaşinqtondakı Türk Tədqiqatları İnstitutunun direktoru, professor Hit Louri tərəfindən 1973–1987-ci illərdə erməni terror təşkilatlarının dünyanın müxtəlif ölkələrində həyata keçirdikləri terror aktlarının sayı göstərilir. Sən demə, həmin illərdə ermənilərin ən çox terror törətdikləri ölkə məhz Fransadır. Təkcə Fransada qeyd edilən zaman kəsiyində bu mənfur aktların nəticəsində ölənlərin sayı 87, yaralananların sayı 360-dır.

Kitabda, həmçinin 1973–1987-ci illərdə erməni terrorçularının dünyanın müxtəlif ölkələrində gerçəkləşdirdikləri aktların təsnifatı da verilib. Maraqlıdır ki, Fransadan sonrakı yeri ABŞ tutur. Fransada həmin mərhələdə 61 terror aktı törədilmişdisə, ABŞ-da bu rəqəm 22-dir. Siyahıda üçüncü yeri 20 terror aktı ilə Livan tutur. O Livan ki, oradada da erməni varlığına xüsusi yanaşılır. Maraqlıdır ki, Birinci dünya müharibəsindən sonra əbədi bitərəfliyini elan edən İsveçrə siyahıda dördüncü yerdə qərarlaşıb. Burada erməni terror təşkilatlarının gerçəkləşdirdikləri aktların sayı 19-dur. İlk beşliyi 14 terror aktı ilə İran tamamlayır.

1973–1987-ci illərdə erməni terror təşkilatları İtaliyada 13, Belçikada 7, İspaniyada 6, Almaniyada 5, Türkiyədə 5, Kanadada 5, Danimarkada 4, İngiltərədə 4, Yunanıstanda 3, Avstriyada 3, Portuqaliyada 2, Avstraliyada 2 terror aktı törədiblər. Bundan başqa, həmin müddətdə Bolqarıstan, Lüksenburq və keçmiş Yuqoslaviya da erməni terrorunun qəzəbinə tuş gəlmiş ölkələrdir. Bu terror aktlarının ümumi sayı 198 olub ki, nəticədə 143 şəxs həyatını itirib, 636 nəfər yaralanıb.

Əlbəttə, erməni terroru ilə bağlı digər faktlar da var. Yəni, "Армянский геноцид: миф и реальност" kitabı tək deyil. Ancaq elə yalnız bu kitabda yazılanlara diqqət yetirəndə Azərbaycanın 44 günlük müharibədə Ermənistanı diz çökdürməklə, necə böyük bəşəri missiya yerinə yetirdiyini görmək mümkündür. Tam qətiyyətlə demək olar ki, ölkəmizin Zəfəri terrora bulaşmış dünya erməniliyinə də vurulmuş son dərəcə sarsıdıcı zərbədir. Amma görün, terror qorxusu dünyanın canına nə qədər hopub ki, yenə də ermənipərəstliyindən qalmır.

**_Ə.RÜSTƏMOV_**
**_XQ_**

**Dekabrın 7-də Ermənistan–Azərbaycan münasibətləri tarixində bir ilk yaşandı. Həmin gün Azərbaycan Prezidenti Administrasiyası və Ermənistan baş naziri aparatı birgə açıqlama yaydı. Açıqlamada aparılmış danışıqlar nəticəsində iki ölkə arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına dair razılıq əldə olunduğu bildirildi. Azərbaycan humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, 32 ermənini, Ermənistan isə öz növbəsində 2 azərbaycanlı hərbçini azad etdi.**

# Fransanın çabalamaları fayda verməyəcək

## *Ermənistanın Azərbaycanla danışıqlara getməkdən özgə yolu yoxdur*

Həmin hadisə Bakı ilə İrəvan arasında vasitəçilərin iştirakı olmadan birbaşa əlaqə yaratmağın, müəyyən məsələlərin həllində ortaq məxrəcə gəlməyin bariz nümunəsi oldu. Təbii ki, Ermənistanla Azərbaycan arasında danışıqlarda vasitəçilik prosesini öz inhisarına alan, uzun illər ATƏT-in Minsk qrupu adlanan səmərəsiz qurumda fəaliyyət görüntüsü yaradan bəzi ölkələr bundan narazı qaldılar. Belə ölkələrin önündə gedənlərdən biri, heç şübhəsiz ki, Fransadır.



Rəsmi Paris hər vəchlə Ermənistanla Azərbaycan arasında münasibətlərin pis olaraq qalmasına çalışır. Onlar bunu gizlətməyə çalışırlar. Ancaq çoxlarının görüb-bildiyi nəsnəni gizlətməyə çalışmaq mümkün deyil. Yaxşı deyiblər: cidanı çuvalda gizlətmək olmaz! Üç müxtəlif rejimdə xarici işlər naziri vəzifəsini tutmuş məşhur siyasi intriqa ustası, adı hiyləgərliyin və fürsətgirliyin sinoniminə çevrilmiş Taleyranın nəvə-nəticələri öz xəbis niyyətlərini nə qədər gizlətməyə çalışsalar da, gec-tez hər şey aşkara çıxır.

"Beşinci Respublika" bu gün Ermənistanın Azərbaycanla sülh sazişi imzalamasına mane olmaq yolunda müxtəlif cəhdlər edir. Ermənistanın silahlandırılması bunun ən mühüm göstəricisidir. Sual olunur: Həmin silahlar Ermənistanın nəyinə gərəkdir? Ermənistanın təhlükəsizliyinə hansı ölkədən təhdidlər var? Ermənistanın dörd qonşusundan ikisi (İran və Gürcüstan) ilə münasibətləri yaxşı vəziyyətdədir. Türkiyə və Azərbaycanla münasibətlər normallaşma yolundadır. Azərbaycan Ermənistana qarşı ərazi iddiasının olmadığını ən yüksək səviyyədə bəyan edib. Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin mayın 3-də Şuşada "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda səsləndirdiyi fikirlərdən iqtibas gətirmək yerinə düşər: "Buna görə biz onların konstruktivliyinə ümid edirik. Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar. Çünki bütün geosiyasi vəziyyət, – söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir, – dəyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir. Lakin onlar üçün, bu, böyük çağırış olacaqdır..."

Bundan əlavə, Fransa Ermənistanda revanşist əhval-ruhiyyənin artmasına da öz "töhfə"sini verir. Fransa bu addımı ilə həm də Nikol Paşinyan hökumətinə qarşı çıxmış olur. Məsələ ondadır ki, Ermənistanda revanşist kəsimi təmsil edən daha çox "Qarabağ klanı" adlanan siyasi zümrədir. Qarabağda etnik separatizmin alovlanmasında xüsusi rola malik Robert Koçaryan, Serj Sarkisyan, Seyran Ohanyan kimi şəxslər həmin siyasi düşərgəyə mənsubdurlar. Onlar isə öz növbəsində Paşinyana müxalifətdədirlər. Beləliklə, Fransa iqtidarı Ermənistandakı revanşistləri dəstəkləməklə, əslində, Paşinyanın əleyhinə fəaliyyət göstərir.

Fransanın atdığı bu addımlar Ermənistanın və erməni xalqının da maraqlarına ziddir. Bunu təkcə biz demirik. Normal düşüncə tərzinə, prosesləri obyektiv qiymətləndirmək imkanına malik istənilən şəxs bu fikirdədir. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da dünən bildirib ki, Qərb Ermənistan əhalisinin taleyinə biganədir. Xanım Zaxarova ilin yekunlarına dair brifinqdə çıxış edərkən deyib: "Ötən il bir çox ölkələr və xalqlar üçün çətin oldu. Ermənistan üçün də asan olmadı. Biz İrəvanı təhlükəli geosiyasi oyunlara cəlb etmək üçün müxtəlif cəhdlər edildiyini görürük. Biz görürük ki, Qərb erməni əhalisinin və Ermənistan xalqının taleyinə tamamilə biganədir. Onlar erməni xalqının emosiyalarından, tarixi yaddaşından, ağrılarından, iztirablarından yalnız öz mənfəətləri üçün istifadə edirlər. Münasibətlərin müttəfiqliyini nəzərə alaraq, biz Ermənistanın sülh, sabitlik və rifahına hər cür töhfə verməyə hazırıq. Bu, həqiqətən də, bizim üçün son dərəcə vacibdir".

Sözsüz ki, Fransa da M.Zaxarovanın nəzərdə tutduğu "Qərb" anlayışına daxildir. Ancaq Fransa bu prosesdə tək deyil. Ermənistanla Azərbaycan arasında danışıqlar prosesinə mane olmaq istəyən ABŞ da diqqətdən kənarda qala bilməz. Fransa ilə ABŞ, sanki tandemə çevrilib. Onun qayəsində orta əsrlər dövrünə xas səlibçiliyin elementləri var. Ancaq bu fəaliyyətin də heç bir səmərəsi və nəticəsi olmadı. Azərbaycanın prinsipial mövqeyi nəticəsində ABŞ geri çəkilmək məcburiyyətində qaldı. Dövlət Departamentinin nümayəndəsi özü, necə deyərlər, Azərbaycanın ayağına gəlməyə məcbur oldu.

Yeri gəlmişkən, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov da bugünlərdə bildirib ki, Moskva Bakı və İrəvana sülh müqaviləsi üzərində işi başa çatdırmaqda kömək göstərməyə hazırdır. "İzvestiya" telekanalına müsahibə verən Peskov deyib: "Hər iki tərəf dəfələrlə işi başa çatdırmağa, sülh müqaviləsi üzrə işi yekunlaşdırmağa hazır oldğunu bəyan edib. Rusiya onlara kömək etməyə, bunu alqışlamağa hazırdır". Eyni zamanda, mətbuat katibi vurğulayıb ki, Rusiya öz vasitəçiliyində israrlı deyil, lakin sülh müqaviləsi üzərində işi başa çatdırmağın zəruriliyini anlayır: "Bizim üçün çox vacibdir ki, iki tərəfdaşımız, müttəfiqimiz təkcə MDB çərçivəsində deyil, həm də inkişaf etmiş ikitərəfli münasibətlərimiz çərçivəsində bu sazişi ən qısa zamanda bağlasınlar". Peskov əlavə edib ki, bu, sağlam atmosferi təmin edəcək. Belə ki, Moskva üçün Cənubi Qafqazda sülh, sabitlik vacibdir.

D.Peskov qeyd edib k, Rusiya Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalaması üçün siyasi iradə olduğunu görür: "Əsas odur ki, biz hər iki tərəfdə – həm Bakıda, həm də İrəvanda siyasi iradənin olduğunu görürük. Təbii ki, biz bunu dəstəkləyirik. İnanırıq ki, belə bir sazişin imzalanması həm iki ölkə, həm də bütün regionda sabitlik üçün faydalı olacaq".

Maraqlıdır ki, bütün bunlar Ermənistan baş nazirinin sülh yolunda çalışmaları, "Sülhün kəsişməsi" kimi layihə ilə çıxış etməsi fonunda baş verir. Elə dünən Ermənistan parlamentinin sədri Alen Simonyan İrəvanla Bakı arasında sülhün heç vaxt bu qədər yaxın olmadığını bildirib. Bu barədə Ermənistanın media subyektləri məlumat yayıb. A.Simonyan qeyd edib ki, gələn ili sülhə nail olmaq baxımından ümidverici il hesab etmək olar.

Fransanın bu fonda Ermənistanı silahlandırması, İrəvana hərbi-siyasi dəstək göstərilməsi, müxtəlif fransız rəsmilərin qızışdırıcı açıqlamalar verməsi Cənubi Qafqazda sülhü pozan əsas amillərdir. Paris artıq, necə deyərlər, açıq kartlarla oynayır və əlində olan bütün imkanlardan Azərbaycana qarşı istifadə edir. Elə MDB dövlət başçılarının dekabrın 26-da Sankt-Peterburqda keçirilən qeyri-rəsmi görüşündə də iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün tarixi şəraitin yarandığının şahidi olduq. Lakin Fransa dövləti hazırda sülhə qarşı əsas maneə kimi görünməkdədir. Bütün bunlara baxmayaraq, Fransanın çabalamaları heç bir nəticə verməyəcək. Ermənistanın Azərbaycanla danışıqlara getməkdən başqa çıxış yolu yoxdur.

**_Səxavət HƏMİD_**
**_XQ_**

## Ekspert rəyi

**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**



– Fransa Azərbaycana qarşı qərəzli siyasət aparır. Bunun bir sıra səbəbləri var. İlk növbədə, erməni diasporu faktoru mövcuddur. İkincisi, Fransa Cənubi Qafqazda özü üçün yeni geosiyasi rol axtarır. Xüsusilə, Malidə, Afrikanın digər yerlərində və başqa müstəmləkə ərazilərdə Fransanın siyasəti uğursuz olub. İndi özü üçün yeni məkan axtarır.

Digər səbəb Türkiyədir. Fransa hər zaman Türkiyə əleyhinə siyasət aparıb. Paris, belə deyək, Qərb cinahında Yunanıstanı, Şərq cinahında Ermənistanı dəstəkləyir. Fransa Azərbaycanı Türkiyənin müttəfiqi kimi görərək, ölkəmizə qarşı da eyni münasibət bəsləyir. Bir sıra digər məqamlar da var. Burada prezident Emmanuel Makronun və xarici işlər naziri Ketrin Kolonnanın müəyyən şəxsi qərəzi də öz rolunu oynayır.

Fransa BMT Təhlükəsizlik Şurasında 3 dəfə Azərbaycan əleyhinə qətnamənin qəbul olunmasına çalışıb. Bunların hamısı uğursuz olub. Ancaq bu səyləri davam etdirir. Məndə olan məlumata görə, Fransa nümayəndələri noyabr ayında TŞ-nin sədri olan Birləşmiş Ərəb Əmirlikləri təmsilçisinə müraciət edərək yenidən bu məsələni qaldırıblar. Yəni, Azərbaycan əleyhinə sənədin qəbuluna çalışıblar. Bu da uğursuz olub.

Fransa səfirliyinin iki əməkdaşının arzuolunmaz şəxs elan edilməsi səhv etmirəmsə, Azərbaycanın tarixində ilk haldır. Yəqin ki, həmin şəxslərin əməlləri barədə ictimaiyyətə daha ətraflı məlumat veriləcək. Bundan əvvəl də Fransa səfirliyinin müəyyən şəxslərə nağd pul verməsinə görə səfirliyin rəhbərliyi Xarci İşlər Nazirliyinə dəvət olunmuş və onlara etiraz bildirilmişdi.

# Zəfər və rifah siyasətinin təntənəsi





**Şanlı Zəfər dövrünü yaşayan Azərbaycan dövləti qüdrətli ordusu və dinamik iqtisadi inkişaf tempi ilə yanaşı, güclü sosial siyasəti ilə də seçilir. Bu il anadan olmasının 100 illiyini qeyd etdiyimiz Ümummilli lider Heydər Əliyevin uğurlu sosial siyasətini ötən dövrdə Prezident İlham Əliyevin ən yüksək səviyyədə davam və inkişaf etdirməsi milli prioritetlərdəndir. Dövlət başçısının Azərbaycanın hərtərəfli tərəqqisinə xidmət edən siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayanması ölkəmizin sosial sahədə böyük inkişaf yolu keçməsinə, əhalinin güzəranının gücləndirilməsi istiqamətində tarixi irəliləyişlərə imkan verib.**

Prezident İlham Əliyevin uğurlu xarici və daxili siyasəti nəticəsində ötən 20 ildə Azərbaycan dünya miqyasında rekord templə inkişaf edən və 4 dəfədən çox iqtisadi artım əldə edən, qüdrətli ordu quran, strateji hədəflərinə doğru inamla addımlayan, dünya birliyində layiqli yer tutaraq etibarlı tərəfdaş kimi tanınan, beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqe tutan bir ölkəyə çevrilib.

Vətən müharibəsində silahlı qüvvələrin müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu müasir dünyanın hərb tarixinə misilsiz döyüş peşəkarlığı nümunəsi kimi yazılan uğurlu hərbi əməliyyatları ilə möhtəşəm tarixi Zəfərə imza atdı. Beynəlxalq səviyyədə tanınan ərazilərimiz Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad edildi.

Ölkə rəhbərinin sosial sahəyə xüsusi qayğısı ötən 20 ildə dövlətimizin sosial siyasətinin ildən-ilə güclənməsinə, dayanıqlı və əhatə dairəsi daim genişlənən etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan verib. Həmin dövrdə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərclərində 20 dəfədən çox, minimum əməkhaqqında 38 dəfə, minimum pensiyada 14 dəfə, orta aylıq əməkhaqqında 12 dəfə, orta aylıq pensiyada 18 dəfə, yaşa görə orta aylıq pensiyada 19 dəfə, pensiya üzrə ödənilən illik vəsaitdə 30 dəfədən çox artım baş verib. Hər ilin əvvəlində pensiyaların və fərdi hesablardakı pensiya kapitallarının indeksləşdirilərək artırılması təmin olunub.

Hazırda yaşa görə orta aylıq pensiyanın məbləği (467 manat) pensiyaçılar üçün yaşayış minimumundan (199 manat) 2,3 dəfə artıqdır. Xalis minimum aylıq əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbəti isə 2003-cü ildəki 11,7 faizdən 2018-ci ildə 26,5 faizə, bu ilin əvvəlində isə 41,1 faizə çatıb. Ünvanlı dövlət sosial yardımın hər ailəyə düşən orta aylıq məbləğində isə 11 dəfə artım baş verib. Eyni zamanda, son illər qanunvericilikdə bir sıra dəyişikliklər edilərək, ünvanlı yardım proqramının əhatə dairəsi genişləndirilib, sosial yardımın təyinat şərtləri xeyli yumşaldılaraq bu proqrama əlçatanlıq artırılıb.

Son 20 ildə yeni iş yerlərinin açılması daimi xarakter alıb, aktiv məşğulluq proqramlarının uğurla davam etdirilərək ildən-ilə əhəmiyyətli dərəcədə genişlənməsi, sosial müdafiə və reabilitasiya əhəmiyyətli yeni müəssisələr şəbəkəsinin qurulması təmin edilib.

"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır" – deyən Prezidentin imzaladığı fərman və sərəncamlar nəticəsində, xüsusilə, son beş ildə mühüm sosial irəliləyişlər əldə edilib. Bu dövrdə 4 milyondan çox vətəndaşı əhatə edən, icrasına əlavə olaraq illik 7 milyard manata yaxın vəsait ayrılan 4 sosial islahat paketi həyata keçirilib.

Ümumilikdə, 2018–2023-cü illərdə minimum pensiya 2,5 dəfə, minimum əməkhaqqı 2,7 dəfə artırılıb. Orta aylıq pensiya 208 manatdan 437 manata, yaşa görə orta aylıq pensiya 234 manatdan 467 manata, orta aylıq əməkhaqqı 545 manatdan 921 manata çatıb. Median əməkhaqqında 2,2 dəfə, əməkhaqqı fondunda 2,7 dəfə, sosial müavinət və təqaüd ödənişlərində 5 dəfə artıma nail olunub. Ehtiyac meyarı 130 manatdan 246 manata, yaşayış minimumu 173 manatdan 246 manata çatdırılıb.

Sosial rifahda mühüm amil olan, 1,1 milyon insanı əhatə edən pensiya təminatı gücləndirilməklə, bu təminat proqramına əlçatanlığın daha da artırılması, pensiya sistemində humanist yanaşmaların tətbiqi sahəsində mühüm addımlar atılıb. 2019-cu ilin əvvəlindən yaşa görə müavinət yaşı pensiya yaşı ilə eyniləşdirilib, ötən ildən erkən pensiya hüququ olan kateqoriyaların sırası daha da genişləndirilib.

Aparılan islahatlar pensiya təminatının da əhəmiyyətli dərəcədə güclənməsinə səbəb olub. Pensiyalar üzrə xərclənən illik vəsait 2018-ci ildəki 3 milyard 523 milyon manatdan ötən dövrdə 2,4 milyard manat artaraq 2023-cü ildə 5,9 milyard manata çatıb. Təkcə bu ilin 11 ayında pensiya istiqaməti üzrə ayrılan vəsaitdə ötən ilin müvafiq dövrü ilə müqayisədə 715 milyon manat artım baş verib.

Sosial təminat sisteminin əhatə dairəsinin genişləndirilməsinin, həssas qrupların dövlət qayğısı ilə əhatə olunmasının daha bir göstəricisi kimi, son 20 ildə 15, o cümlədən, 2018–2023-cü illərdə 10 yeni sosial ödəniş növü təsis edilib. Onların sırasına müharibə veteranlarına, birinci dərəcə əlilliyi olanlara və əlilliyi olan 18 yaşadək şəxslərə qulluq edənlərə, Vətən Müharibəsi Qəhrəmanlarına, işləməyən pensiyaçı elmlər doktorlarına və fəlsəfə doktorlarına Prezidentin aylıq təqaüdü, uşaqları övladlığa götürən şəxslərə müavinət, himayədar ailələr üçün müavinət və s. daxildir. Nəticədə yalnız təqaüd təminatı üzrə götürdükdə, son beş ildə bu istiqamətdə ödənişlə təmin edilənlərin sayı 6,5 dəfə artaraq 393 minə çatıb.

Prezident İlham Əliyevin tapşırığına əsasən, bizim fəaliyyətimizin başlıca istiqamətlərindən biri şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin xüsusi qayğı ilə əhatə olunmasıdır. 2007-ci ilin əvvəlindən şəhid ailələri, 2008-ci ilin sentyabrından müharibə ilə əlaqədar əlilliyi olan şəxslər Prezidentin aylıq təqaüdü ilə təmin edilirlər. Həmin təqaüdlərin məbləği ötən dövrdə şəhid ailələri üçün 6 dəfə artırılaraq 100 manatdan 600 manata, müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 81–100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər üçün 5,6 dəfə artırılaraq 90 manatdan 500 manata, orqanizmin funksiyalarının 61– 80 faiz pozulmasına görə (II dərəcə) əlilliyi olan şəxslər üçün 5,7 dəfə artırılaraq 70 manatdan 400 manata, orqanizmin funksiyalarının 31– 60 faiz pozulmasına görə (III dərəcə) əlilliyi olanlar üçün 6,6 dəfə artırılaraq 50 manatdan 330 manata çatdırılıb.

Şəhid ailələri və müharibə əlilləri bu təqaüdlərlə yanaşı, aylıq pensiya və müavinətlərlə də təmin edilirlər, əmək və məşğulluq, vergi qanunvericiliyində onlar üçün bir sıra güzəştlər müəyyən olunub. Həmçinin dövlət başçısının növbəti qayğısı kimi, son illər həmin vətəndaşlar üçün mühüm sosial dəstək proqramları – 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların ailələrinin və həmin tarixədək hərbi xidmət zamanı aldığı xəsarət və xəstələnmə ilə bağlı əlilliyi müəyyən edilmiş şəxslərin və ya onların vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramları icra edilib.

Tarixi Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra isə dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək proqramı icra edilir. Bu proqram çərçivəsində həmin kateqoriyalara aid 126 min şəxs sosial dəstək yönümlü 322 min xidmətlə təmin edilib. Belə ki, postmüharibə dövründə şəhid ailələri və müharibə iştirakçılarından ibarət 104 min nəfərə 117 min sosial ödəniş təyinatı həyata keçirilib, 11 min nəfərə 54,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. 453 hərbçi 472 yüksək texnologiyalı son nəsil protezlə, 21,9 min şəxs birdəfəlik ödəmə ilə təmin olunub. 20 min 500 nəfərin məşğulluğunun təminatı həyata keçirilməklə, onlardan 10 min 300 nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatları qurulub.

Postmüharibə dövründə şəhid ailələri və qazilərə ünvanlanan müavinət və təqaüdlərdə də orta hesabla 2 dəfə artım baş verib. Onlara Vətən müharibəsindən sonra 5 min 800, ümumilikdə, 14 min 600 mənzil verilib. Həmçinin qazilərə müharibədən sonra 424, ümumən ötən dövrdə 7 min 600 avtomobil verilib.

Digər həssas qruplardan olan vətəndaşların da dövlət tərəfindən mənzillə təminatı işləri aparılır. Heydər Əliyev Fondunun mühüm sosial layihələrindən biri olaraq son illərdə Abşeron rayonunda yeni çoxmənzilli yaşayış binaları tikilərək dövlət uşaq müəssisələrinin məzunlarının istifadəsinə verilib. Sosial Xidmətlər Agentliyinin "Məzun evi" sosial müəssisəsi kimi fəaliyyət göstərən həmin yaşayış binalarında 365 məzun mənzillə təmin edilib. Son illər yeni yaşayış binalarından da həmin məzunlara mənzillər verilir. Onlardan artıq 650 şəxs mənzillə təmin edilib.

Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin başlıca istiqamətlərindən biri də dövlət sosial xidmətlərinin vətəndaş məmnunluğuna uyğun göstərilməsidir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası son illər bu istiqamətdə aparılan islahatların mühüm uğurlarından biridir. DOST Agentliyinin və ilk DOST mərkəzinin açılışı tədbirində dövlətimizin başçısı bildirib: "Bizim siyasətimiz, demək olar ki, DOST mərkəzlərində öz əksini tapır – islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək".

159 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ əsasda təqdim olunduğu DOST mərkəzlərində bu ilin 11 ayında 642 min, ümumilikdə ötən dövrdə 1,9 milyon vətəndaşa məmnunluq səviyyəsi 98,1 faiz olan xidmət göstərilib. Artıq bir sıra ölkələr Azərbaycanın DOST təcrübəsini öyrənərək bu təcrübəni özlərində tətbiq etməyə maraq göstərirlər.

DOST infrastrukturunun ölkə boyu genişləndirilməsi işləri davam edir, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə də DOST xidmətləri qurulur. 2022-ci ilin may ayında Zəngilanın Ağalı kəndində ilk "Smart DOST" xidmət məntəqəsi, bu ilin avqust ayında isə Prezident cənab İlham Əliyevin iştirakı ilə Bərdədə 9 şəhər və rayonun (Xankəndi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər) sakinlərinə xidmət edən Qarabağ Regional DOST Mərkəzi açılıb. Hazırda DOST xidmətləri şəbəkəsinin Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə, Masallı və Şuşanı da əhatə etməsi üçün layihə, təmir-tikinti işləri aparılır.

Sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əhalinin məşğulluğunun təminatıdır və ölkədə yeni iş yerlərinin açılması, məşğulluq imkanlarının artırılması davamlı xarakter alıb. Bu siyasətə uyğun olaraq son 5 ildə də aktiv məşğulluq proqramları ildən-ilə genişləndirilib və 1 milyondan çox şəxsi əhatə edib. İşsizlərin kiçik biznesə çıxışında mühüm rola malik özünüməşğulluq proqramına cəlb olunanların illik sayı da son beş ildə 14 dəfə artırılaraq 16 mini ötüb. Dünya Bankının maliyyə dəstəyi ilə həssas qruplardan olan 22 min işsiz şəxsin kiçik bizneslərinin yaradılmasına hədəflənən "Azərbaycanda məşğulluğa dəstək" layihəsi də proqramın genişlənməsinə mühüm dəstəkdir. Bu layihə çərçivəsində artıq 7 min şəxsə aktivlər verilərək kiçik biznesləri qurulub.

Dövlət başçısının sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həmin ərazilərə qayıdan sakinlərin aktiv məşğulluq tədbirləri ilə əhatə olunması başlıca fəaliyyət istiqamətlərimizdən biridir. İşğaldan azad edilmiş ərazilərimizə köçürülən sakinlərdən əmək qabiliyyətli olanların artıq təqribən 70 faizinin məşğulluğuna dəstək göstərilib və bu istiqamətdə işlər davam edir. Həmin bölgələrdə artıq əmək yarmarkaları da təşkil edilir.

Bu günlərdə Laçın, Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərləri, Laçının Zabux və Sus, Füzulinin Dövlətyarlı, Cəbrayılın Horovlu və Şükürbəyli, Qubadlının Mahruzlu və Zilanlı, Ağdərənin Talış və Suqovuşan, Ağdamın Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin sakinləri üçün peşə hazırlığı kurslarının təşkilinə başlanıb. Kurslara 2023–2024-cü illərdə həmin ərazilərdə məskunlaşmış, habelə məskunlaşacaq işsizlər cəlb ediləcək. Kurslarda iştirak üçün müraciət forması və qeydyyat barədə artıq media vasitəsilə məlumat da verilib.

Ümumilikdə, işğaldan azad olunan ərazilərimizdə aktiv məşğulluq proqramları genişlənəcək. Həmin bölgələr üzrə ilkin mərhələdə 12 min şəxsin peşə hazırlığına cəlb edilməsi planlaşdırılır. Eyni zamanda, Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planı üzrə 2023–2026-cı illərdə Cəbrayıl rayonunda Regional DOST Mərkəzinin və Peşə Hazırlığı Mərkəzinin, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın və Şuşada DOST filiallarının, Kəlbəcərdə Reabilitasiya Mərkəzinin yaradılması da nəzərdə tutulub.

Ölkə Prezidentinin əlilliyi olan şəxslərə xüsusi qayğısının daha bir təzahürü kimi, son illər reabilitasiya infrastrukturu müasir tələblərə uyğun qurulub. 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib, Qəbələdə Uşaq Reabilitasiya Mərkəzi açılıb. Bu ilin 11 ayında da 78 min 9 yüz nəfər əlilə reabilitasiya xidmətləri göstərilib, 9 min 700 şəxsə 80 min 800 reabilitasiya vasitəsi verilib. Qarşıdakı dövrdə reabilitasiya mərkəzləri şəbəkəsi ölkə boyu genişlənəcək. Quba, Ağcabədi, Kəlbəcər, Şamaxı rayonlarında da belə mərkəzlərin açılması nəzərdə tutulub.

Digər yenilik Qarabağ Regional DOST Mərkəzində Ambulator Reabilitasiya Mərkəzinin açılmasıdır. Burada da məqsəd həmin mərkəzin əhatə etdiyi rayonlarda əlilliyi olan şəxslərin reabilitasiya xidmətlərinə əlçatanlığının artırılması, bərpa prosesində əldə edilən nəticələrin davamlılığının təmin edilməsidir. Yaradılacaq digər regional DOST mərkəzlərində də ambulator reabilitasiya xidmətlərinin təşkili nəzərdə tutulur.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi isə əlillərin və digər həssas qrupların yaradıcılıq potensialının inkişaf etdirilməsinə, onların inklüziv şəraitdə cəmiyyətə fəal inteqrasiyasına xidmət göstərən məkandır. Ötən dövrdə burada 480 benefisiar müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlimlərdə iştirak edərək bacarıq və qabiliyyətlərini inkişaf etdirib, həmçinin sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıblar. Onların 321-i əlil, 76-sı valideyn himayəsindən məhrum uşaq, 72-si aztəminatlı ailənin üzvü, 18-i şəhid ailəsi üzvünün, müharibə əlilinün övladları olub.

Ötən ay Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin İsmayıllı rayonunda "DOST EVİ" filialının açılışı olub. 10 istiqamət üzrə 6 emalatxananın (dulusçuluq, bədii oyma, misgərlik və zərgərlik, dərzilik və kəlağayı, xalçaçılıq, toxuma və bədii tikmə, un məmulatları emalatxanaları) fəaliyyət göstərdiyi bu yeni inklüziv məkan da bölgədə yaşayan əlillərin və digər həssas qrupların təlimlər vasitəsilə müxtəlif istiqamətlərdə bacarıq və qabiliyyətlərinin təkmilləşməsinə, onların məşğulluğuna, gəlir imkanlarının artırılmasına, milli sənətkarlığın inkişafına, bölgədə turizm imkanlarının genişləndirilməsinə və s. dəstək məqsədinə xidmət edir.

Son illər mühüm addımlar atılaraq, sosial xidmətlərin geniş miqyasda elektronlaşdırılması təmin edilib. Hazırda nazirliyin 159 xidmətindən 140-dan çoxu e-platformadan təqdim edilir, 30-dan çox e-arayış xidməti, 50-dən çox proaktiv xidmət yaradılıb. 2019-cu ildə ölkənin sosial reyestri olan e-sosial.az portalı, 2020-ci ildə fərdi hesabların e-qaydada proaktiv açılması xidməti, 2022-ci ildə "Əmək və Məşğulluq" altsistemi istifadəyə verilib.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq son illər ölkəmizdə aparılan sosial islahatların uğurları, dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, müasir iş prinsipləri, rəqəmsal mexanizmlər üzərində təqdim edilməsi, vətəndaş məmnunluğuna uyğun çevik və şəffaf, proaktiv xidmətlər sisteminin yaradılması beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymət alıb: yalnız 2022–2023-cü illərdə nazirlik və qurumları 44 beynəlxalq mükafat və sertifikatla təltif edilib.

Beləliklə, Prezident İlham Əliyevin sosial sahəyə yüksək qayğısı nəticəsində ölkəmizdə vətəndaş rifahının və məmnunluğunun təminatı istiqamətində mühüm tarixi nailiyyətlər, əmək, məşğulluq, sosial müdafiə sistemlərinin inkişaf etdirilməsi sahəsində beynəlxalq səviyyədə də qabaqcıl islahat nümunələri kimi qəbul olunaraq təbliğ edilən uğurlar əldə olunub və bu sosial nailiyyətlər silsiləsi qarşıdakı dövrdə də davam edəcəkdir.

*Vüsal NƏSİRLİ,*
*Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini*

# Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü il büdcəsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü il büdcəsini formalaşdırmaq və Fondun valyuta vəsaitinin səmərəli idarə edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü il büdcəsinin gəlirləri 12 073 255,5 min manat, xərcləri isə 12 900 232,5 min manat məbləğində təsdiq edilsin.

Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü il büdcəsinin gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlir mənbələri | Gəlirlərin məbləği (min manat) |
|---|---|---|
| 2.1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlir (karbohidrogenlərin nəqli üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 8 146 218,8 |
| 2.2. | Karbohidrogen ehtiyatlarının işlənilməsi ilə əlaqədar müqavilə sahəsindən istifadə üçün sərmayəçilərin akrhesabı ödənişləri | 3 600,6 |
| 2.3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlir | 24 223,4 |
| 2.4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlir | 3 131 968,3 |
| 2.5. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar | 767 244,4 |
| | **Cəmi** | [illegible] |

Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü il büdcəsinin xərcləri aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərc istiqamətləri | Xərclərin məbləği (min manat) |
|---|---|---|
| 3.1. | Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinə transfertin yuxarı həddi | 12 781 000,0 |
| 3.2. | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 33 526,0 |
| 3.3. | Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 47 460,0 |
| 3.4. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 38 246,5 |
| | **Cəmi** | [illegible] |

"2024-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti" təsdiq edilsin (əlavə olunur).

"Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü ildə idarə edilməsi ilə bağlı xərclər smetası" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 dekabr 2023-cü il**

# "Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2** Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemində dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsini təmin edən "Şəhərsalma Nəzarəti" altsistemi yaradılsın.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. tikintiyə icazə və istismara icazə icraatı da daxil olmaqla şəhərsalma və tikinti inzibatçılığının, şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi və rəqəmsal texnologiyaların yaratdığı imkanlar nəzərə alınmaqla, təkmilləşdirilməsi ilə bağlı təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi:

4.1. "Şəhərsalma Nəzarəti" altsisteminin formalaşdırılmasını 2026-cı il yanvarın 1-dək təmin etsin;

4.2. aidiyyəti dövlət orqanlarının (qurumlarının) həmin altsistemə çıxışını təmin etsin;

4.3. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə həmin altsistemin informasiya təhlükəsizliyinin təmin olunması üçün zəruri tədbirlər görsün;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

5.1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin;

5.2. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin və "Şəhərsalma Nəzarəti" altsisteminin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

**6.** Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin "Elektron Tikinti Portalı" altsistemi vasitəsilə yerinə yetiriləcək hərəkətlərlə bağlı müddəaları 2024-cü il yanvarın 1-dən, "Şəhərsalma Nəzarəti" altsistemi vasitəsilə yerinə yetiriləcək hərəkətlərlə bağlı müddəaları isə 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 dekabr 2023-cü il**

# Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 350,0 (üç yüz əlli) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 dekabr 2023-cü il**

# "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nın təsdiqi və "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 noyabr tarixli 1654 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 iyul tarixli 1732 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nın təsdiqi və "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 noyabr tarixli 1654 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 iyul tarixli 1732 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 721; 2023, № 2, maddə 252, № 6, maddə 782, № 7, maddə 942) 4-cü hissəsində "2023-cü" sözləri "2026-cı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 dekabr 2023-cü il**

# Quba rayonunun Amsar–Əski İqrığ–Gültəpə–Möhüc–Aşağı Tüləkəran–Yenikənd–Tülər–Yuxarı Tüləkəran avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Beş min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Amsar– Əski İqrığ–Gültəpə–Möhüc–Aşağı Tüləkəran–Yenikənd–Tülər–Yuxarı Tüləkəran avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,2 milyon (bir milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 dekabr 2023-cü il**

Azərbaycan Respublikası Prezidentinin
2023-cü il 27 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# 2024-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti

**1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (bundan sonra – Fond) vəsaitinin xərc istiqamətləri:**

1.1. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinə transfertin yuxarı həddi;

1.2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi;

1.3. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi.

**2. Fondun 2024-cü il üçün investisiya siyasəti**

2.1. Fondun investisiya siyasətinin məqsədi:

2.1.1. 2024-cü ildə Fond əsas kapitalın itirilməsi riskinin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirəcəkdir.

2.2. Fondun investisiya portfeli:

2.2.1. investisiya portfelinin proqnozlaşdırılan həcmi:

2.2.1.1. 2024-cü il üzrə Fondun investisiya portfelinin proqnozlaşdırılan məcmu dəyəri (ortaçəkili həcmi) 52,6 milyard ABŞ dollarına bərabər götürülür;

2.2.2. investisiya portfelinin valyuta tərkibi:

2.2.2.1. Fondun investisiya portfelinin baza valyutası ABŞ dolları müəyyən edilir. İnvestisiya portfelinin məcmu dəyərinin minimum 90 faizinin beynəlxalq kredit agentlikləri tərəfindən verilmiş kredit reytinqi "A" (Standard & Poor's, Fitch) və ya "A2" (Moody's) dərəcəsindən aşağı olmayan ölkələrin valyutalarında ifadə edilən aktivlərdə olması şərtilə Fondun investisiya portfelinin məcmu dəyərinin:

2.2.2.1.1. 65 faizi ABŞ dollarında ifadə olunan aktivlərə;

2.2.2.1.2. 20 faizi avroda ifadə olunan aktivlərə;

2.2.2.1.3. 5 faizi İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə;

2.2.2.1.4. qalan 10 faizi isə digər valyutalarda ifadə olunan aktivlərə yerləşdirilə bilər;

2.2.3. investisiya portfelinin altportfelləri:

2.2.3.1. Fondun investisiya portfeli aşağıdakı altportfellərdən ibarətdir:

2.2.3.1.1. borc öhdəlikləri və pul bazarları alətləri altportfeli (kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondları istisna olmaqla) – aşağı uzaqlaşma intervalı maksimum 5 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 50 faizi;

2.2.3.1.2. səhm (pay) altportfeli – investisiya portfelinin məcmu dəyərinin maksimum 25 faizi (yuxarı uzaqlaşma intervalı maksimum 2 faiz olmaqla, 5 faizə qədəri səhmlərə və kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondları, o cümlədən səhm (pay) üzrə müştərək investisiyalarda iştirak payları olmaqla);

2.2.3.1.3. daşınmaz əmlak altportfeli – yuxarı uzaqlaşma intervalı maksimum 2 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 10 faizə qədəri (daşınmaz əmlaka və daşınmaz əmlak üzrə kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondları və daşınmaz əmlak daxil olmaqla);

2.2.3.1.4. qızıl altportfeli – yuxarı uzaqlaşma intervalı maksimum 3 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 15 faizə qədəri;

2.2.4. İnvestisiya portfelinin hədəf gəlirliliyi:

2.2.4.1. Fondun borc öhdəlikləri və pul bazarları alətləri altportfelinin idarə edilməsinin hədəf gəlirliliyi (bençmark) kimi müvafiq valyuta üzrə "ICE BofA Fixed Income Indices" əsas götürülür;

2.2.4.2. səhm (pay) altportfelinin hədəf gəlirliliyi (bençmark) kimi "MSCI Stock Market Indexes" əsas götürülür;

2.2.4.3. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"ın (bundan sonra – Qaydalar) 4.2-ci bəndinə əsasən, qızıl altportfelinə hədəf gəlirliliyi (bençmark) tətbiq edilmir.

2.3. İnvestisiya portfelinin risklərinin idarə edilməsi üzrə tələblər:

2.3.1. faiz dərəcəsi riski:

2.3.1.1. Fondun borc öhdəlikləri və pul bazarları alətləri altportfelinin faktiki ortaçəkili investisiya müddətini (durasiya) dünya bazarındakı cari vəziyyətdən asılı olaraq Fond müəyyən edir və bu müddət müvafiq bençmarkın ortaçəkili investisiya müddətindən maksimum altı ay olmaqla kənarlaşa bilər;

2.3.2. kredit riski:

2.3.2.1. depozitar banklar və bençmarka daxil olan dövlətlərin borc öhdəlikləri istisna olmaqla, bir maliyyə qurumunun və ya bir investisiya aktivinin investisiya portfelindəki maksimal xüsusi çəkisi investisiya portfelinin məcmu dəyərinin 15 faizi həddində müəyyən edilir;

2.3.2.2. Fondun valyuta vəsaitinin yerləşdirildiyi investisiya aktivlərinin kredit reytinqi:

2.3.2.2.1. Qaydaların 3.3-cü bəndinin onuncu abzasında nəzərdə tutulmuş qeyri-investisiya reytinqinə malik borc öhdəlikləri və təsisatlardakı depozitlər üzrə 5 faizlik xüsusi çəkinin yuxarı həddinə dair tələblər Azərbaycan Respublikası Prezidentinin aktları ilə nəzərdə tutulan tədbirlərin icrası məqsədilə həyata keçirilən investisiya qoyuluşları nəticəsində Fondun investisiya portfelinə daxil olan aktivlərə tətbiq edilmir;

2.3.3. likvidlik üzrə tələblər:

2.3.3.1. Fondun vəsaitinin likvidlik dərəcəsi Fondun büdcə xərcləri üzrə planlaşdırılan pul və digər köçürmələrinin tam və vaxtında yerinə yetirilməsini təmin etmək üçün yetərli səviyyədə olmalıdır. Bu səviyyəni təmin etmək məqsədilə Fondun vəsaitinin 100 milyon ABŞ dollarından az olmayan hissəsi yüksək likvidliyə malik qısamüddətli pul bazarları alətlərində saxlanılmalıdır. Bu vəsaitin göstərilən məbləğdən az olması halı 7 (yeddi) iş günündən çox davam etməməlidir;

2.3.4. xarici menecerlər üzrə tələblər:

2.3.4.1. cəlb edilən xarici menecerin özünün və ya onun əsas təsisçisinin kredit reytinqi beynəlxalq kredit agentliklərinin (Standard & Poor›s, Fitch və ya Moody›s) investisiya dərəcəli kredit reytinqindən aşağı olmamalı və ya onun aktivlərin idarə edilməsində ən azı 5 il müsbət təcrübəsi, yaxud dəyəri 1 (bir) milyard ABŞ dolları məbləğindən az olmayan aktivlərin idarə edilməsində səriştəsi olmalıdır.

2.3.4.2. xarici menecerlərə idarəetməyə verilən vəsaitin ümumi həcmi investisiya portfelinin məcmu dəyərinin 60 faizindən, bir xarici menecerə idarəetməyə verilən vəsaitin maksimum həcmi investisiya portfelinin məcmu dəyərinin 5 faizindən artıq olmamalıdır;

2.3.4.3. Fondun vəsaitinin idarə olunmasına cəlb edilən xarici menecerlərin səlahiyyətləri və idarəetməyə verilmə müddəti Fondla həmin menecerlər arasında bağlanılan sazişdə göstərilməlidir.

Azərbaycan Respublikası Prezidentinin
2023-cü il 27 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü ildə idarə edilməsi ilə bağlı xərclər smetası

| Sıra №-si | Xərclər | Kod | Məbləğ (manat) |
|---|---|---|---|
| 1. | **Əməyin ödənişi** | 210000 | 15 348 440 |
| 2. | Malların (işlərin və xidmətin) satın alınması | 220000 | 17 522 074 |
| 2.1. | malların satın alınması | 221000 | 409 646 |
| 2.2. | iş və xidmətlərin alınması | 222000 | 16 407 028 |
| 2.3. | beynəlxalq təşkilatlara üzvlüklə bağlı ödənişlər | 223000 | 655 400 |
| 2.4. | təmsilçilik və təşviqat xərcləri | 224000 | 50 000 |
| 3. | Sosial **ödənişlər** | 270000 | 100 000 |
| 4. | Qeyri-maliyyə aktivləri | 310000 | 5 275 996 |
| | **Cəmi** | | **38 246 510** |

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm İlham Heydər oğlu!**

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim.

Sizin müdrik rəhbərliyinizlə həyata keçirilən ardıcıl dərin islahatlar və müasirləşdirmə siyasəti, ölkə iqtisadiyyatının davamlı və balanslaşdırılmış inkişafının təmin edilməsi üzrə düşünülmüş tədbirlər sistemi bütün dünya tərəfindən qəbul olunur. Respublikada energetika və inşaat kompleksləri, yüngül və ağır sənaye, nəqliyyat infrastrukturu, sosial, elm və mədəniyyət sahələri uğurla inkişaf etdirilir.

"LUKOYL" şirkətinin Azərbaycandakı fəaliyyətinə göstərdiyiniz diqqətə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Cari layihələr üzrə öhdəlikləri tam həcmdə yerinə yetirmək, eləcə də Azərbaycandakı tərəfdaşlarımızla uzunmüddətli əməkdaşlığımızı genişləndirmək və möhkəmləndirmək üçün əlimizdən gələni edəcəyik.

Zati-aliləri, icazə verin, Sizə uzun ömür və möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, tərəqqi, Azərbaycan Respublikasının inkişafı və onun dost xalqının rifahının daha da yaxşılaşdırılması naminə ali dövləti vəzifənizdə yeni uğurlar arzulayım.

**Hörmətlə,**

***Vahid ƏLƏKBƏROV,***
***Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin sabiq prezidenti***

***

**Zati-aliləri!**

İcazə verin, doğum gününüz münasibətilə “LUKOYL” Publik Səhmdar Cəmiyyətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi ən səmimi arzularımla təbrik edim.

Zəngin və peşəkar təcrübəniz, təşkilatçılıq istedadınız, şəxsi keyfiyyətləriniz Sizə ölkədə və ölkədən kənarda həmkarlarınızın, tərəfdaşlarınızın layiqli hörmətini qazandırıb. Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə dayanıqlı və dinamik inkişaf nümayiş etdirir. Aktual dövlət vəzifələri uğurla icra edilir, investisiya mühitinin yaxşılaşdırılmasına və xarici tərəfdaşlarla iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsinə yönəlmiş ardıcıl fəaliyyət həyata keçirilir.

Fürsətdən istifadə edərək Azərbaycan Respublikasında "LUKOYL"un fəaliyyətinə şəxsən göstərdiyiniz dəstəyə və daimi diqqətə görə Sizə dərin minnətdarlığımı bildirirəm. İcazə verin, Sizi əmin edim ki, biz iki ölkənin maraqları naminə qarşılıqlı əməkdaşlığı bundan sonra daha fəal şəkildə inkişaf etdirmək niyyətindəyik.

Zati-aliləri, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar arzu edirəm.

**Hörmətlə,**

***Vadim VOROBYOV,***
***Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin Baş icraçı direktoru***

***

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə Almaniyada yaşayan azərbaycanlılar adından ürəkdən təbrik edirəm. Biz Sizi Azərbaycanın inkişafına, xalqın rifahına yönəlmiş ölçülüb-biçilmiş siyasət yürüdən müdrik dövlət başçısı və əsl vətənpərvər şəxsiyyət kimi tanıyırıq. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası bundan sonra da demokratik dövlət quruculuğu, sabit iqtisadi və sosial inkişaf yolu ilə inamla irəliləyəcək. Sizin yorulmaz səyləriniz, xalqın etimadı, vətəndaşların həyatını daha da firavanlaşdırmaq üçün gördüyünüz işlər ali dövləti fəaliyyətinizdə uğurlarınızı daha da artıracaqdır. 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində Sizə uğurlar arzulayırıq.

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq diləyirik.

**Hörmətlə,**

***Lalə MƏMMƏDLİ,***
***Alman–Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

***

**Hörmətli cənab Prezident!**

İtaliyanın Milan şəhərində diaspor fəaliyyəti ilə məşğul olan Azərbaycan Mədəniyyət Assosiasiyası adından Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq.

Sizin daxili və xarici siyasətinizin uğurlu nəticələrini böyük maraqla və iftixar hissi ilə izləyirik. Uzaqgörən siyasətiniz və müdrik liderliyiniz sayəsində Azərbaycanın regionda, eləcə də dünyada artan nüfuzunu görməkdən böyük məmnunluq duyuruq, hər bir addımınızı qürurla dəstəkləyirik. Ölkəmizin tarixində açdığınız şanlı səhifə üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Sizin dediyiniz “Bizim gücümüz birliyimizdədir!” ifadəsi hamımızın həyat devizidir. Siz bizim fəxrimizsiniz. Biz Vətən sevdalısı olaraq hər zaman Sizi dəstəkləyirik və dəstəkləyəcəyik.

**Hörmətlə,**

***Mais NURİYEV,***
***İtaliyada Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri***

***

**Hörmətli cənab Prezident, müzəffər Ali Baş Komandan!**

Sizi doğum gününüz münasibətilə Cəmiyyətimizin üzvləri adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Sizə “İlhamla irəli” devizi ilə “Dəmir yumruq” kimi möhkəm cansağlığı arzulayırıq. Bizə həsrətində olduğumuz Qələbə, tarixdə tayı-bərabəri olmayan Zəfər sevinci yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Biz həmişə Sizinləyik.

Yaşasın Ali Baş Komandan!

**Hörmətlə,**

***Frəngiz BAĞIROVA,***
***Azərbaycan–Niderland Odlar Yurdu Cəmiyyətinin sədri***

***

**Hörmətli cənab Prezident!**

Rusiyadakı Azərbaycan diasporunun nümayəndələri doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirlər. Sevinirik ki, Prezidentimiz soydaşlarımız arasında və xaricdə ölkənin təcrübəli, uzaqgörən, praqmatik və etibarlı lideri kimi böyük nüfuza malikdir.

Siz suveren, sabit və inkişaf edən Azərbaycanın quruculuğunda uzun yol qət etmisiniz, ümummilli lider Heydər Əliyevin siyasi kursunu davam etdirərək xalqın məhəbbətini, rəğbətini qazanmısınız. Biz Sizin rəhbərliyinizlə iqtisadi, sosial və digər sahələrdə həyata keçirilən layihələrlə fəxr edirik. Azərbaycanla əməkdaşlıq edən dövlətlər və şirkətlər respublikanı etibarlı tərəfdaş və müttəfiq kimi qiymətləndirirlər.

Azərbaycanın müstəqilliyinin qorunub möhkəmləndirilməsi Sizin xidmətləriniz sırasında xüsusi yer tutur. İşğal altındakı torpaqlarımız Sizin komandanlığınızla 44 günlük Vətən müharibəsində azad edildi. Bu il bir sutka ərzində həyata keçirilən antiterror tədbirləri nəticəsində isə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olundu.

Cənab Prezident, Sizi bir daha səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq. Bu il Sizin Prezident vəzifəsində fədakarcasına çalışmağınızın 20 ili tamam oldu. Şübhəsiz ki, bütün azərbaycanlılar ötən illər ərzində görülmüş işlərin tarixi əhəmiyyətini əbədi olaraq xatırlayacaqlar. Şadıq ki, daim Prezidentimizin dəstəyinə arxalana bilərik.

**Dərin hörmətlə,**

***Mərdan NOVRUZOV,***
***Rusiya Federasiyası Primorsk diyarı qubernatorunun müşaviri, Primorsk diyarındakı “Azərbaycan Konqresi” Milli-Mədəni İctimai Təşkilatının sədri***

***

**Möhtərəm cənab Prezident, müzəffər Ali Baş Komandan!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Bu illər ərzində Azərbaycan dövlətinin inkişaf etməsi, güclənməsi istiqamətində gördüyünüz bütün işlərə görə Sizə minnətdarıq. Vətəndən uzaq olsaq da hər zaman Sizinləyik.

Daim Sizin diqqət və qayğınızı üzərində hiss edən Azərbaycan diasporu bundan sonra da əzmkarlığını artıracaqdır. Azərbaycanın milli maraqları bizim üçün ən vacib məsələdir. Sizinlə və uğurlu siyasətinizlə qürur duyuruq. Dünya azərbaycanlıları ətrafınızda tək yumruq kimi birləşmiş Azərbaycan xalqı ilə birlikdə həmişə Sizin arxanızdadır.

**Hörmətlə,**

***Sevda DADAŞOVA,***
***İsveç-Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri***

***

**Möhtərəm Prezident, cənab Ali Baş Komandan!**

Amerika Azərbaycanlılarının Koordinasiya Şurası və Şuraya daxil olan təşkilatlar adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Vətənin rifahı naminə səmərəli fəaliyyətiniz, işgüzar və şəxsi keyfiyyətləriniz, mürəkkəb məsələləri həll etmək bacarığınız haqlı olaraq Sizə doğma Azərbaycanda və onun hüdudlarından kənarda böyük nüfuz və dərin hörmət qazandırıb.

Azərbaycanın tarixində çox böyük əhəmiyyəti olan Vətən müharibəsində Qarabağın işğaldan azad olunması ilə nəticələnən şanlı Qələbə Sizin uzaqgörənliyiniz, müdrik rəhbərliyiniz, qətiyyətli qərarlarınız, xalqımıza inamınız sayəsində əldə edilib. Müharibədən sonra Sizin səyləriniz nəticəsində Qarabağda aparılan sürətli yenidənqurma işlərinin nəticələri təqdirəlayiqdir. Azərbaycan Sizin müdrik rəhbərliyinizlə sosial-iqtisadi inkişafda böyük uğurlar qazanır və beynəlxalq arenada öz nüfuzunu durmadan möhkəmləndirir.

Sizin xaricdəki Azərbaycan diaspor təşkilatlarının fəaliyyətlərinə verdiyiniz qiyməti yüksək dəyərləndiririk. Biz ABŞ-da fəaliyyətimizi daha səmərəli təşkil edərək Azərbaycan həqiqətlərini Amerika ictimaiyyətinə çatdırmaqda davam edəcəyik. Dünya Azərbaycanlılarının Zəfər Qurultayında Sizin tövsiyələriniz bizim üçün çox önəmli və dəyərlidir.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, Azərbaycanın inkişafı və xalqımızın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayırıq.

Gələn il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində Sizə uğurlar diləyirik. Bütün Azərbaycan vətəndaşlarını seçkilərdə iştirak etməyə və Sizi dəstəkləməyə çağırırıq.

**Dərin hörmətlə,**

***Minəvvər VAHABOVA,***
***Nyu-York Azərbaycan Amerika Qadınlar Assosiasiyasının sədri,***

***Adika İQBAL,***
***Azərbaycan Dostluq Təşkilatının sədri,***

***Əsmər QARAYEVA,***
***Yuta Azərbaycan İcmasının sədri,***

***Aynur AĞAYEVA,***
***Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Cəmiyyətinin sədri,***

***Əli ƏSGƏROV,***
***“Birləşmiş Azərbaycan Evi”nin sədri,***

***Esmira BAYRAMOVA,***
***Florida Azərbaycan Amerika Cəmiyyətinin sədri,***

***Ercan YERDELENLİ,***
***Azərbaycan Nyu-York Assosiasiyasının sədri,***

***Fərid MƏMMƏDOV,***
***Midvest Amerika Azərbaycan Mərkəzinin sədri,***

***Günay MƏMMƏDOVA,***
***Azərbaycan-Amerika Gənclər Federasiyasının sədri,***

***İradə AXUNDOVA,***
***Azərbaycan Mərkəzinin rəhbəri,***

***Cəmilə CAVADOVA-SPİTZBERQ,***
***Azərbaycan-Amerika Musiqi Fondunun rəhbəri,***

***Nərgiz ƏLİYAROVA,***
***Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin sədri,***

***Nabat EMİNOVA,***
***Azərbaycan-Amerika Gənclər Assosiasiyasının sədri,***

***Rauf ŞAHBAZOV,***
***Amerika-Azərbaycan Tibb Assosiasiyasının sədri,***

***Samir NOVRUZOV,***
***ABŞ-Azərbaycan İnteqrasiya Mərkəzinin rəhbəri,***

***Tərlan ƏHMƏDOV,***
***Men Azərbaycan Cəmiyyətinin sədri,***

***Telman CƏLİL,***
***Azərbaycan Nyu-York Mədəniyyət Mərkəzinin rəhbəri,***

***Töhfə EMİNOVA,***
***Florida Azərbaycan Amerika Mədəniyyət Assosiasiyasının rəhbəri.***

***

**Zati-aliləri, hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizi təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf hissi duyuram.

Eyni zamanda, Azərbaycanın qazandığı bütün uğurlar, o cümlədən cəmiyyətdə və idman sahəsində əldə etdiyi nailiyyətlər münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin uzaqgörən liderliyiniz və ölkənizin davamlı inkişafına sadiqliyiniz həqiqətən də ilhamverici və nümunəvidir. Qoy Sizin siyasətiniz və müdrikliyiniz ölkənizi daha böyük inkişafa doğru aparsın və həyatın bütün sahələrində parlaq gələcəyi təmin etsin!

Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram. Doğum gününüz mübarək!

**Dərin hörmət və ehtiramla,**

***Marius VİZER,***
***Beynəlxalq Cüdo Federasiyasının prezidenti***

***

**Möhtərəm cənab Prezident, müzəffər Ali Baş Komandan!**

Rusiya Federasiyasının Ural Federal Dairəsinin çoxsaylı Azərbaycan icması adından və şəxsən öz adımdan Sizə ehtiramımızı bildirir, doğum gününüz münasibətilə səmimi təbriklərimizi çatdırıram.

Sizin insani keyfiyyətləriniz, siyasi iradəniz, təşəbbüskarlığınız, enerjiniz, peşəkarlığınız həm xalq, həm də digər dövlətlərin rəhbərləri tərəfindən yüksək qiymətləndirilir.

Sizin Azərbaycan Respublikasının firavanlığı, onun iqtisadiyyatının və mədəniyyətinin inkişafı istiqamətindəki səyləriniz dəstəklənir. Arzu edirəm ki, sevimli Azərbaycanımızın bundan sonra da sosial-iqtisadi inkişafına, həmvətənlərimizin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmiş fəaliyyətinizdə daim böyük uğurlar qazanasınız.

Qoy Sizin bilikləriniz, təcrübəniz, müdrikliyiniz dünyada birliyin və həmrəyliyin möhkəmlənməsinə, tarixən bizə dost, tərəfdaş olan Rusiya Federasiyası ilə qarşılıqlı münasibətlərin daha da genişlənməsinə töhfə olsun! Biz azərbaycanlılar Sizin ətrafınızda birləşərək daxili və xarici siyasətinizi dəstəkləyir, bütün Azərbaycan xalqının birliyi və gücünə görə qürur və sevinc duyuruq.

2020-ci ildə 44 günlük Vətən müharibəsi Sizin sərkərdəlik qabiliyyətiniz, diplomatik məharətiniz, prinsipiallığınız və dəmir iradəniz nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə başa çatdı, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Qısa müddət sonra Qarabağda yenidənqurma işlərinə başlanıldı. Bütün bunlar Sizin uzaqgörən siyasətinizin, həyata keçirdiyiniz siyasi, iqtisadi və hərbi islahatların nəticələridir.

İndi biz cəsarətlə bəyan edirik ki, Azərbaycan xalqı qalib xalqdır. Bütün Azərbaycan xalqı tam əmindir ki, ölkəmizin taleyi qayğıkeş və etibarlı əllərdədir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, Azərbaycanın rifahı naminə bütün təşəbbüslərinizdə uğurlar diləyirik.

Siz bütün Azərbaycan xalqını xoşbəxt etdiniz. Sizinlə fəxr edirik, Sizə inanırıq, güvənirik, Sizi sevirik.

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın Ali Baş Komandan!

**Dərin hörmət və minnətdarlıq hissi ilə,**

***Şahin ŞIXLİNSKİ,***
***Rusiyanın Sverdlovsk vilayətindəki “Azərbaycan-Ural” İctimai Milli-Mədəni Təşkilatının sədri***

***

**Hörmətli İlham Heydər oğlu!**

İcazə verin Rusiya Federasiyasının Soçi şəhərində və Krosnodar vilayətində yaşayan azərbaycanlıların adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edək. Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və doğma Azərbaycanın rifahı, tərəqqisi naminə gördüyünüz işlərdə uğurlar arzulayırıq.

Bu xoş fürsətdən istifadə edərək qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də Sizi təbrik edirik. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bütün dünya azərbaycanlılarının birlik rəmzi olan Həmrəylik Günü bu il xüsusilə əlamətdardır. Çünki ilk dəfə olaraq bu bayramı suverenliyimizin tam bərpa olunması şəraitində qeyd edəcəyik. Artıq Xankəndi də azaddır. Azərbaycan tam suveren bir dövlətdir. Bu, əlbəttə, Sizin apardığınız uğurlu siyasətin nəticəsidir. Bu, Sizin “Dəmir yumruğ”unuz ətrafında sıx birləşmiş xalqımızın, müzəffər ordumuzun qələbəsidir.

Cənab Ali Baş Komandan, biz Rusiyada yaşayan azərbaycanlılar Vətəndən kənarda olsaq da, qəlbimiz daim Azərbaycanla döyünür. Vətəndə baş verən prosesləri diqqətlə izləyir, gördüyünüz işləri alqışlayırıq. Soçi şəhərində və Krasnodar vilayətində yaşayan azərbaycanlılar 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində Sizi dəstəkləyəcəklər. Biz çox xoşbəxtik ki, doğma Azərbaycanımıza Sizin kimi Prezident rəhbərlik edir. Sizin sayənizdə bu gün Azərbaycan dünya miqyasında tanınmış bir dövlətə çevrilib. Əminik ki, bu seçkilərdə də xalqımız yekdilliklə Sizə - müzəffər Ali Baş Komandana səs verəcək. Sizin rəhbərliyinizlə ölkəmiz daha da inkişaf edəcək, böyük uğurlara imza atacaqdır.

Soçi şəhərində fəaliyyət göstərən “Dostluq” Azərbaycan Həmvətənlərə Dəstək Mərkəzi mədəniyyətimizi, dilimizi Rusiyada yaşayan azərbaycanlı gənclərimizə aşılamağı qarşıya məqsəd qoymuşdur. Eyni zamanda, Azərbaycanla bağlı xoş niyyətləri olan digər millətlərin nümayəndələrini də təşkilatımıza cəlb edərək onlarla birgə Azərbaycan mədəniyyətini, dilini, tarixini təbliğ etməyə çalışırıq.

Sizi bir daha təbrik edir, ən xoş arzularımızı çatdırırıq.

**Hörmətlə,**

***İlqar SƏLİMOV,***
***Rusiyanın Soçi şəhərindəki Azərbaycan diasporunun rəhbəri, “Dostluq” Azərbaycan Həmvətənlərə Dəstək Mərkəzinin sədri***

***

**Möhtərəm cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə “Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti” İctimai Təşkilatının üzvləri adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası Sizin uzaqgörən və müdrik rəhbərliyinizlə inamla inkişaf edir. Yüksək peşəkarlıq, qətiyyət və məqsədyönlülük sayəsində ölkədə iqtisadi, sosial, mədəni tərəqqi, sabitlik təmin edilib. Azərbaycan Respublikası ilə Ulyanovsk vilayəti arasında dostluq münasibətlərinin və işgüzar tərəfdaşlığın inkişafına verdiyiniz dəstəyə görə Sizə xüsusi minnətdarlığımızı bildiririk.

Hörmətli İlham Heydər oğlu, Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq, qurucu və məhsuldar fəaliyyətinizdə tükənməz enerji, qarşıya qoyulan məqsədlərə nail olunmasında müvəffəqiyyətlər arzulayırıq. Əminik ki, Sizin peşəkarlığınız və həyat təcrübəniz qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsinə kömək edəcəkdir.

**Hörmətlə,**

***İslam HÜSEYNOV,***
***Rusiyanın Ulyanovsk vilayəti qubernatorunun milli məsələlər üzrə müşaviri, “Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti” İctimai Təşkilatının sədri***

***

**Hörmətli cənab Prezident!**

Çex Respublikasının tanınmış ziyalılarını, elm xadimlərini, təhsil işçilərini, iş adamlarını, soydaşlarımızı özündə birləşdirən Çexiya-Azərbaycan Elm və Mədəniyyət Mərkəzi adından Sizi doğum gününüz münasibətilə təbrik edir, ən xoş arzularımızı bildiririk.

Biz Azərbaycan xalqının birliyi, həmrəyliyi, xoşbəxt gələcəyi naminə müəyyən etdiyiniz, həyata keçirdiyiniz səmərəli daxili və xarici siyasəti dəstəkləyirik.

Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycanın daha da inkişafı, xalqın rifahı naminə şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Tanrı Sizi qorusun!

**Dərin hörmətlə,**

***Professor Azər KƏRİMOV,***
***Çexiya–Azərbaycan Elm və Mədəniyyət Mərkəzinin sədri***

# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru

XII MƏQALƏ

**Haqq yolunun dalanı olmur.**
**El sözü**

Biz “toplumsal sinerji” (oxu: cəmiyyətin bütün gücünü səfərbər etməsi, bir yerə toplaması və vahid məqsədə yönəltməsi) ilə “liderlik sinerjisi”nin (oxu: Prezidentin bütövlükdə cəmiyyəti, o cümlədən, siyasi mühiti əhatə edən inklüziv həmrəyliyə nail olması, hakimiyyətin bütün aspektlərdə tam legitimliyini təmin etməsi) harmoniyasına nail olmağın fəlsəfi-sinergetik və politoloji əsaslarını müəyyən etməliyik. Yəni bu məsələ fəlsəfi və elmidirmi? Onun rasional izahı necə ola bilər?

Bundan başqa, “toplumsal sinerji” özlüyündə güclü inteqrativ funksiyanı yerinə yetirir. Bəs hansı şərtlər daxilində o, “liderlik sinerjisi” ilə ahəngdarlıq təşkil edərək, ümummilli sinerji yaradır (qalıcı ictimai həmrəyliyin formalaşması anlamında)?

Bu, ümumiyyətlə, nəzəri-fəlsəfi təfəkkür üçün mürəkkəb problemlərdən biridir. Başqa səbəblərlə yanaşı, onun yaradıcılığın fəlsəfəsinə əsaslanması ilə əlaqəlidir. Yəni burada konkret lider və siyasi xadim kimi yaradıcı olmaq lazım gəlir ki, ümummilli miqyasda həmrəylik yarada biləsən. Bu baxımdan qısa olaraq “yaradıcılıq nədir?” sualının fəlsəfi-sinergetik anlamı üzərində dayanmaq lazım gəlir.



## Fəlsəfi-sinergetik təhlil

### Homer, Platon və... Fey rb end

Yaradıcılıq ideyası insanın müəyyən anlama dayanır. Bununla yanaşı, o, insanın cəmiyyət və təbiətlə əlaqələri ilə sıx bağlıdır. Deməli, yaradıcılığın istənilən növü insan-cəmiyyət-təbiət “üçbucağı”nda reallaşır və təkrar-təkrar aktuallaşır.

Qərb fəlsəfi düşüncəsində yaradıcılıq “iradə azadlığı”, “fərdi məsuliyyət”, “tərəqqi” və “rasionallıq” kimi anlayışlarla birgə mədəniyyətin universalları kateqoriyasına aid edilir. Bu isə o deməkdir ki, yaradıcılıq yalnız fərdi deyil, bütövlükdə, cəmiyyət və bəşəriyyət kontekstində mənası olan fenomen kimi qəbul edilir. Ancaq bütün hallarda bu məsələdə mərkəzi faktor insandır! Ona görə də qədimdən insanın fəlsəfi olaraq necə dərk edilməsi yaradıcılıq aspektində ciddi məqamdır.

Homer üçün insan “bir-biri ilə zəif əlaqəsi olan hissələrdən ibarət idi”. Homerə görə, arxaik insanların “ruhani mərkəzi” mövcud deyildi, onların “ruhu” yox idi ki, hansısa yaradıcılığa təkan versin (söhbət Pol Feyerabendin Homerin insan haqqında təsəvvürlərinin yalnız fəlsəfi izahından gedir). Belə olanda insanın şüuru, iradə azadlığı, ruhla cismin harmoniyası, şüurla reallığın münasibətlərini vəhdətdə fəlsəfi təsəvvür etmək xeyli çətinləşir. Devid Yumdan başlayan analitik fəlsəfə “bu qüsurdan əziyyət çəkir”.

P.Feyarabend həmin prizmada Platonun yaradıcılıq ideyasını da tənqid edir. Platon yaradıcılığın “qəfil”, “möcüzə” şəklində gözlənilmədən insanın daxilində meydana gəldiyini yazırdı. Burada, bütövlükdə, yaradıcılıq kənardan (məsələn, İlahidən) gələn fəhm kimi də başa düşülə bilər. İ.T.Kasavin obrazlı surətə Platonun bu mövqeyini belə ifadə edir: “..məhz bu cür möcüzə insan yaradıcılığıdır”!

Bu məsələnin incəliklərinə varmaq bizi mövzudan uzaqlaşdırardı. Ona görə də qısa olaraq yaradıcılığın müasir fəlsəfi-elmi ədəbiyyatda bir anlamı ilə kifayətlənək. Yeri gəlmişkən, həmin anlamı P.Feyerabend və İ.T.Kasavin qəbul edirlər. Yaradıcılıq “olmayanın izah edilməyən tərzdə yaradılması” ilə “indi mövcud olanın dərki” arasında “idraki miqrasiyadır”. Bu mürəkkəb fəlsəfi tezisin sadə ifadəsi belədir: yaradıcılıq növündən asılı olamayaraq, əvvəllər mövcud olmayanın mürəkkəb və qeyri-müəyyən tərzdə indi mövcud olanın dərk edilməsi fonunda yaradılmasıdır. Deməli, yaradıcılıq hər bir halda indiyə nisbətdə quruculuq və yenilikdir. Onun bir tərəfi insanın zəkavi və mənəvi özəlliyinə bağlıdırsa, digər tərəfi sosial-mədəni mühitlə əlaqəlidir. Yaradıcılıq bu iki aspektin arasında “idraki miqrasiya” etməklə sınaqdan keçir və həqiqi yenilik olduğu halda istimaiəşir, toplumun sərvətinə çevrilir!

Göründüyü kimi, “yaradıcılıq” anlayışı kimi mürəkkəbdir. Onun konkret reallaşma formaları və müxtəlif sosial aspektlərdə ifadə üsulu daha mürəkkəbdir. Şübhəsiz ki, siyasi liderlikdə bu daha mürəkkəb xarakter alır. Çünki siyasi liderliyin yaradıcılığı mahiyyətcə fərdiliyi, kollektiv reallığı və çox müxtəlif sosial-psixoloji, idarəetmə faktorlarını sistem halında görə bilmək qüdrəti ilə bağlıdır. Eyni zamanda, liderlik saysız-hesabsız qeyri-müəyyən situasiyalarda uğurlu olmağa “məhkum edilmiş” yaradıcılıqdır. Öncədən bu fəaliyyətin sonunu görmək mümkün deyildir. Tez-tez dəyişən və fərqli tərəflərdən təsirləri olan parametrlər, faktorlar, məqamlar, vəziyyətlər burulğanında “idarətmə və istiqamətləndirmə gəmisi”ni dayanıqlı olaraq “ənginliklərə aparmaq” lazım gəlir! Ulu Öndər bütün bunları “tarix çətin imtahançıdır” kəlamı ilə izah edir!

Beləliklə, bir qədər də məsələni konkretləşdirsək, belə qənaətə gəlirik ki, “ümummilli sinerji” siyasi liderin uğurlu yaradıcı fəaliyyəti sayəsində əmələ gələ bilər! Bu fenomenin reallaşması lider yaradıcı olmayanda mümkün deyildir.

Yeni liderlik nümunəsi və ümummilli sinerji: siyasi yaradıcılığın zirvəsi

### a) Yeni geosiyasi, geomədəni, geoiqtisadi, energetik dəyərlərin yaradılması

Beləliklə, bizim əsas tezisimiz belədir: Liderin ümummilli miqyasda uğurlu olmasının təməlində onun yeni liderlik nümunəsi yarada bilməsi potensialı dayanır. İlham Əliyevin yeni liderlik nümunəsində yaradıcı insanın bütün keyfiyyətləri cəmləşmişdir. Yuxarıda vurğuladığımız fəlsəfi anlam kontekstində daha konkret olaraq, mövcud vəziyyəti tam dərk etmək əsasında yenilik yaratmaq qabiliyyəti İlham Əliyevin siyasi lider kimi yaradıcılığının mərkəzi xəttini təşkil edir. Bu aspektdə Azərbaycan Prezidentinin yüksək siyasi iradə azadlığına və fərdi məsuliyyətə sahib olduğu qətiyyən şübhə doğurmur. İlham Əliyevin əldə etdiyi siyasi-diplomatik tərəqqi birbaşa yüksək zəkavi rasionallığa əsaslanır.

Vurğulanan əlamətlərin konkret məzmunu Azərbaycan dövlət başçısının əldə etdiyi nailiyyətlərdə öz ifadəsini tapmışdır. Mövcud vəziyyəti tam dərk etmək potensialı Prezidentin 2003-cü ildə dövlətə başçı seçiləndən sonra həyata keçirdiyi daxili və xarici siyasətin hədəflərini müəyyən etməsində özünü göstərmişdir. Həmin bağlılıqda İlham Əliyev enerji strategiyasını davamlı olaraq və konkret layihə təşəbbüsləri ilə siyasi-diplomatik fəallığının ahəngdarlığında reallaşdırmaqdadır. Bunun praktiki nümunələri enerji layihələrinin kəsintisiz olaraq həyata keçirilməsindən ibarətdir. Çox sayda neft və qaz layihələri qarşıya çıxarılan maneələrə baxmayaraq həyata keçirildi. Bunun üçün İlham Əliyev yeni geosiyasi, geoiqtisadi dəyərlər yaratdı! Misal olaraq, “Bakı prosesi”ni, Bakı Humanitar forumlarını, Qərb–Şərq nəqliyyat dəhlizi ilə Şimal–Cənub nəqliyyat dəhlizinin Azərbaycanda “qovuşmasının” coğrafi aspekti ilə iqtisadi dividentlərinin bir-birini tamamlamasını təmin etməyi göstərə bilərik. Bunlar heç şübhəsiz siyasi liderin yaradıcı fəaliyyətini tələb edirdi.

İlham Əliyevin yeni liderliyinin yaradıcı aspektinə aid başqa bir fakt enerji strategiyasının reallaşması üçün liderin geosiyasi, siyasi və geoiqtisadi amilləri vahid diplomatik fəaliyyət müstəvisində sintez edə bilməsi qabiliyyəti ilə əlaqəlidir. Konkret olaraq, İlham Əliyevin regional və regionlararası əməkdaşlığı təmin etmək üçün müxtəlif əməkdaşlıq formatlarını irəli sürməsini deyə bilərik. Burada regional səviyyədə və regionlararası miqyasda dövlət başçısının ikitərəfli, üçtərəfli, dördtərəfli əmkdaşlıq formatlarının təşəbbüskarlığını vurğulamaq lazımdır. Məhz İlham Əliyevin mövcud vəziyyəti dərindən təhlil etmək əsasında da həmin əməkdaşlıq formatlarını enerji strategiyası və bütün tərəflərin qarşılıqlı fayda götürə bilməsi prinsipi ilə vəhdətdə təqdim etməsi nəzərdə tutulanların reallaşmasına zəmin yaratmışdır. Həmin anlamda bu proses region səviyyəsində və regionlararası miqyasda Azərbaycan Prezidentinin lider kimi yaradıcı fəaliyyətinin birbaşa nəticəsi kimi qəbul edilə bilər.

İndi tədqiqatçılar fəlsəfi və politoloji kontekstdə “energetik dəyərlər nədir və onu yaratmaq necə mümkündür?” sualına müxtəlif kontekstlərdə cavab axtarırlar. Lakin məsələ bəsit deyildir. Xüsusilə, XXI əsrin ziddiyyətli, sürətlə dəyişən və risklərlə dolu geosiyasi dinamikası prizmasında çox çətin görünür. Doğrudan da “energetik dəyər” nədir və “yeni energetik dəyər” dedikdə nəyi nəzərdə tutmaq olar?

“Energetik dəyər” anlayışı biz nəzəri konstrukt və ya metafora kimi işlədirik. Burada əsas vurğu hər hansı dövlətin malik olduğu enerji resurslarından istismarçı kimi deyil, milli, regional, regionlararası və qlobal miqyaslarda xalqlara qarşılıqlı fayda gətirə bilən, sülh, barış, əməkdaşlığına imkan yaradan layihələr və nəqliyyat-loqistika sisteminə xidmət edən fəaliyyəti üzərinə qoyulmuşdur. Bu anlamda “energetik dəyər” iqtisadi, maliyyə faktorları ilə geosiyasi faktorların ziddiyyətsiz qarşılıqlı əlaqəsini təmin etməklə sıx bağlı görünür. Lakin bununla məsələ məhdudlaşmır.

Lider “yeni energetik dəyərlər” yaratmaq iqtidarında olmalıdır ki, sürətlə dəyişən mühitdə əməkdaşlıq, sabitlik və qarşılıqlı faydalanma təmin edilsin. Deməli, yeni energetik dəyərlər yeni enerji layihələrini, enerji növlərinin vahid məqsəd üçün istifadə edilməsi siyasətini, enerjinin geosiyasi aspektdə rolunun ümumrifah naminə genişləndirilməsini əhatə edir. Nümunə kimi “enerji dəyər”i qismində neft və qazın istehsalının geniş geosiyasi məkanda yerləşən dövlətlərin enerji və milli təhlükəsizliyinin təmin edilməsinə yönləndirən siyasəti göstərmək olar. Azərbaycan Prezidenti həmin kontekstdə ölkənin enerji daşıyıcılarının etibarlı istehsal edilməsi və nəqlinin həyata keçirilməsini təmin etmişdir.

İlham Əliyev bunun üçün çoxşaxəli nəqletmə şəbəkəsi yaratmışdır. Bu, enerji dəyərinin birbaşa geosiyasi kontekstdə mənalandırılmasıdır! Bu anlam üzərində Azərbaycan Prezidenti “yeni energetik dəyər” də yaratmışdır. O, ənənəvi enerji daşıyıcıları ilə yanaşı, bərpaolunan (qeyri-ənənəvi) enerji növlərinin bir-birinə uyğun istehsalı, nəqli və istifadəsinin vahid sistemdə birləşdirilməsi ilə əlaqəlidir. Azərbaycan bir neçə saziş və müqavilə ilə buna nail olmuşdur. Məsələn, Avropa İttifaqı ilə enerji təhlükəsizliyini təmin etmək barədə imzalanan sənədləri göstərmək olar. Eyni zamanda, dünyanın böyük şirkətlərindən olan BP ilə uzunmüddətli əməkdaşlıqla bağlı yeni müqavilənin imzalanması nümunə hesab etmək olar.

Vurğulanan məqamlar kontekstində İlham Əliyevin yeni liderlik nümunəsinin, eyni zamanda, bir şəxsiyyət kimi yüksək yaradıcılıq potensialına malik olması ilə bağlılığın digər nümunəsi olaraq qalıcı geomədəni dəyərlərin yaradılması xüsusi yer tutur. Bu, olduqca maraqlı, aktual və Qafqaz üçün müasir mərhələdə yeni bir liderlik fenomenidir. Çünki siyasi liderin geosiyasi ilə mədəni faktorların apardığı siyasətdə vəhdətini təmin edə bilməsi nadir hadisədir. Bunun üçün İlham Əliyev Azərbaycanın daxili sosial-mədəni mühitini ziddiyyətsiz və real inteqrativ vəziyyətə çıxaran multikulturalizm, azərbaycançılıq və mədəniyyət açıqlığı faktorlarını həm sistem, həm də yaşam prinsipləri kimi oturuşdurmaqla, onların dövlətlərarası münasibətlərə proyeksiyasını həyata keçirmək arasında bir uyğunluq yaratması lazım idi. Söhbət faktiki olaraq məsət şərtlər daxilində elə münasibətlər modelinin yaradılmasından gedir ki, daxili mühitlə ətraf mühit arasında qarşılıqlı uzlaşma praktiki mümkün olsun.

Göründür, bu yeni liderlik məqamı Avrasiya məkanında yeganə nümunə kimi uzun müddət qalacaqdır. Burada multikultural dəyərlərin Azərbaycan cəmiyyətinin bütövlüyünü təmin etməyə xidmət etməsi ilə regional və regionlararası miqyasda bir neçə cəmiyyətin qarşılıqlı əlaqələrə açıq olmasını uyğunlaşdırmaq vacib özəllikdir. Özlüyündə məsələnin liderliklə bağlı aspekti çox mürəkkəbdir. Lakin İlham Əliyev ona nail olmağın səmərəli nəticə verə bilən mexanizmlərini yaratmışdır. Həmin mexanizmlər sırasında yeni liderlik kontekstində Azərbaycan Prezidentinin regional və beynəlxalq təşkilatlarda fəaliyyətinin daxili məntiqi və əldə etdiyi konkret nəticələr ayrıca yer tutur. Bu xüsusi tədqiqat tələb edir. Məsələnin həmin tərəfi üzərində geniş dayanaq.

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Fransanın erməni dəst-xətti

**İngilis siyasi və dövlət xadimi Vinston Çörçillin bütün zamanlar üçün keçərli kəlamı var: “Əbədi düşmən və ya əbədi dost yoxdur, yalnız əbədi maraqlar var!” Bəli, nə qədər xoş olmasa da, bəşər övladı tarixi inkişafının bütün mərhələlərində bu acı gerçəkliyin soyuq üzünü zaman-zaman hiss edib. Əlbəttə, hər bir dövlətin milli maraqlarını qorumaq haqqı var, amma bu prosesdə, necə deyərlər, ehtiyatlı olmağın da faydası böyükdür. Xüsusilə də xalqlararası münasibətlərə zərər vura bilən addımların atılmasından çəkinmək lazımdır. Çünki münasibəti qurmaq uzun illər aparır, əlaqələrə zərbə vurmaq isə günlər belə kifayət edir. Amma, belə görünür, türk düşməni Volterin həmyerliləri olan fransızları bu həqiqət az maraqlandırır.**

Bəlkə də təəccüblənəcəksiniz, Avropanın müasir tarixində abidələrin sökülməsi kampaniyasının banisi Fransa sayılır. 1789-cu ildən başlayan uzun müddət ərzində Fransada daim abidələr və heykəllər sökülüb, kralların, zadəganların, kilsə rəhbərlərinin, əməkdaşların və s. heykəlləri dağıdılıb. Fransalı tarixçi Loris Şavanet əmindir ki, “Pandora qutusunu” açan, abidələrin sökülməsi yolu ilə mədəni və tarixi irsin inkar edilməsi, müasir “dekulturasiya” (İnsanların yeni və ya yad mədəni xüsusiyyətləri mənimsəməsi səbəbindən ənənəvi mədəniyyətin itirilməsi– red.) siyasətinin əsasını qoyan məhz Böyük Fransa inqilabı olub. 1793–1794-cü illərdə Sen-Deni abbatlığında kral məzarlarının təhqir edilməsi Fransa inqilabının ən biabırçı epizodlarından biri kimi tarixə düşüb. Həmin hadisələr zamanı inqilabçıların fransız monarxlarının məzar daşlarını dağıtdıqları məlumdur. İnqilabdan sonrakı dövrdə də Fransada Jilber Lafayet, Viktor Hüqo və baş nazir Leon Mişel Qambetta da daxil olmaqla, məşhur insanların heykəlləri tez-tez götürülüb. 1871-ci ildə Paris Kommunası zamanı Fransa krallarının heykəllərinin dağıdılmasını, məzarlarının talan edilməsini və Vendome sütununun yıxılmasını da xatırlatmaq yerinə düşər.

Əlbəttə, dəyərlərin yenidən qiymətləndirilməsi – harada baş verməsindən asılı olmayaraq, həmişə məhz bu dəyərləri simvolizə edən abidələrin sökülməsi və ya təhqir edilməsi ilə müşayiət olunur. Bu mənfi tendensiya özünü Fransada daha qabarıq göstərib. Amma nə yazıq ki, həm dövlətlər arasında, həm də bir ölkə daxilində abidələr arasında mübarizə dövrümüzün əlamətidir. Azərbaycanın İkinci Qarabağ müharibəsində qalib gəlməsini həzm etməyən və regionda möhkəmlənmək cəhdlərinin boşa çıxmasından məyus olan Fransa indi də qəzəbini abidələrə yönəldib. 30 il Azərbaycan ərazilərini işğal altında saxlayan və bu müddətdə tarixi abidələri yer üzündən silən ermənilərə silah verən Paris Azərbaycanın görkəmli şairəsi Xurşidbanu Natəvana ucaldılmış abidəsini qarşı “Səlib yürüşü”nə çıxıb. Belə ki, hələ 2015-ci ildə Azərbaycanın İsmayıllı şəhəri ilə dostluq və əməkdaşlıq xartiyası imzalayan Fransanın Evian-le Ba şəhərinin meriyası bu yaxınlarda mədəniyyətə düşmən mövqeli qərar qəbul edib. Qərara əsasən, “Azərbaycan parkı”nın qeyd olunduğu bütün yazılar yığışdırılıb. İndi fransız məmurları şovinizminin növbəti qurbanı Xurşidbanu Natəvanın abidəsidir. Xatırladaq ki, müəllifləri Salhab Məmmədov və Əli İbadullayev olan abidənin və “Azərbaycan parkı”nın rəsmi açılışı 2017-ci il iyulun 3-də olub.

Azərbaycan müsəlman ölkəsi olsa da, digər dinlərə də hər zaman sayğı və diqqət göstərib. Xüsusilə də Heydər Əliyev Fondunun Avropanın bir sıra ölkələrində, həmçinin Fransada bəşəriyyətin irsi hesab edilən obyektlərin təmirində və bərpasında böyük işlər görüb. Məsələn, Fransanın müxtəlif regionlarında 20-dən çox kilsənin bərpasına yardım edilib. 1320–1340-cı illərdə salınmış, üzərində Müqəddəs Məryəmin və İsa peyğəmbərin həyatı əks olunmuş Strasburq Kafedral kilsəsinin vitraj şüşələrinin, Versal Sarayının parkındakı qədim, ümumbəşər abidələrin – “Amazonka” (1685–1693, müəllif Jak Buirret) və “Qulpları favn başları ilə bəzədilmiş vaza”nın (1687–1705, müəllif Klod Berten), Fransanın Orn Departamentində X–XII əsrlərə aid 7 kilsənin bərpası işlərini həyata keçirib. Notr-Dam kilsəsinin təmiri ilə əlaqədar Heydər Əliyev Fondunun ayırdığı maliyyə vəsaitini də xatırladırıq. 1500 kvadratmetrlik sahəni əhatə edən və XI əsrə məxsus qədim tarixi abidənin təmiri məqsədilə Heydər Əliyev Fondunun göstərdiyi qayğını o zaman fransızlar da yüksək qiymətləndirmişdilər. İndisə fransızlar tərs istiqamətdə addımlamağa başlayıblar. Ölkələri və xalqları birləşdirən etibarlı körpünü – mədəniyyət obyektlərini hədəfə alıblar.

Dövlətlər arasında münasibətlər bu və ya digər səbəblərdən soyuyur. Heç bir ölkə bundan sığortalanmayıb. Amma istənilən halda dövlətlərarası münasibətlərdəki problemlər mədəniyyət və incəsənət sahələrinə təsir göstərməməlidir. Ermənistandan fərqli olaraq Azərbaycan ərazilərinin işğal altında olduğu müddət ərzində erməni dini və tarixi abidələrinə qarşı hər hansı bir mənfi qərar qəbul etməyib. Bakının mərkəzindəki erməni kilsəsi buna bariz nümunədir. Amma ermənilər işğal etdikləri ərazilərimizdə tarixi-dini abidələrimizə qarşı soyqırımı siyasəti yürüdüblər. İndi Fransa kiçik bacısının yolu ilə getmək istəyir. Onsuz da fransızlar tarixdən heç zaman ibrət götürməyiblər.



**S.ELAY**
**XQ**

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin Əsasnaməsi

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin (bundan sonra – Məcəllə) 16.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin (bundan sonra – Sistem) formalaşdırılmasının, aparılmasının və digər dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatları və sistemləri ilə Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə inteqrasiyasının, habelə Sistemlə bağlı mühafizə tədbirlərinin təmin edilməsinin, Sistem vasitəsilə müraciətlərin qəbulunun, emalının və cavablandırılmasının hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Sistemin formalaşdırılmasının məqsədi rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə şəhərsalma və tikinti fəaliyyəti sahəsində xidmətlər göstərilməsində əlçatanlığın, şəffaflığın və operativliyin təmin edilməsi, habelə bu sahədə nəzarətin effektivliyinin artırılmasından ibarətdir.

1.3. Sistemdə formalaşdırılan, yaradılan, əldə edilən və toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.4. Fərdi məlumatların Sistemdə toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunan funksiyaların təmin edilməsidir. Fərdi məlumatların toplanılması, işlənilməsi, mühafizəsi, yayılması və verilməsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına əsasən həyata keçirilir.

1.5. Sistemin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsindən ayrılan vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Sistemdən istifadə ödənişsizdir.

1.7. Sistemin formalaşdırılmasına, aparılmasına, inteqrasiyasına və arxivləşdirilməsinə dair bu Əsasnamə ilə tənzimlənməyən digər məsələlər Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na (bundan sonra – Qaydalar) uyğun olaraq həll edilir.

**2. Əsas anlayışlar**

2.1. Bu Əsasnamənin məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

2.1.1. sahib – normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada Sistem üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, habelə Sistemin aparılmasını təmin edən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi;

2.1.2. iştirakçı – Sistemin informasiya proseslərində iştirak edən dövlət orqanları (qurumları);

2.1.3. istifadəçi – Sistemdən informasiya əldə etmək və ya informasiyadan istifadə hüququ verilmiş dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər;

2.1.4. elektron kabinet – istifadəçilərin Vahid Giriş Sistemi vasitəsilə Sistemə daxil olmasına və istifadəsinə imkan verən, müraciətləri elektron formada göndərməsini və xidmətlərdən istifadə etməsini, ödənişlər həyata keçirməsini, həmçinin iştirakçı və sahiblə qarşılıqlı əlaqəni təmin edən fərdi elektron səhifə.

2.2. Sistemin sahibi eyni zamanda onun operatoru funksiyalarını həyata keçirir.

**3. Sistemin fəaliyyətinin prinsipləri**

3.1. Sistem Qaydaların 2.1-ci bəndində qeyd edilən prinsiplər nəzərə alınmaqla formalaşdırılır və aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

3.1.1. istifadə rahatlığı – Sistemdən istifadənin və informasiya mübadiləsinin rahat, əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

3.1.2. operativlik – Sistemdə məlumatların yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı proseslərinin sürətli şəkildə həyata keçirilməsi;

3.1.3. şəffaflıq – Sistemin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi imkanının mövcudluğu;

3.1.4. fasiləsizlik – Sistemdə aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq, fəaliyyətin fasiləsiz həyata keçirilməsi.

**4. Sistemin fəaliyyətinin təşkili**

4.1. İştirakçı tərəfindən Sistemə daxil edilən məlumatlar gücləndirilmiş elektron imzadan istifadə yolu ilə daxil edilməlidir.

4.2. Sistemə daxil edilən məlumatlar dolğun olmalı, zəruri xanalar tam doldurulmalı və anonimləşdirilən məlumatlar istisna olmaqla, sözlər ixtisarla ifadə edilməməlidir.

4.3. Müraciətlərin nəticəsi olaraq verilmiş yekun elektron sənədlər Sistem vasitəsilə avtomatlaşdırılmış formada tərtib edilir.

4.4. Məlumatlar Sistemə Azərbaycan Respublikasının dövlət dilində daxil edilir.

4.5. İştirakçı tərəfindən Sistemə daxil edilmiş məlumatlarda çatışmazlıqlar aşkar olunduqda, iştirakçının yazılı müraciəti əsasında sahib həmin çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görür.

**5. Sistemin texniki-texnoloji infrastrukturu**

5.1. Sistem aşağıdakı elementlərdən ibarətdir:

5.1.1. proqram kompleksi;

5.1.2. avadanlıq kompleksi;

5.1.3. şəbəkə infrastrukturu;

5.1.4. iştirakçıların işçi stansiyalarının texniki vasitələri;

5.1.5. ehtiyat sistemi.

5.2. Sistemin proqram kompleksinə əməliyyat sistemləri, tətbiqi proqram təminatı, informasiyanın mühafizəsi və digər proqram vasitələri aiddir.

5.3. Sistemin avadanlıq kompleksinə serverlər, yaddaş qurğuları və digər texniki vasitələr aiddir. Sistemin avadanlıq kompleksi sahibin nəzarəti altında fəaliyyət göstərir.

5.4. Sistemin şəbəkə infrastrukturunu kommunikasiya avadanlığı və mühafizə olunan telekommunikasiya kanalları təşkil edir.

5.5. Sistem iştirakçılarının işçi stansiyalarının texniki vasitələrinə kompüter dəsti, çap qurğusu, habelə digər zəruri elektron cihazlar daxildir. Bu texniki vasitələrin mühafizəsini və onlardan təyinatı üzrə istifadəni iştirakçı təmin etməlidir.

5.6. Ehtiyat sistemi Sistemin fəaliyyətinin dayanıqlılığını və təhlükəsizliyini təmin etmək, habelə formalaşdırılan, daxil edilən və göndərilən məlumatların ehtiyat surətlərini saxlamaq məqsədilə yaradılır.

**6. Sistemin strukturu və funksionallığına dair tələblər**

6.1. Sistemin strukturuna aşağıdakı altsistemlər daxildir:

6.1.1. Elektron Tikinti Portalı;

6.1.2. Tikintilərin Dövlət Reyestri Portalı;

6.1.3. Şəhərsalma Nəzarəti.

6.2. Sistem vasitəsilə aşağıdakılar təmin edilir:

6.2.1. informasiyanın informasiya ehtiyatında toplanılması, emalı, axtarışı, təhlili və ötürülməsi;

6.2.2. Sistemdən eyni zamanda çoxsaylı istifadəçilərin istifadə etməsinin mümkünlüyü;

6.2.3. təhlükəsizlik və məlumatların mühafizəsi;

6.2.4. şəhərsalma və tikinti fəaliyyəti ilə bağlı elektron xidmətlərin göstərilməsi;

6.2.5. müraciətin nəticəsi olaraq yekun elektron sənədlərin hazırlanması.

6.3. "Elektron Tikinti Portalı" altsisteminə daxil olan modullar vasitəsilə aşağıdakılar təmin edilir:

6.3.1. tikintiyə icazə sahəsində:

6.3.1.1. sifarişçi tərəfindən tikintiyə icazə alınması məqsədilə tikintiyə icazə verən orqana (quruma) müraciət edilməsi;

6.3.1.2. sifarişçi tərəfindən Məcəllənin 75.3-cü maddəsinə uyğun olaraq təqdim edilən sənədlərin ərizəyə əlavə olunmasının yoxlanılması;

6.3.1.3. Məcəllənin 75.4-cü maddəsinə uyğun olaraq sənədlər tam təqdim olunmadıqda (Məcəllənin 75.3-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla) tikintiyə icazə verən orqan (qurum) tərəfindən onların tamamlanması üçün zəruri hərəkətlər barədə sifarişçiyə məlumat verilməsi və sənədlərin tamlığının təmin edilməməsinin hüquqi nəticələrinin izahının göndərilməsi;

6.3.1.4. müraciətin (müvafiq sənədlərlə birlikdə) tikintiyə icazə verən orqan (qurum) tərəfindən rəylərin, texniki şərtlərin və həmin texniki şərtlərlə bağlı layihə sənədlərinin alınması üçün aidiyyəti qurumlara göndərilməsi;

6.3.1.5. tikintiyə icazə verən orqan (qurum) tərəfindən verilmiş tikintiyə icazənin (tələb olunduqda həmçinin xüsusi nişanın) və ya tikintiyə icazənin verilməsindən imtina barədə qərarın sifarişçiyə göndərilməsi;

6.3.1.6. tikintiyə icazə verən orqan (qurum) tərəfindən tikintiyə icazə barədə məlumatların Tikintilərin Dövlət reyestrinə ötürülməsi;

6.3.1.7. Tikintilərin Dövlət reyestrini aparan orqan tərəfindən tikinti obyektinə verilən kod və həmin koda dair şəhadətnamənin tikintiyə icazə verən orqana (quruma) və sifarişçiyə göndərilməsi;

6.3.1.8. tikintiyə icazə, xüsusi nişan verildikdə bu barədə, habelə müvafiq tikinti layihəsi barədə tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi məqsədləri üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə məlumat verilməsi;

6.3.2. sifarişçi tərəfindən tikintiyə icazə almaq üçün müraciət edilməzdən əvvəl tikinti aparmaq istədiyi ərazidə aparılacaq tikintinin icazə verilən parametrlərini (ərazinin tikinti əmsalı, ərazinin tikinti sıxlığı əmsalı, tikinti obyektlərinin hündürlüyü və s.) öyrənmək məqsədilə tikintiyə icazə verən orqana (quruma) müraciət edilməsi və həmin orqan (qurum) tərəfindən cavab verilməsi;

6.3.3. istismara icazə sahəsində:

6.3.3.1. sifarişçi tərəfindən tikinti obyektinin istismarına icazə verilməsi məqsədilə istismara icazə verən orqana (quruma) müraciət edilməsi, habelə müraciətə əlavə olunmalı sənədlərin təqdim edilməsi;

6.3.3.2. istismara icazə verən orqan (qurum) tərəfindən tikinti obyektinin istismarına icazə verilməsi üçün dövlət rüsumunu ödəməsi vəzifəsi barədə sifarişçiyə məlumat göndərilməsi, həmin ödənişin həyata keçirildiyini təsdiq edən sənədin sifarişçi tərəfindən təqdim edilməsi;

6.3.3.3. istismara icazə verən orqan (qurum) tərəfindən verilmiş tikinti obyektinin istismarına icazənin və ya istismara icazənin verilməsindən imtina haqqında qəbul edilmiş qərarın sifarişçiyə göndərilməsi;

6.3.3.4. istismara icazə verən orqan (qurum) tərəfindən tikinti obyektinin istismarına icazə barədə məlumatların Tikintilərin Dövlət reyestrinə ötürülməsi;

6.3.4. reklam qurğularının tikintisinə icazə sahəsində:

6.3.4.1. açıq məkanda reklam yerləşdirilməsi üçün nəzərdə tutulmuş sahəsi (çoxtərəfli qurğularda isə bir tərəfin sahəsi) 60 kvadratmetr və ya bundan çox təşkil edən reklam qurğularının tikintisinə, quraşdırılmasına, onlara konstruktiv dəyişikliklər edilməsinə icazə verilməsi məqsədilə sifarişçi tərəfindən tikintiyə icazə verən orqana (quruma) müraciət edilməsi;

6.3.4.2. tikintiyə icazə verən orqan (qurum) tərəfindən reklam qurğularının tikintisinə icazə verilməsi ilə bağlı Məcəllənin 75.4-cü, 75.5-ci, 75.9–75.11-ci, 75.14-cü və 82-ci maddələrində nəzərdə tutulmuş tədbirlərin görülməsi;

6.3.5. məlumatlandırma icraatı sahəsində:

6.3.5.1. sifarişçi tərəfindən tikinti niyyəti barədə məlumatlandırılan orqana (quruma) məlumat verilməsi və məlumata əlavə olunan sənədlərin yoxlanılması məqsədilə göndərilməsi;

6.3.5.2. məlumatlandırılan orqan (qurum) tərəfindən tikinti obyektinin layihəsinə münasibətdə iradların sifarişçiyə göndərilməsi, Məcəllə ilə müəyyən edilmiş müddətdə hər hansı irad bildirilmədikdə, tikinti niyyəti barədə məlumatların Tikintilərin Dövlət reyestrinə ötürülməsi;

6.3.5.3. tikinti işlərinin başlanılması üçün Məcəllənin 80.4-cü maddəsində müəyyən olunmuş əsas yarandıqda, bu barədə, habelə tikinti layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələri barədə tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi məqsədləri üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə məlumat verilməsi;

6.3.5.4. sifarişçi tərəfindən tikinti obyektinin tikintisinin başa çatması barədə məlumatlandırılan orqana (quruma) məlumat verilməsi və həmin məlumatların Tikintilərin Dövlət reyestrinə ötürülməsi.

6.4. "Şəhərsalma Nəzarəti" altsisteminə daxil olan modullar vasitəsilə aşağıdakılar təmin edilir:

6.4.1. kameral qaydada nəzarət zamanı tələb olunan sənədlərin orqanlar (qurumlar) arasında mübadiləsi;

6.4.2. sahib tərəfindən dövlət şəhərsalma nəzarəti çərçivəsində əsaslandırılmış göstərişlərin göndərilməsi;

6.4.3. aparılan tikinti işləri ilə bağlı tikintisinə icazə tələb olunan tikinti obyektlərinə münasibətdə tikintiyə icazənin verilib-verilmədiyi, barəsində məlumatlandırma icraatı tətbiq olunan tikinti obyektinə münasibətdə isə həmin işlərin başlanılması üçün Məcəllənin 80.4-cü maddəsində müəyyən olunmuş əsasın yaranıb-yaranmadığı barədə məlumatların real vaxt rejimində yoxlanılması;

6.4.4. yerli icra hakimiyyəti orqanları tərəfindən dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi zamanı aşkar edilmiş pozuntular barədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin məlumatlandırılması və bu barədə bütün məlumatların sahibə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə göndərilməsi.

**7. Sistemə daxil edilən və ötürülən məlumatlar (sənədlər)**

7.1. Sistemə daxil edilən məlumatlar (sənədlər) aşağıdakılardır:

7.1.1. şəhərsalma və tikintiyə dair normativ sənədlər;

7.1.2. dövlət şəhərsalma nəzarətinin nəticələri;

7.1.3. Tikintilərin Dövlət reyestri məlumatları;

7.1.4. tikinti layihəsinə dair rəylər və texniki şərtlər barədə məlumatlar.

7.2. EHİS vasitəsilə sorğu əsasında Sistemə ötürülən məlumatlara (həm qrafiki (xəritə), həm də mətn şəklində) aşağıdakılar aiddir:

7.2.1. dövlət şəhərsalma kadastrı məlumatları;

7.2.2. tikintiyə dövlət nəzarətinin nəticələri;

7.2.3. peşəkarlıq reyestri məlumatları;

7.2.4. mühəndis-axtarış işlərinin nəticələri üzrə Dövlət məlumat fondu.

7.3. Şəhərsalma və tikintiyə dair normativ sənədlərə aşağıdakılar aiddir:

7.3.1. şəhərsalma və tikinti fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar;

7.3.2. ərazi planlaşdırılması sənədləri (ümumi, baş və müfəssəl planlar).

7.4. Dövlət şəhərsalma nəzarətinin nəticələrinə respublika səviyyəsində və yerli səviyyədə aparılan şəhərsalma nəzarəti tədbirlərinin nəticələrini əks etdirən sənədlər, yazılı göstərişlər və məlumatlar aiddir.

7.5.Tikintilərin Dövlət reyestri məlumatlarına aşağıdakılar aiddir:

7.5.1. tikilən, istismar edilən və sökülən tikinti obyektləri, habelə üzərində qadağa və məhdudiyyətlər qoyulmuş torpaqlar barədə məlumatlar;

7.5.2. məlumatlandırma icraatının tətbiq olunduğu tikinti obyektləri barədə məlumatlar.

7.6. Tikinti layihəsinə dair rəylər və texniki şərtlər barədə məlumatlara aşağıdakılar aiddir:

7.6.1. tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğun olub-olmaması barədə rəyə dair məlumatlar;

7.6.2. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun əlavəsində göstərilən fəaliyyət növləri üzrə layihələrin ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi və həmin sənədin dövlət ekoloji ekspertizasının rəyinə dair məlumatlar;

7.6.3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (sanitariya-gigiyena tələblərinə uyğunluq baxımından) və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (yanğın təhlükəsizliyi tələblərinə uyğunluq baxımından), habelə tikintiyə icazə ilə fəaliyyət sferasına (maraqlarına) toxunulan digər dövlət orqanlarının (qurumlarının) rəylərinə dair məlumatlar;

7.6.4. tikintisinə icazə tələb olunan tikinti obyektlərinin layihələrinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması baxımından, habelə dövlət vəsaitləri hesabına maliyyələşdirilən obyektlərin tikinti layihələri və smetalarının səmərəli istifadəsinin qiymətləndirilməsi baxımından ekspertizanın nəticələrinə dair məlumatlar;

7.6.5. təchizat müəssisələri tərəfindən verilmiş mühəndis-kommunikasiya təminatı ilə bağlı texniki şərtlər və həmin texniki şərtlərlə bağlı layihə sənədləri.

7.7. Dövlət şəhərsalma kadastrı məlumatlarına aşağıdakılar aiddir:

7.7.1. torpaq sahəsinin texniki göstəricilərinə dair məlumatlar;

7.7.2. mühəndis-kommunikasiya təminatı sistemi (qaz, istilik, rabitə, elektrik, su və kanalizasiya təminatı vasitələri və qurğuları) barədə məlumatlar;

7.7.3. yağış sularının axıdılması sistemlərinin infrastrukturuna dair məlumatlar;

7.7.4. tarix və mədəniyyət abidələri və onların mühafizə zonaları barədə məlumatlar;

7.7.5. nəqliyyat infrastrukturu barədə məlumatlar;

7.7.6. meliorasiya və irriqasiya infrastrukturuna dair məlumatlar;

7.7.7. bina və qurğuların texniki göstəriciləri barədə məlumatlar.

7.8. Tikintiyə dövlət nəzarətinin nəticələrinə obyektdə tikinti-quraşdırma işlərinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə və tikinti layihəsinə uyğun aparılmasını və tikintiyə dövlət nəzarətinin həyata keçirilməsinin başa çatmasını əks etdirən istismara hazırlıq aktı barədə məlumatlar aiddir.

7.9. Peşəkarlıq reyestri məlumatlarına mühəndis-axtarış, layihələndirmə, tikinti-quraşdırma, mexanikləşdirmə və nəqletmə, tikinti materiallarının istehsalı və tikinti layihələrinin ekspertizası kimi peşə sahələri ilə bağlı peşəkarlıq sertifikatı almış şəxslər barədə məlumatlar aiddir.

7.10. Mühəndis-axtarış işlərinin nəticələri üzrə Dövlət məlumat fondunun məlumatlarına aşağıdakılar aiddir:

7.10.1. mühəndis-geodeziya, mühəndis-geoloji axtarış, mühəndis-hidrogeoloji axtarış, geofiziki işləri və qruntların laboratoriya tədqiqatları barədə məlumatlar;

7.10.2. təhlükəli təbii və texnogen xarakterli fövqəladə halların yaranma riskinə məruz qalan ərazilər haqqında məlumatlar.

7.11. Bu Əsasnamənin 7.1.1-ci, 7.1.4-cü və 7.2.1–7.2.4-cü yarımbəndlərində nəzərdə tutulan məlumatlar "Elektron Tikinti Portalı" altsistemində dərc olunur.

7.12. Bu Əsasnamənin 7.1.2-ci yarımbəndində nəzərdə tutulan məlumatlar "Şəhərsalma Nəzarəti" altsistemində dərc olunur.

7.13. Bu Əsasnamənin 7.1.3-cü yarımbəndində nəzərdə tutulan məlumatlar "Tikintilərin Dövlət Reyestri Portalı" altsistemində dərc olunur.

**8. Məlumatların təqdim edilməsi**

8.1. Məlumatların Sistemə təqdim edilməsi aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatları və sistemləri vasitəsilə təmin edilir.

8.2. İnformasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə qoşulması Qaydaların 4-cü hissəsinə uyğun olaraq həyata keçirilir.

8.3. İnformasiya ehtiyatlarına və sistemlərinə malik olmayan dövlət orqanları (qurumları) formalaşdırdıqları məlumatları elektron kabinet vasitəsilə sahibə ötürürlər. Bunun üçün hər bir dövlət orqanının (qurumunun) möhür hüquqlu və gücləndirilmiş elektron imzası olan rəhbər vəzifəli şəxsi tərəfindən məsul struktur bölməsinin əməkdaşı Sistemdə qeydiyyatdan keçirilir və Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetinə daxil olaraq Sistemdən istifadə edir.

8.4. Məlumatların Sistemdə işlənilməsi bu Əsasnamənin 6.1-ci bəndində göstərilən altsistemlər vasitəsilə həyata keçirilir.

**9. Sahibin hüquq və vəzifələri**

9.1. Sahibin aşağıdakı hüquqları vardır:

9.1.1. əldə olunması qanunla məhdudlaşdırılan, o cümlədən xidməti istifadə üçün nəzərdə tutulan informasiyanın yalnız qanunla müəyyən edilmiş qaydada ötürülməsini və istifadəsini təmin etmək;

9.1.2. digər informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsinin təşkili üçün elektron servislər təşkil etmək və onları yeniləmək.

9.2. Sahibin aşağıdakı vəzifələri vardır:

9.2.1. iştirakçıların Sistemə giriş hüququnu təmin etmək;

9.2.2. iştirakçının Sistem vasitəsilə dayanıqlı, fasiləsiz, etibarlı və təhlükəsiz məlumat mübadiləsi aparmasını təmin etmək;

9.2.3. Sistemin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışları təşkil etmək;

9.2.4. proqram təminatının lisenziyalaşdırılmasını, lisenziyalı proqram təminatlarının işlək vəziyyətdə olmasını və yenilənməsini təmin etmək;

9.2.5. Sistemdə toplanılan texniki vasitələrin əməliyyatların qeydiyyat fayllarının (loq-faylların) monitorinqini həyata keçirmək və baş verən xətalar üzrə təhlillər aparmaq;

9.2.6. Sistemin monitorinqi və auditi üçün aidiyyəti dövlət orqanına (qurumuna) yerində baxış keçirilməsinə şərait yaratmaq, bu məqsədlə həmin dövlət orqanına (qurumuna) müvafiq məlumatları (sənədləri) təqdim etmək;

9.2.7. informasiya ehtiyatının ehtiyat nüsxəsinin saxlanılması və qorunması üçün tədbirlər görmək, saxlanılan məlumatların sürətli axtarışının həyata keçirilməsi məqsədilə informasiya ehtiyatının mütəmadi optimallaşdırılmasını təşkil etmək;

9.2.8. müəyyən edilmiş qrafik üzrə Sistemin avadanlıq kompleksinə və şəbəkə infrastrukturuna profilaktik baxış keçirilməsini təmin etmək, mütəmadi olaraq şəbəkə infrastrukturunda məlumatötürmə sürətini ölçmək və fasilələr yaranmasının səbəblərini müəyyən etmək məqsədilə monitorinqlər keçirmək;

9.2.9. Sistemə daxil edilən məlumatların tamlığını, təhrifolunmazlığını, əlçatanlığını, aktuallığını, etibarlılığını, konfidensiallığını (məxfiliyini) və mühafizəsini təmin etmək, Sistemdən istifadə zamanı yaranan nasazlıqları aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər görmək;

9.2.10. server və şəbəkə infrastrukturunun yerləşdiyi otaqlarda fasiləsiz elektrik enerjisini, yanğın təhlükəsizliyini və tələb olunan temperaturu tənzimləyən avadanlığa texniki baxış keçirilməsini və aşkarlanmış nasazlıqların aradan qaldırılmasını təmin etmək;

9.2.11. normativ hüquqi aktlarla edilmiş dəyişikliklərə əsasən ən qısa müddətdə proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqların keçirilməsini təşkil etmək;

9.2.12. qanunsuz daxilolma və saxtalaşdırma hallarının qarşısını almaq, habelə giriş və əməliyyat tarixçələrini (loqları) saxlamaq;

9.2.13. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini texniki tələblərə, eləcə də bu Əsasnamə ilə müəyyən edilən tələblərə uyğun formada aparmaq;

9.2.14. Sistemin dayanıqlı və fasiləsiz fəaliyyətini, Sistemin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini, habelə təkmilləşdirilməsi üzrə profilaktik işlər görülməsini təmin etmək;

9.2.15. Sistemin təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

9.2.16. Sistemin digər informasiya ehtiyatları və sistemləri ilə EHİS vasitəsilə inteqrasiyasını həyata keçirmək;

9.2.17. Sistemin funksiyaları barədə iştirakçıları məlumatlandırmaq, onlara metodiki kömək göstərmək;

9.2.18. Sistemə daxil edilmiş məlumatların təhlükəsizliyi ilə bağlı təşkilati və texniki tədbirlər görmək, məlumatlardan istifadənin və onların mühafizəsinin təşkilini təmin etmək;

9.2.19. iştirakçılarda və istifadəçilərdə yaranmış çətinliklərin müəyyən edilməsi və zəruri təlimatlandırma işlərinin aparılması üçün qaynar xətt təşkil etmək;

9.2.20. Sistemin informasiya ehtiyatında dəyişiklikləri müvafiq qeydlər etməklə aparmaq, belə qeydlər üçün əsas olan sənədləri müvafiq sənədlər qovluğuna daxil etmək;

9.2.21. Sistem üzrə statistik hesabatlar hazırlamaq və onlar əsasında təhlillər aparmaq;

9.2.22. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını gücləndirilmiş elektron imza ilə təmin etmək;

9.2.23. dövlət xidmətləri göstərilməsi üçün tələb edilən sənədlər barədə məlumat digər dövlət informasiya ehtiyatlarında və ya sistemlərində olduqda, həmin məlumatın ilkin mənbədən əldə olunmasını təmin etmək;

9.2.24. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında sahibin rəsmi internet səhifəsi və EHİS vasitəsilə göstərilməsini təmin etmək;

9.2.25. istifadəçilərin tələbi əsasında onlar barədə məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

9.2.26. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əsaslandırılmış tələbinə uyğun olaraq Sistemin fəaliyyətini təşkil etmək, onda dəyişiklik və təkmilləşdirmələr aparmaq;

9.2.27. iştirakçılara və istifadəçilərə Sistemin iş prinsipi və funksional imkanları haqqında məlumat vermək, metodiki kömək göstərmək;

9.2.28. Sistemə daxil edilmiş məlumatlarda çatışmazlıqlar aşkar olunduqda, həmin çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görmək.

**10. İştirakçıların hüquq və vəzifələri**

10.1. İştirakçıların aşağıdakı hüquqları vardır:

10.1.1. Sistemin işinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

10.1.2. elektron kabinet vasitəsilə Sistemdə məlumatları yoxlamaq, zəruri sənəd və arayışlara dair məlumatları əldə etmək və ötürmək;

10.1.3. elektron kabinet vasitəsilə toplanılan məlumatlarda dəyişiklik edilməsi barədə sahibə müraciət etmək.

10.2. İştirakçıların aşağıdakı vəzifələri vardır:

10.2.1. məlumatları dolğun şəkildə Sistemə daxil etmək, bu məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək;

10.2.2. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını gücləndirilmiş elektron imza ilə təmin etmək;

10.2.3. Sistemdən və oradakı məlumatlardan yalnız xidməti məqsədlər üçün istifadə etmək;

10.2.4. sahib tərəfindən Sistemə daxil edilən və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumat və sənədləri daim izləmək;

10.2.5. Sistemdə saxlanılan məlumatlarda aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal elektron qaydada sahibə məlumat vermək;

10.2.6. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

10.2.7. Sistemin fəaliyyətini ləngidən, ona zərər vuran və ya onun fəaliyyətinin dayanmasına səbəb ola bilən hərəkətlərə yol verməmək;

10.2.8. Sistemə giriş imkanı verən avtomatlaşdırılmış işçi stansiyanın qorunmasını təmin etmək;

10.2.9. Sistemə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) pozmamaq;

10.2.10. məlumatların mühafizəsi ilə bağlı tədbirlərin yoxlanılmasını həyata keçirən şəxslərə maneə yaratmamaq.

**11. İstifadəçilərin hüquqları**

11.1. İstifadəçilərin aşağıdakı hüquqları vardır:

11.1.1. şəhərsalma və tikinti fəaliyyətinə aid olan xidmətlərdən istifadə etmək;

11.1.2. şəhərsalma və tikinti fəaliyyəti ilə bağlı elektron müraciət etmək və sənədləri elektron qaydada göndərmək;

11.1.3. Sistemin işinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək.

**12. Sistemdən istifadə**

12.1. Əldə edilməsi qanunla məhdudlaşdırılan məlumatlar istisna olunmaqla, Sistemin məlumatlarından istifadə EHİS-ə inteqrasiya və elektron kabinet vasitəsilə təmin edilir.

12.2. Əldə edilməsi qanunla məhdudlaşdırılan məlumatlardan "İnformasiya əldə etmək haqqında", "Məlumat azadlığı haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunları, o cümlədən Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada istifadə edilir.

12.3. Məhdudiyyət qoyulmayan məlumat istənilən şəxsə onun sorğusuna əsasən təqdim edilir.

12.4. Sistemdə ödənişlər elektron qaydada həyata keçirilir.

12.5. Sistemə qeyri-qanuni daxilolma və ya müdaxilə baş verdikdə, sahib istifadəçinin Sistemdəki elektron kabinetə giriş hüquqlarını məhdudlaşdıra bilər.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 468 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısının təsdiq edilməsi haqqında" 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli və "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 866-VIQD nömrəli Qanununun tətbiqi və "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 may tarixli 2159 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 682; 2002, № 3, maddə 145; 2003, № 6, maddə 342; 2005, № 8, maddə 782; 2006, № 10, maddə 903; 2008, № 2, maddə 106; 2010, № 3, maddə 264, № 12, maddə 1123; 2014, № 10, maddə 1315; 2016, № 9, maddə 1585; 2017, № 12 (II kitab), maddə 2544; 2018, № 12 (II kitab), maddə 2735; 2019, № 1, maddə 169, № 3, maddə 555, № 5, maddə 967, № 6, maddə 1172, № 7, maddə 1338; 2020, № 2, maddə 202; 2022, № 8, maddə 1021, № 9, maddə 1085; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 noyabr tarixli 411 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısı"nın "Qeyd" hissəsinin 3-cü cümləsində "Bildiriş" sözü "Bildirişin surəti" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693; 2001, № 11, maddə 722; 2002, № 3, maddə 148, № 7, maddə 455, № 10, maddə 635; 2003, № 10, maddə 629; 2005, № 4, maddə 386, № 6, maddə 534, № 8, maddə 782, № 10, maddə 977, № 11, maddə 1061, № 12, maddələr 1228, 1231; 2006, № 3, maddə 297, № 8, maddə 731, № 9, maddə 830, № 10, maddə 902, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 316, № 8, maddə 787; 2009, № 2, maddə 148, № 10, maddələr 846, 849, № 12, maddə 1079; 2010, № 6, maddə 555; 2011, № 10, maddə 971; 2012, № 3, maddə 263, № 5, maddələr 489, 495, № 7, maddə 777, № 11, maddə 1206, № 12, maddə 1354; 2013, № 4, maddə 444, № 5, maddə 578; 2014, № 1, maddə 76, № 5, maddələr 552, 589, № 6, maddə 746, № 8, maddə 1019, № 12, maddə 1685; 2015, № 12, maddə 1580; 2016, № 3, maddə 611, № 4, maddələr 777, 814, № 6, maddə 1226, № 8, maddə 1449, № 11, maddə 1937; 2017, № 1, maddə 135, № 3, maddə 493, № 6, maddə 1245, № 7, maddə 1491, № 9, maddə 1721, № 10, maddə 1883, № 12 (II kitab), maddə 2545; 2018, № 2, maddə 347, № 3, maddə 628, № 4, maddə 789, № 5, maddə 1122, № 6, maddələr 1360, 1367, № 9, maddə 1929, № 10, maddə 2166; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddələr 938, 967, № 6, maddə 1172, № 7, maddələr 1325, 1338, № 10, maddə 1674; 2020, № 6, maddə 783, № 10, maddələr 1282, 1299, № 12 (V kitab), maddə 1580; 2021, № 3, maddə 302, № 12, maddə 1509; 2022, № 4, maddə 414; 2023, № 5, maddə 723, № 6, maddə 851, № 8 (II kitab), maddələr 1256, 1273; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 noyabr tarixli 428 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

2.1. 7-ci hissənin on səkkizinci abzasının birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Notarius kommersiya hüquqi şəxslərinin nizamnamə kapitalı, təsisçilərin (iştirakçıların) təsisçi (iştirakçı) səlahiyyətlərinin həyata keçirilməsi və onların nizamnamə kapitalındakı payları ilə əlaqədar notariat hərəkətləri apardığı zaman kommersiya hüquqi şəxslərinin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları, habelə kommersiya hüquqi şəxslərinin nizamnamələri və dövlət qeydiyyatı haqqında şəhadətnamələri barədə məlumatları elektron informasiya sistemləri vasitəsilə elektron sorğu əsasında əldə edir və bu barədə çap edilmiş arayışı müvafiq notariat hərəkəti üzrə notariusda saxlanılan işin nüsxəsinə əlavə edir.";

2.2. 133-cü hissənin yeddinci abzası aşağıdakı redaksiyada verilsin:

"Notarius tərcüməçi tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş tərcümənin düzgünlüyünü elektron qaydada təsdiq edə bilər. Bu halda notarius tərcümənin mətninə görə məsuliyyət daşımır.";

2.3. 161-ci hissənin doqquzuncu abzasında "Bildiriş" sözü "Bildirişin surəti" sözləri ilə əvəz edilsin;

2.4. 209-cu hissənin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 90-cı maddəsinə uyğun olaraq notariuslar xarici ölkələrdə tərtib edilmiş sənədləri aşağıdakı hallarda qəbul edirlər:

1. həmin sənədlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, habelə Azərbaycan Respublikasının diplomatik nümayən-dəlikləri və konsulluqlarında leqallaşdırılmış olduqda;

2. "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya" ilə müəyyən edilmiş hallarda xarici rəsmi sənədə kağız və ya elektron formada həmin Konvensiya ilə nəzərdə tutulan şəhadətnamə (apostil) verildikdə. Bu zaman elektron formada verilmiş şəhadətnamə (apostil) "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərinin aparılması qaydaları haqqında təlimata uyğun olaraq yoxlanıldıqdan sonra qəbul edilir.";

2.5. 210-cu hissə aşağıdakı redaksiyada verilsin:

"210. Azərbaycan Respublikasının qanunvericiliyində, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu hallarda notariuslar xarici ölkələrdə tərtib edilmiş sənədləri leqallaşdırılmadan və ya onlara Konvensiya ilə nəzərdə tutulan şəhadətnamə verilmədən qəbul edirlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 474 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***Nəqliyyat vasitəsinin utilizasiyası üçün ərizənin, nəqliyyat vasitəsinin təhvil alınması barədə aktın və utilizasiyaya verilmə barədə təsdiqedici sənədin formalarının təsdiq edilməsi haqqında***

"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 iyul tarixli 2253 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Nəqliyyat vasitəsinin utilizasiyası üçün ərizənin forması" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Nəqliyyat vasitəsinin təhvil alınması barədə aktın forması" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Nəqliyyat vasitəsinin utilizasiyaya verilməsi barədə təsdiqedici sənədin forması" təsdiq edilsin (3 nömrəli əlavə).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 475 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***"Dəmiryol nəqliyyatında istehsalatla əlaqəsi olmayan insanlarla baş vermiş nəqliyyat hadisələrinin və ya digər bədbəxt hadisələrin xidməti araşdırılması və qeydiyyatı (uçotu) Qaydaları"nın təsdiq edilməsi haqqında***

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatında istehsalatla əlaqəsi olmayan insanlarla baş vermiş nəqliyyat hadisələrinin və ya digər bədbəxt hadisələrin xidməti araşdırılması və qeydiyyatı (uçotu) Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 476 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***"Dəmiryol nəqliyyatı infrastrukturunda hərəkətin təhlükəsizliyi və istismarı qaydalarının pozulması ilə əlaqədar hadisələrin araşdırılmasının təşkili və qeydiyyatı Qaydaları"nın təsdiq edilməsi haqqında***

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatı infrastrukturunda hərəkətin təhlükəsizliyi və istismarı qaydalarının pozulması ilə əlaqədar hadisələrin araşdırıl-masının təşkili və qeydiyyatı Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 477 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***"Kosmik fəaliyyət subyektlərinin Azərbaycan Respublikasının kosmik obyektlərinin dövlət reyestrində qeydiyyata alınmış kosmik obyektlərinin idarə edilməsinə nəzarət Qaydası"nın təsdiq edilməsi haqqında***

"Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 927-VIQ nömrəli Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 4 avqust tarixli 2291 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Kosmik fəaliyyət subyektlərinin Azərbaycan Respublikasının kosmik obyektlərinin dövlət reyestrində qeydiyyata alınmış kosmik obyektlərinin idarə edilməsinə nəzarət Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 478 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***"Tikinti materiallarının və məmulatının sertifikatlaşdırılmasını həyata keçirən müəssisələrin laboratoriyalarının, habelə sınaq laboratoriyalarının akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il .. 14 aprel tarixli 103 nömrəli Qərarının ləğv edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Tikinti materiallarının və məmulatının sertifikatlaşdırılmasını həyata keçirən müəssisələrin laboratoriyalarının, habelə sınaq laboratoriyalarının akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 aprel tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 447) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 479 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli 255 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli 255 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1354, № 9, maddə 1909; 2019, № 2, maddə 352, № 4, maddə 754, № 8, maddə 1462; 2020, № 6, maddə 793, № 9, maddə 1235; 2023, № 2, maddə 316, № 9, maddə 1370) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.4. "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğu;".

**2.** "Qeyd" hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 469 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***"Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında***

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanununun tətbiqi və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2237 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 470 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***Bakı şəhərinin inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında***

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələ-rindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Bakı şəhəri, Qaradağ rayonu, Pirsaat qəsəbəsi ərazisində yerləşən dövlət ehtiyat fondu torpaqları kateqoriyasına aid 300,77 hektar torpaq sahəsi günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun həyata keçirsin.

**3.** Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 300,77 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

**4.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**5.** Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 471 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***"Azərbaycan Respublikasında qiymətli metallarla əməliyyatların aparılması və əqdlərin bağlanması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli 157 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 966-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasında qiymətli metallarla əməliyyat-ların aparılması və əqdlərin bağlanması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli 157 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 874; 2009, № 7, maddə 610; 2016, № 11, maddə 1961) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Preambulada "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 2-ci bəndinin icrasını təmin etmək məqsədilə" sözləri "Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq," sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında qiymətli metallarla əməliyyatların aparılması və əqdlərin bağlanması Qaydaları" üzrə:

2.1. 3.11-ci və 3.15-ci bəndlərdə "Maliyyə Bazarlarına Nəzarət Palatasının" sözləri "Mərkəzi Bankın" sözləri ilə əvəz edilsin;

2.2. 4.1-ci bənddə "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 472 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 977-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1969; 2018, № 11, maddə 2439; 2021, № 5, maddə 533) ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı"nın 9-12-ci hissələri aşağıdakı redaksiyada verilsin:

"9. Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün operatorlara verilən beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsi.

10. Ölkədaxili sifarişli daşımalara buraxılış vəsiqəsi.

11. Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi.

12. Taksi sifarişi operatoru fəaliyyətinə icazə.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 473 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 823; 2018, № 8, maddə 1797; 2023, № 2, maddə 298, № 6, maddə 844) ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"nin 2.7.6-cı yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.7.7-ci yarımbənd əlavə edilsin:

"2.7.7. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal və avadanlıqların idxalı hallarında.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 480 Bakı şəhəri, 25 dekabr 2023-cü il**

***"Dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatının tanınması şamil olunan ölkələrin və xarici (beynəlxalq) təşkilatların Siyahısı"nın təsdiq edilməsi haqqında***

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun tətbiqi və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 avqust tarixli 2298 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatının tanınması şamil olunan ölkələrin və xarici (beynəlxalq) təşkilatların Siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

**Qlobal iqlim təhlükəsizliyi**




# “Yaşıl artım ölkəsi” kimi tanınmağımız COP29-u Bakıya gətirdi

## “Odlar yurdu” bərpaolunan enerji dünyasının ön sırasındadır

**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev dekabrın 15-də keçirilən müşavirədəki çıxışında COP29-un gələn il respublikamızda reallaşması qərarını ölkəmizin növbəti böyük uğura imza atması, eyni zamanda, dünya ölkələrinin Azərbaycana bir daha böyük etimad və hörmət göstərməsi kimi dəyərləndirib. Dövlətimizin başçısı daha sonra deyib: “Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq”.

Qeyd edilənlər barədə aydın təsəvvür yaranması məqsədilə bəzi məqamlara nəzər salaq. Əvvəlcə xatırladaq ki, Azərbaycan neft emalı sahəsində bütün ekoloji qaydalara əməl edir. Respublikamızın qoşulduğu təbiətdən istifadə və ətraf mühitin mühafizəsi üzrə konvensiyalar, sazişlər, müqavilələr milli ekoloji qanunvericiliyin ayrılmaz hissəsi hesab olunur. Xəzər dənizinin respublikamız, digər Xəzəryanı ölkələr və bəşəriyyət üçün əhəmiyyətini, onun ekosistemlərinin həssas və dayanıqlı olmasını, bütün sahilyanı ölkələrin dənizdə getdikcə artan fəaliyyətlərinin (neft-qaz yataqlarının istismarı, dənizdə gəmi və boru kəmərləri daşımaları və s.) aktivləşməsini nəzərə alaraq Dövlət Neft Şirkəti öz ekoloji siyasətində Xəzər dənizinin gələcək nəsillər üçün qorunub saxlanılmasını prioritet vəzifə hesab edir.

Xəzər dənizində fəaliyyət göstərən beynəlxalq konsorsiumun neft çıxardığı “Azəri–Çıraq–Günəşli” yataqları, dəniz boru kəmərləri sistemi və Səngəçal terminalı üçün “Neft dağılmaları üzrə fəaliyyət Planları”na uyğun real texniki sistem formalaşdırılıb. Neft dağılmalarının qarşısının alınması, ballast sularının və başqa tullantıların yığılması məqsədilə Xəzər dənizində fəaliyyət göstərən Rusiya, Qazaxıstan, Türkmənistan şirkətləri də müvafiq planlara və tədbirlər sistemlərinə malikdirlər.

Hazırda qarşıda duran əsas vəzifələrdən biri neft və qaz hasilatında karbon tullantılarının sıfıra endirilməsinin həyata keçirilməsidir. Buna görə də SOCAR fəaliyyətində yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirir, bu yöndə elmi-tədqiqat işlərini sürətləndirməklə karbon tullantılarını sıfıra endirməyə əsas istiqamət kimi yanaşır. Adıçəkilən şirkətin “Neft və Qazın Dekarbonizasiyası Xartiyası”na (OGDC) qoşularaq metan tullantılarının sıfıra endirilməsi kimi öhdəlik götürməsi də bunun bariz ifadəsidir.

Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Avropa, Latın Amerikası və Karib hövzəsi üzrə vitse-prezidenti Alfonso Qarsia Moran bu günlərdə Azərbaycana səfəri zamanı ölkə mediasına müsahibəsində təmsil etdiyi qurumun respublikamızın COP29 konfransına evsahibliyi xəbərini alqışladığını bildirib. O, belə bir qərarın, eyni zamanda, Azərbaycanın iqlim gündəliyinə və dekarbonizasiya planlarına sadiqliyini əks etdirdiyini vurğulayıb.

Moranın sözlərinə görə, son 30 il ərzində Azərbaycan neft-qaz sektoru sayəsində mühüm iqtisadi inkişafa və rifahın yüksəlməsinə nail olub. Ölkəmizdə ümumdaxili məhsulun (ÜDM) üçdə biri, ixracın 90 faizi və birbaşa xarici investisiyaların (BXİ) isə 71 faizi bu sektorun payına düşür. Buna görə də Azərbaycan, şübhəsiz ki, aşağı karbonlu iqtisadiyyata uğurlu keçidi reallaşdırmaq və dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün qazıntı yanacağından imtina etməklə iqtisadiyyatda uğurlu diversifikasiya siyasəti yürüdür.

Dünya Bankının enerji sektorunun idarə olunmasına yardım proqramının təhlilindən göründüyü kimi, Azərbaycanın dənizdə külək enerjisi potensialı 157 qiqavat səviyyəsində qiymətləndirilir. Bu, ölkənin hazırda təqribən 8 qiqavatlıq ümumi quraşdırılmış gücü ilə müqayisədə çox böyük rəqəmdir. Azərbaycanın Energetika Nazirliyi, Dünya Bankı və IFC tərəfindən dərc olunan dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsi də göstərir ki, ölkəmiz 2040-cı ilədək 7 qiqavat dənizdə külək enerjisinin quraşdırılması üçün potensiala malikdir.

Bu həcmdə külək enerjisindən istifadə tam məşğulluq ekvivalentində 7 milyard dollara qədər yerli ümumi əlavə dəyər yaratmağa imkan verə bilər. Azərbaycanla dənizdə külək enerjisi potensialının inkişafını gerçəkləşdirmək və ölkəyə özəl investisiyalar cəlb etmək hesabına yeni səviyyəyə nail olmaq imkanları var. Dünya Bankı hazırda hökumətlə dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsinin reallaşdırılması, bu sahənin inkişafına təşəbbüs göstərilməsi və ölkəyə özəl investorların cəlb olunması ilə bağlı tədbirlər həyata keçirir.

Alfonso Qarsiya Mora müsahibəsində IFC-nin ölkəmizdə qeyri-neft sektorunun inkişafı, rəqabət qabiliyyətinin artırılması və özəl sektorun güclü potensialının reallaşdırılması ilə bağlı layihələrin icrasını da zəruri hesab edir. O, elektron mobilliyin bütün regionda inkişaf edən sahə olduğunu bildirir və respublikamızda ümumi enerji istehlakında nəqliyyat sektoru payının 22,6 faiz səviyyəsinə yüksəldiyini bildirir. Beynəlxalq Maliyyə Korporasiyasının vitse-prezidenti daha sonra ətraf mühitə təsiri azaltmaq məqsədilə özəl mənbələrdən maliyyələşdirilən elektromobillər üçün şarj stansiyalarının quraşdırılmasının və şəhər infrastrukturunun, o cümlədən, ölkənin avtobus parkının yenilənməsinin sürətləndirilməsində investisiyaların vacibliyini, habelə hökumətin elektromobil idxalı üçün artıq vergi güzəştlərinin tətbiqinə başladığını da diqqətə çatdırır.

Yeri gəlmişkən, IFC bu gün Azərbaycanla əməkdaşlığına xüsusi önəm verir. Bu barədə danışan Mora təmsil etdiyi qurumun son 10 il ərzində Azərbaycanda maliyyə xidmətləri, infrastruktur və istehsalat sahəsində 60-a yaxın layihəni maliyyələşdirməklə 850 milyon dollardan çox investisiya yatırdığını qeyd edir. Eyni zamanda, ölkəmizdə ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin genişmiqyaslı tətbiqi siyasətinin davam etdirilməsi, daxili yanma mühərriklərinə malik köhnə avtomobillərin yeniləri ilə əvəz olunması zəruriliyini vurğulayır.

Bir sözlə, IFC Azərbaycana elektron mobillik bazarının inkişafı üçün normativ, siyasi və institusional baza hazırlamaqda kömək göstərir, eləcə də, özəl sektor layihələri üçün maliyyə vəsaiti təmin etməklə ölkəmizin səylərini dəstəkləyir.

*Vaqif BAYRAMOV*
*XQ*



# Gələn il Qarabağda yeni zavodlar istifadəyə veriləcək

**Ağdam Sənaye Parkında qeydiyyatdan keçən 25 rezidentin artıq 10-dan çoxu tikinti-quraşdırma işlərinə başlayıb. Parkda gələn ilin ilk yarısında bir sıra müəssisələrin, o cümlədən “Rail Trans Service” MMC tərəfindən inşa olunan avtomatika və telemexanika zavodunun fəaliyyətə başlaması planlaşdırılıb.**

Zavodun tikintisi üçün Ağdam Sənaye Parkı ərazisində bir hektara yaxın torpaq sahəsi ayrılıb. Müəssisənin tikinti sahəsi 2 min 739 kvadratmetrdir. Layihə rəhbəri Seymur Qəhrəmanov bildirib ki, Avtomatika və telemexanika istehsalı zavodunun tikintisinə cari ilin oktyabr ayında başlanılıb. 2024-cü ilin may ayında inşaat işlərinin başa çatdırılaraq müəssisənin işə salınması nəzərdə tutulub. Zavodda dəmir yolu üçün avadanlıqlar istehsal olunacaq. Burada 45 nəfər işlə təmin ediləcək.

Qeyd edək ki, Ağdam Sənaye Parkına investorlar tərəfindən 175 milyon manatdan çox investisiyanın yatırılması, 1600-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda 10-dan çox sahibkarlıq subyekti tərəfindən fəal tikinti-quraşdırma, digərləri isə layihələndirmə və ərazinin topoqrafik işləri həyata keçirir.

# Paytaxt sənayesində 50 milyard manatlıq məhsul buraxılıb

**Bu ilin yanvar-noyabr aylarında Bakı şəhəri üzrə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 51,3 milyard manat təşkil edib.**



Bakı Şəhər Statistika İdarəsindən verilən məlumata görə, sənaye məhsulunun 79,3 faizi mədənçıxarma, 17,9 faizi emal, 2,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Hesabat dövründə sənayedə qeyri-dövlət sektorunun payı 86,7 faizə çatıb. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 91,7 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 8,3 faiz təşkil edib.

İdarənin məlumatında, həmçinin bildirilir ki, 11 ayda istehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 2023-cü il 1 dekabr vəziyyətinə 459,6 milyon manatlıq hazır məhsul ehtiyatı olub. Bundan əlavə, sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 60,5 milyon manat məbləğində digər məhsullar da qeydə alınıb.

*XQ*

# Azərbaycan–Tükiyə: “ağıllı kənd”ə doğru

## Qardaş ölkələr aqrar təcrübəni davamlı paylaşır

**Qardaş Türkiyə Respublikası iqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar sektorda da ölkəmizin etibarlı tərəfdaşıdır. Artıq uzun illərdir ki, ölkələrimiz aqrar tədqiqatlar, təhsil, pambıqçılıq, toxumçuluq, baytarlıq, aqrar sığorta və digər sahələr üzrə səmərəli əməkdaşlıq edirlər.**




Ötən müddətdə kənd təsərrüfatı məhsulları üzrə qarşılıqlı ticarət əlaqələri xeyli inkişaf edib, bu sahədə ticarət dövriyyəsinin artırılması istiqamətində lazımi işlər görülüb. Bununla yanaşı, hazırda ölkəmizdə Türkiyənin aqrar sahədə müasir texnologiyaların tətbiqinə dair təcrübəsi də öyrənilir.

Bugünlərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti Türkiyədə səfərdə olub. Nazirliyin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin məlumatına görə, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyinin Avropa İttifaqı və xarici əlaqələr, Təhsil və mətbuat, Dövlət su işləri, Qida və nəzarət, kənd təsərrüfatı islahatları və kadr məsələləri üzrə baş idarələrinin və TÜRKSAT-ın rəsmi şəxsləri ilə görüşlər keçirib. Görüşlərdə fermerlərin müraciətlərinə baxılması mexanizmi, elektron sənəd dövriyyəsinin tətbiqi qaydaları və digər məsələlər müzakirə olunub.

Səfər çərçivəsində ölkəmizdə kənd təsərrüfatı sahəsində aparılan islahatlar, tətbiq olunan rəqəmsal texnologiyalar, aqrar təhsil və tədqiqat, beynəlxalq layihələr, fermerlərə göstərilən dəstək və onların icra mexanizmləri, eləcə də Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları əsasında yenidən qurulması, ekologiyanın mühafizəsi və biomüxtəlifliyin qorunmasına yönəlmiş ən son texnologiyaların tətbiqi barədə ətraflı məlumat verilib.

Görüşlər zamanı türkiyəli həmkarlarla aqrar sahədə mövcud əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, ölkələrimiz arasında aqrar sahədə sazişlərin və yol xəritələrinin səmərəli icrası, beynəlxalq təşkilatlarla birgə əməkdaşlığın genişləndirilməsi, eləcə də Türkdilli Dövlətlər Təşkilatı çərçivəsində əməkdaşlığın daha da gücləndirilməsi və bu istiqamətdə konkret addımların atılması barədə müzakirələr aparılıb.

Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyinin aidiyyəti qurumlarının rəhbər şəxslərinin və mütəxəssislərinin iştirakı ilə təşkil olunmuş “dəyirmi masa”larda kadr məsələləri, elektron sənəd dövriyyəsi, kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası, torpaq və sudan səmərəli istifadə, kooperativlərin fəaliyyəti, həmçinin təhsil və elmi-tədqiqat, kənd yerlərinin inkişafı sahəsində həyata keçirilən layihələr, dövlət dəstəyi və onların icra mexanizmi və çağrı mərkəzlərinin fəaliyyəti ilə bağlı hər iki tərəfin təcrübəsinə əsaslanan təqdimatlar edilib.

Sonda kənd təsərrüfatı sahəsində ikitərəfli əməkdaşlığın həyata keçirilməsinin və müvafiq icra proseslərinin uğurla davam etdirilməsinin, bu kimi mübadilə və görüşlərin mütəmadi qaydada təşkil olunmasının vacibliyi bir daha vurğulanıb.

Xatırladaq ki, bu ilin iyun ayında Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədovun Ankarada Türkiyənin kənd təsərrüfatı və meşə naziri İbrahim Yumaklı ilə görüşü zamanı da aqrar sektorda ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyəti vurğulanmış, iki ölkə arasında ticarət dövriyyəsində kənd təsərrüfatı məhsullarının xüsusi payının artırılması, aqrar sığorta, elmi tədqiqat və təhsil sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində müzakirələr aparılmışdı.

Həmin görüşdə tərəflər “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyi arasında kənd təsərrüfatı infrastrukturu və ərazilərin qiymətləndirilməsi məsələləri üzrə əməkdaşlıq haqqında” Niyyət Bəyannaməsi imzalamışdılar. Sənəddə Türkiyədə həyata keçirilən kənd təsərrüfatı infrastrukturu və ərazilərin qiymətləndirilməsi fəaliyyətlərinin Azərbaycan Respublikasında tətbiqi imkanlarının araşdırılması və təcrübə mübadiləsi aparmaq niyyəti öz əksini tapıb. Bu sahədə fəaliyyətlərin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə birgə işçi qrupunun yaradılması nəzərdə tutulur.

Yeri gəlmişkən, son zamanlar qardaş Türkiyə ilə ölkəmizin işğaldan azad olunmuş ərazilərinin kənd təsərrüfatı potensialından səmərəli istifadə etmək istiqamətində də fəal əməkdaşlıq edilir. Bu baxımdan 2021-ci ilin oktyabr ayında Azərbaycan və Türkiyə prezidentləri tərəfindən Zəngilanda əsası qoyulmuş “Dost Aqropark” layihəsi xüsusi diqqət çəkir. Türkiyə və Azərbaycanın birgə layihəsi olan “Dost Aqropark”ın 3 mərhələdə icra olunacağı nəzərdə tutulur.

Artıq türk və azərbaycanlı sərmayədarlar tərəfindən icra olunan layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikilir. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Layihə başa çatdırıldıqdan sonra 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı sistemi inşa ediləcək. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. “Dost Aqropark” kompleksində “ağıllı kənd” təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulacaq. Aqropark tam işə düşdükdən sonra 500 nəfər işlə təmin ediləcək.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Türk-alban kilsəsinin baş məbədi

## *Bu abidə Qarabağın Azərbaycan torpağı olduğunu təsdiq edən coğrafi möhürdür*

**Turizm qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur. O qlobal miqyasda sürətlə inkişaf edən biznes sahəsidir. Hər il minlərlə insan istirahət həvəskarlarının sırasına qoşulur. Bununla da turizm getdikcə daha geniş vüsət alır və ölkənin gəlirli xidmət sahələrindən birinə çevrilir.**



Sözsüz ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı bu sahənuin daha da inkişaf etməsinə gətirib çıxara bilər. Azıx mağarası, alban məbədləri, qədim xristian monastırları, paleolit dövrünün izləri, qalalar və s. kimi memarlıq abidələri burada mədəni turizmin inkişafı üçün böyük imkanlar yaradır. Bu barədə Prezident İlham Əliyev demişdir: “Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni, doğrudan da, dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək”.

Ölkə rəhbərinin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası hazırlanıb. Turizm məhsullarının hazırlanması isə həmin ərazilərdə turizm infrastrukturunun qurulması ilə paralel aparılır. Turizm və rekreasiya zonalarının yaradılması istiqamətində addımlar atılr. Məsələn, Kəlbəcər rayonunda 5 yerdə turizm və rekreasiya zonaları təşkil edilir. Xocavənddə Hadrut, Ağbulaq, Tuğ və Böyük Tağlar, Zəngilanda Qaragöz, Qubadlıda isə eyni adlı ziyarət zonaları olacaq. Bu siyahıya Ağdərə rayonunun Vəngli kəndini daxil etmək olar. Bu kənd tarixi abidələri ilə zəngindir. Prezident İlham Əliyevin noyabrın 7-də bu kənddə olması da yaşayış sahəsinin strateji və turizm potensialından xəbər verir. Yeri gəlmişkən, işğal dövründə kənddə ermənilər növbəti vandallıq aktı nümayiş etdirərək, azərbaycanlıların şəxsi avtomobillərinin nömrələrindən lövhə düzəltmişdilər və həmin lövhə Vəngliyə səfər zamanı Prezident İlham Əliyevin tapşırığı ilə sökülüb.

Bəs Vənglini turistlərin maraq obyektinə çevirən nədir? Bu, ilk növbədə, Gəncəsər monastırı ilə bağlıdır. Onun zəngin tarixi mədəni turizm həvəskarlarında böyük maraq yarada bilər. Qafqaz Albaniyası xristian memarlığının ən görkəmli abidələrindən biri olan bu monastır Vəngli kəndində, Xaçın çayının sol sahilində dağın üstündə ucaldılıb. Monastırın divarında daş üzərindəki epiqrafik yazıda bildirilir ki, onu Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu Həsən Cəlal Dövlə və anası Xorişə Xatun 1216-1238-ci illərdə inşa etdirib. Tarixçi Əmirxan Burzuyev deyir ki, bunu Həsən Cəlalın qəbrinin üstündəki yazı da təsdiq edir: “Ulu knyaz Cəlal öz valideyninin vəsiyyətini yerinə yetirərək 665-ci ildə (1216-cı ildə) bu gözəl və daş (kapital) kilsəni tikdi və onu bütün mümkün şəkillərlə (bəzəklərlə) dövrələyərək 687-ci ildə (1238-ci il) onu bitirdi”.

Monastrın daxilində, kupelin altındakı yazı və Kirakos Qandzaketsinin məlumatı da fakta dəlalət edir. 1240-cı ildə tikilmiş abidə pak edilmişdir (müqəddəs su səpilmişdir): Yazıya görə: “Bu kilsə 689-cu ildə (1240) Alban Katolikosu Ter-Nersesin patriarxlığı dövründə pak edilib”.

Əmirxan Burzuyevin bildirdiyinə görə, Həsən Cəlal və onun nəslindən olan bir çox alban din xadimləri bu məbəd kompleksinin ərazisində dəfn olunublar. Qəbirüstü abidələrin üzərindəki bəzi yazılara nəzər salaq: “Bu 1102-ci (1653) il Alban katalikosu Qriqorinin qəbridir”. “Bu Cəlal Dolanın nəslindən olan 1149-cu il (1700) alban katalikosu Yereminin qəbridir”. “Bu alban katalikosu Yesaynın qəbridir... 1177 (1728)” və ş.

Qeyd edək ki, Gəncəsər monastırı 1511-ci ildən 1836-cı ilədək, yəni Rusiya Sinodunun (ölkənin ruhani idarəsi) rəsmi qərarı ilə Alban kilsəsi ləğv edilənədək, alban xristianlarının iqamətgahı olub.

Ermənistan silahlı qüvvələrinin işğalı altında olan müddətdə ermənilər Gəncəsər monastırını “Qanzasar” erməni monastır kompleksi kimi dünyaya təqdim ediblər. Abidənin memarlıq quruluşu və interyeri ermənilər tərəfindən qeyri-qanuni olaraq dəyişikliklərə uğradılıb. Tarixçi-Qafqazşünas Türkan İlqar bununla bağlı qeyd edir ki, işğal dövründə divar yazıları korlanıb, abidənin divarları üzərində olan bir neçə daş yazıları, eləcə də Albaniya dövrünə aid xeyli sayda ornament və simvollar tamamilə silinib, onlardan bir çoxunun formaları dəyişdirilərək tanınmaz hala salınıb. 2000-ci ildən təmir adı altında abidənin memarlıq quruluşuna ciddi zərər vurulub, interyerinə və fasadlarına müxtəlif heyvan fiqurları yerləşdirilib.

Monastırın həyətindəki qəbiristanlıqda 2000-2009-cu illərdə 15-dən çox qəbir və xaç daşları quraşdırılıb. Abidənin daxili divarları üzərindəki yazılar və bədii nümunələr silinib, qırmızı və qara rənglərlə bütün divarlar boyu erməni dilində yazılarla bəzədilib. Kompleksin daxilindəki knyaz Həsən Cəlal Dövlənin qəbri üzərindəki sinə daşı sındırılıb, üzərində həkk olunmuş bədii ornamentlərin bir çoxu məhv edilib. Hətta 2012-ci ildə ermənilər bu tarix-memarlıq abidəsinin divarlarının üzərini mərmər daşlarla bağlamağa başlamışdılar. Monastırın həyətində aparılan tikinti işləri tarixi abidənin əzəli görkəminə zərər vurmuşdur.

Yeri gəlmişkən, Azərbaycanın Ermənistana qarşı Avropa Məhkəməsində 2011-ci ildə qaldırdığı iddiada bu məqama toxunulub.

Ermənilər nə qədər dəyişikliklər etsələr də kompleksinin memarlıq planlaşdırma və kompozisiya həlli, heykəltəraşlıq nümunələri və diofizit xarakterli elementləri onun Qafqaz Albaniyası memarlığına aid olduğunu təsdiq edir.

...Cəncəsər monastr kompleksi 2020-ci ilin noyabrında Ermənistan silahlı qüvvələrinin işğalından xilas edildi. Hazırda onun qorunması və bərpası üçün əhəmiyyətli səylər göstərilir. Qarabağda saxtalaşdırmaya və mənimsənilməyə məruz qalan zəngin mədəni irsi ilə bağlı həqiqətlərin beynəlxalq səviyyədə ictimailəşdirilməsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən “Qarabağ – mədəniyyətimizin beşiyi” adlı layihə həyata keçirilir. Layihə çərçivəsində mədəni irsimizə qarşı vandalizm aktları, əzəli yurd yerlərimizdəki abidələr, tarixi həqiqətlərin yerli və dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün hazırlanan məlumatların müxtəlif dillərdə qlobal internet məkanında, o cümlədən sosial şəbəkələrdə yayılması nəzərdə tutulub. Layihə çərçivəsində hazırlanan materiallardan biri Gəncəsər monastır kompleksinə həsr edilib.

Yaxın gələcəkdə bu monastır kompleksi mədəni turizm mərkəzinə çevriləcək. Turistlər onun tarixi ilə yaxından tanış olacaqlar. Beynəlxalq arenada ölkənin tanınmasına və müsbət imicinin formalaşmasında rol oynayacaq, əhalinin işlə təmininə təkan verəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***



# Naxçıvan ili uğurla başa vurur

**Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nda yaxın 4 il ərzində sahibkarlığın inkişaf etdirilməsi, bölgəyə yerli və xarici investisiyaların cəlbi, sənaye və kənd təsərüfatında innovativ yeniliklərin tətbiqi, yerli xammal potensialından layiqincə istifadənin gerçəkləşdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Həmçinin bəhs olunan dövrdə Naxçıvanın tranzit imkanlarının genişləndirilməsi, ixrc potensialının artırılması və əhalinin məşğulluğu prioritet istiqamətlər kimi müəyyənləşdirilib.**

Cari il ərzində adıçəkilən Dövlət Proqramında nəzərdə tutulan əlverişli biznes mühitinin yaradılması, kiçik sahibkarlığın inkişaf etdirilməsi, şəffaf vergi və gömrük tənzimlənmələrinin tətbiqi, satınalmalarda müvafiq qaydalara əməl olunması məsələləri diqqətdə saxlanılıb. Məsələn, bu ilin ilk 11 ayında 400-dən çox satınalma müsabiqəsi reallaşdırılıb. Bunun 270-ə yaxını kotirovka sorğusu, 125-i isə açıq tender üsulu ilə keçirilib. Yaxud, əvvəlki dövrlərdən fərqli olaraq, bu il yaradılmış əlverişli biznes mühiti nəticəsində sahibkarların vergi xidmətinə etimadı və onun xidmətlərindən istifadə səviyyəsi yüksəlib. Nəticədə vergi yığımlarında artıma nail olunub. Belə ki, bu ilin 11 ayında muxtar respublikada Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 150 milyon manatdan çox vəsait daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 30 faiz çoxdur. Qeydiyyatdan keçmiş, yəni qanuni fəaliyyət göstərən vergi ödəyicilərinin sayı isə ilin əvvəli ilə müqayisədə 20 faiz artıb. Həmçinin muxtar respublikada başlanan “ƏDV geri al” layihəsi çərçivəsində istehlakçılara 652,2 min manatdan çox, təkcə oktyabr ayında isə 98,9 min manat ƏDV məbləği geri qaytarılıb.

Mövcud biznesin inkişafı və onun qanuni maraqlarının müdafiəsi məqsədilə “KOB dostu” şəbəkəsinin genişləndirilməsinə də mühüm önəm verilib. Ötən dövrdə Naxçıvan, Culfa, Şahbuz şəhərləri və Sədərək rayonunda “KOB dostu” ofisləri fəaliyyətə başlayıb ki, bu da kiçik və orta biznesin inkişafina şərait yaradıb, sakinlərinin kiçik və orta bizneslə məşğulluğunu stimullaşdırıb.

Biznesin inkişafında mühüm amillərdən biri də sahibkarların güzəştli və uzunmüddətli kredit resurslarına çıxışının olmasıdır. Buna görə də muxtar respublikada biznes subyektlərinin maliyyə resurslarına çıxışının asanlaşdırılması məqsədilə 2023-cü ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən Naxçıvanda fəaliyyət göstərən bütün banklara 15 milyon manat vəsait ayrılıb. Həmin vəsaitdən cari ilin 10 ayı ərzində sahibkarlara 1,4 milyon manatdan çox güzəştli şərtlərlə kredit verilib.

Bununla yanaşı, ötən bir il ərzində Naxçıvanda banklar da fəallaşıb, yeni bank filialları fəaliyyətə başlayıb. Təsadüfi deyil ki, qısa müddətdə muxtar respublikada KOB (kiçik və orta biznes) kreditləri üzrə ixtisaslaşdırılmış banklar tərəfindən sənaye və ticarətin inkişafı məqsədilə kreditlərin artımına nail olunub, ilin yanvar-oktyabr aylarında verilmiş kreditlərin həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 40 faiz artıb. Pul ekvivalentinə gəlincə isə sənaye üzrə 40 milyon manata yaxın, ticarət üzrə 50 milyon manata yaxın kreditlər verilib.

Həyata keçirilən mühüm tədbirlərdən biri də muxtar respublikanın xammal potensialının yenidən qiymətləndirilməsi ilə bağlı görülən işlərdir. Məlumdur ki, muxtar respublikanın ərazisində 200-dən çox nəcib, qara və əlvan metallar, üzlük və bəzək daşları, kərpic və kirəmit gili, seolit, boksit, inşaat qumu, habelə yol tikintisi və beton üçün çınqıl, sement və əhəng xammalı, yeraltı içməli və müalicəvi termal su yataqları var. Muxtar respublika iqtisadiyyatına mühüm təsir göstərəcəyi nəzərə alınaraq bu potensialdan lazımınca istifadə olunması qarşıdakı mühüm vəzifələrdəndir. Bunun üçün ilkin olaraq Naxçıvan Muxtar Respublikasının mineral xammal ehtiyatlarının yenidən qiymətləndirilməsi üzrə 2023-cü ilin dövlət büdcəsi vəsaiti hesabına maliyyələşən geoloji kəşfiyyat işlərinin dövlət sifarişi hazırlanaraq cari ilin iyul ayından işlərə başlanılıb.

Hazırda yataqlar üzrə geoloji təftiş işləri davam edir, bu sahəyə investisiya qoyuluşu üçün mineral və termal su mənbələrinin yerləri müəyyənləşdirilir, laborator analizlər aparılır və yataqların kadastrı hazırlanır. Yeri gəlmişkən, artıq əvvəlki illərdən fərqli olaraq muxtar respublika ərazisində qum və qum-çınqıl yataqlarının rəqabətli şəkildə istismarına da başlanılıb.

Yuxarıda sadalananlar, əslində, Naxçıvanda aparılan islahatların və “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq həyata keçirilən fəaliyyət planının əməli nəticəsidir. Görülən işlər isə bununla bitmir. Ümumilikdə, həyata keçirilən islahatlar və bu islahatların tərkib hissəsi olan iqtisadi tədbirlər dövlət orqanlarının strukturunun təkmilləşdirilməsinə, həmin orqanların xidməti fəaliyyətinin daha da yaxşılaşmasına və səmərəliliyinin artırılmasına, xarici investisiyaların cəlbinə, biznesin canlanmasına mühüm təsir göstərir.

Şübhəsiz ki, proqramın uğurlu icrası yaxın gələcəkdə muxtar respublikanın yeni inkişaf perspektivlərinə nail olmaqla, Naxçıvanın müasir dövrün çağırışlarına ən yüksək səviyyədə cavab verən regiona çevrilməsində də mühüm rol oynayacaq.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Qərb bölgəsi xəbərləri

## Gəncənin işıqlandırma və təmizlik şəbəkəsi yeniləşdirilir



***Gəncədə Avropa Yenidənqurma və İnkişaf Bankından ayrılan kredit vəsaiti ilə bərk məişət tullantılarının idarə edilməsi və küçələrin işıqlandırılması layihələri üzrə məsləhətçi şirkətlərlə şəhər icra hakimiyyəti arasında müqavilələrin imzalanma mərasimi olub.***

Mərasimdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, “Teknik TEMPO Uluslararası Mühendislik A.Ş.”ın icraçı direktoru Evren Akyol, “Urban Technology Alliance”ın rəhbəri Andryu Levkonyuk, bələdiyyə sədrləri, şəhərdə fəaliyyət göstərən idarə, müəssisə, təşkilat rəhbərləri iştirak ediblər. Niyazi Bayramov bildirib ki, ölkə Prezidenti İlham Əliyevin tapşırığı ilə 2020-ci ildə Azərbaycanda ilk olaraq, məhz Gəncə şəhəri Avropa Yenidənqurma və İnkişaf Bankının "Yaşıl şəhərlər" proqramına qoşulub və bu yöndə infrastruktur layihələrin icrası gözlənilir.

Layihə çərçivəsində Gəncə şəhərində küçələrin işıqlandırılması infrastrukturunun təkmilləşdirilməsi məqsədilə 275 küçəni əhatə edəcək 21 min led lampaların quraşdırılması, 50 kilometr uzunluğunda alüminium kabellərin və 371 elektrik şkafının, işıq dirəklərinin yenilənməsi nəzərdə tutulur.

Tədbirdə çıxış edənlər həyata keçirilən layihələrin Gəncə şəhəri üçün əhəmiyyətini vurğulayıb və layihələr icra olunarkən şəhərin tarixi xüsusiyyətinin də nəzərə alınmasını qeyd ediblər.

## Şəmkirdə xan çinar bağı

***Yaşıllıqların artırılmasına, ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Şəmkir Şəhər Mərkəzi Parkında keçirilən ağacəkmə aksiyasında torpaq-iqlim şəraitinə uyğun Xan çinarlarından yaşıllıq zolağı salınıb.***

Rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev bildirib ki, ümummilli lider Heydər Əliyev Azərbaycanın ekoloji problemlərinin həllini, nadir təbiət abidələrinin qorunub saxlanmasını daim diqqət



mərkəzində saxlayıb, ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə xüsusi qayğı ilə yanaşıb. Ağacəkmə iməciliyinin keçirilməsində məqsəd də ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, ümummilli liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdir.

Şəmkir Şəhər Mərkəzi Parkında cari ildə əsaslı abadlıq işləri görülüb, sakinlərin istirahəti üçün yeni imkanlar yaradılıb.

## Göygöldə göbələk yetişdirilir

***Göygöl rayonunun Üçtəpə kənd sakini Natiq Xudaverdili 2022-ci ildən “Veşenka” göbələyi yetişdirib satır. Hazırda bu işə 8 nəfər cəlb olunub.***

“Veşenka” göbələyinin yetişdirilməsində saman, kəpək və günəbaxan tumlarından istifadə olunur. Məhsul 25 günə ye-



tişir və respublikanın bütün bölgələrində satılır.

Müəssisənin illik istehsalı 35 tondur.

## Naftalanlı şəhid və qazi övladları Gəncədə

***Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə naftalanlı şəhid və qazi övladları 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində hazırlanmış proqram əsasında Gəncə şəhərinə səfər ediblər.***



Bayram günlərini daha rəngarəng etmək üçün əyləncəli proqram təşkil olunub. Uşaqlar "GəncLand" istirahət mərkəzində sirkdə olublar. “Yeni il macərası” adlı beynəlxalq sirk proqramında dünyaca məşhur sirk artistləri çıxış ediblər. Əyləncəli təlxək, akrobatlar, gimnastlar, ayı və tutuquşu nömrələri uşaqların marağına səbəb olub.

Valideynlər daim diqqətlə əhatə olunduqları üçün və göstərilən qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Ağdam şəhər mərkəzi yenidən qurulur

**Ağdam şəhərində 5 məhəllənin salınması nəzərdə tutulub. Bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib. Onun sözlərinə görə, Ağdamın əsas mədəni-tarixi mərkəzi hissəsində geniş layihələndirmə işləri yekunlaşmaq üzrədir: “Artıq tikinti proseslərinə başlanılıb. Açıq səma altında İşğal və Zəfər muzeyləri, Muğam Mərkəzi, mehmanxalanlar, daxili yol-küçə şəbəkəsi, məktəb və xəstəxana və digər infrastruktur 2026-ci ilin sonuna qədər tikilib təhvil veriləcək”.**

Biz Ağdamda olarkən şəhərin mərkəzində həyata keçirilən tikinti işləri ilə yaxından tanış olduq. İlk ziyarət etdiyimiz tikinti obyekti Ağdam şəhər 1 saylı orta məktəbi idi. Bu məktəb Qarabağ bölgəsinin ən qədim təhsil ocağı hesab olunur. Əsgər bəy Eyvazov tərəfindən 1883-cü ildə əsası qoyulub və Ağdamın aparıcı təhsil ocaqlarından biri sayılır. Onun məzunları arasında 200-dən çox elmlər namizədi, elmlər doktoru və professor var.



İşğal zamanı ikimərtəbəli məktəb binası tamamilə dağıdılıb. Əvvəlki təhsil ocağında 500 şagird təhsl alıb. Onun yerində isə 960 şagird yerlik yeni 3 mərtəbəli məktəb binası tikilib. Məktəbin həyətini gəzərkən bizə bildirdilər ki, bina 3 blokdan ibarətdir və 2 hektar ərazidə inşa edilib. Onun 40 sinif otağı, laboratoriya və fənn kabinələri, akt və idman zalları, kitabxana, yeməkxana, muzey, xidməti otaqları var. Məktəbdə təhsil üçün hər cür şərait, bütün texniki imkanlar olacaqdır. Burada tikinti işlərinin yüksək keyfiyyətlə, tikinti normalarına uyğun şəkildə aparıldığının şahidi olduq.

Ağdam şəhər mərkəzində tikintisi həyata keçirilən binalardan biri də Ağdam Muğam Mərkəzidir. Mərkəz Qiyaslı kəndinə gedən yolun kənarında yerləşir. Tikinti meydanında görülən işlər Mərkəzin nəzərdə tutulan vaxtda istifadəyə veriləcəyindən xəbər verir.

Qeyd edək ki, Ağdam rayonunda Muğam Mərkəzinin inşası işğaldan azad olunmuş ərazilərimizdə digər sahələr kimi, mədəniyyətin də sürətlə dirçəldilməsi istiqamətində ardıcıl işlərin görüldüyünü göstərir. Mərkəzin muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından müstəsna əhəmiyyəti olacaq. Bu səbəbdən də onun tikintisi təqdirəlayiqdir və dövlətimizin mədəni irsimizə verdiyi qayğının nəticəsidir. Muğam mərkəzinin tikinti işlərinin yekunlaşması 2024-cü ilin sonuna nəzərdə tutulub.

Ağdam şəhər mərkəzində olarkən diqqətimizi geniş bir sahə çəkdi. Ərazidə olan Bəhruz Rüstəmov bildirdi ki, bu ərazidə İşğal və Zəfər muzeyləri yaradılacaq. Onların arasında açıq səma altında 18 hektarlıq Memorial bağ olacaq. Memorial bağda xarabalıqlar, dağıdılmış binalar saxlanılacaq. Onları olduğu kimi qorunacaq və gələcək nəsillər bu tariximizi unutmasın, mənfur düşmənin xalqımızın başına gətirdiyi faciələri bilsin. Eyni zamanda, bu xarabalıqlar hər kəsə müharibənin nə qədər acı nəticələrə gətirib çıxardığını anladacaq. Ərazidəki muzeylərdə isə müharibənin törətdiyi faciələr və 44 günlük müharibədə qazandığımız qələbə barədə geniş məlumat veriləcək.

***P.ƏFƏNDİ***
***XQ***

28 Dekabr Beynəlxalq Kino Günü

# "Bu kino ki var..."

## *Azərbaycanın da dəyərli filmləri az deyil*

**1895-ci ilin bu günü idi. Lui və Oqyust Lümyerlər Parisdə balaca bir kafedə ilk dəfə özlərinin çəkdikləri qısametrajlı filmlərin pullu nümayişini təşkil etmişdilər. Qardaşlar camaatı ora əyləncə xatirinə yığmışdılar və ağıllarına da gəlmirdi ki, bununla dünyada kinonun tarixini yazırlar. Amma elə oldu və bəşəriyyətin kino sevgisi "xroniki" hal aldı.**




O zaman kino hələ danışa bilməyən "uşaq" idi və mənzərələrə, müşahidələrə, jestikulyasiyaya üstünlük verirdi, sonradan dil açdı. İndi dünyanı kinosuz, videosuz təsəvvür etmək mümkün deyil.

Fransada keçirilmiş ilk kinoseansdan cəmi 2 il yarım sonra – 1898-ci il avqustun 2-də Bakıda elmi-foto dərnəyinin katibi, fotoqraf Aleksandr Mişon özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərini nümayiş etdirib.

Kinoşünas Aydın Kazımzadənin bildirdiyinə görə, ötən əsrin əvvəllərində "Pate", "Pirone", "Filma" kimi xarici kino şirkətləri Bakıda filiallarını açaraq film istehsalı ilə məşğul olublar. 1916-cı ildə yazıçı İbrahim bəy Musabəyovun eyniadlı povesti əsasında "Neft və milyonlar səltənətində", 1917-ci ildə isə Üzeyir Hacıbəylinin operettası əsasında "Arşın mal alan" qısametrajlı bədii filmləri çəkilib. Ulu öndər Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli sərəncamı ilə 2 avqust Azərbaycanda kinonun yaranma günü kimi rəsmiləşib. Bu il milli kinomuzun 125, "Azərbaycanfilm" kinostudiyasının isə 100 yaşı qeyd edilir.

İndiyədək "Azərbaycanfilm"də müxtəlif növ və janrda 2 mindən çox film istehsal olunub. Ümummilli lider daim xalqımızın canlı salnaməsi hesab etdiyi kinonun inkişafına diqqət göstərib. Prezident İlham Əliyev kino incəsənətinə əməli qayğısı ilə onun ölkə hüdudlarını aşmasına münbit şərait yaradıb.

Böyük tərəqqi yolu keçən "Azərbaycanfilm"in istehsalı olan "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "Sevinc buxtası", "İstintaq", "Yaramaz" və başqaları Dövlət mükafatlarına, bir çox filmlər, o cümlədən "Ögey ana", "Uzaq sahillərdə", "Arşın mal alan", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü", "Nabat", "Axınla aşağı" və digərləri beynəlxalq kinofestivalların mükafatlarına layiq görülüb.

Sona yetməkdə olan 2023-cü ilin aprel ayında Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə "Azərbaycan Kinosu – 125. Reallıq, çağırışlar və hədəflər" mövzusunda Kino Forumu keçirilib. Milli kinomuzun keçdiyi inkişaf yolu hərtərəfli sərf-nəzər edilib, reallıq, çağırış və hədəflərdən danışılıb. Azərbaycan kinemotoqrafiyası təcrübəsinin beynəlxalq müstəvidə tanınması, həm də bu sahədə yeni bir iqtisadi fəallığın və stimullaşdırmanın təmin edilməsi baxımından Forumun çox böyük əhəmiyyət daşıyacağına ümid ifadə olunub. Qeyd edək ki, sözügedən böyük kinoşünaslıq tədbirində aparılan müzakirələr əsasında toplanan təkliflər "Azərbaycan mədəniyyəti 2020–2040 dövlət strategiyası" ilə bağlı tərtib edilən tədbirlər planında nəzərə alınacaq.

Nəhayət, xatırladaq ki, son 10 ildə ölkəmizdə dövlət büdcəsindən ayrılmış vəsait hesabına 50-dək tammetrajlı və bir o qədər də qısametrajlı bədii, 200-dən artıq sənədli, təxminən, bunun 10 faizi qədər də cizgi filmi çəkilib. Sənətçilərimiz dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq film festivallarına indi daha böyük həvəslə qatılır və mükafatlar qazanırlar.

Milli kinomuzun dünyaya inteqrasiyası, vaxtaşırı Bakının Kann, Venesiya, Berlin festivallarında, "OSKAR"da uğur qazanmış filmlərin nümayiş məkanına çevrilməsi də təcrübə baxımından nikbin notlar yaradır. Eyni zamanda, Xalq artisti, rejissor Oktay Mirqasımın da vurğuladığı kimi, kino sahəsində universal və əbədi dəyərlərin qorunmasının vacibliyini önə çəkmək lazımdır. Kinoteatrlarda nümayiş olunan filmlərin milli xüsusiyyətlərə uyğunluğu artırılmalıdır.

***Əli ƏLİYEV***
***XQ***

Borçalıda dostluq görüşü

# Ulu öndər və milli həmrəylik ideyasının təntənəsi

**Gürcüstanın Marneuli şəhərində "Heydər Əliyev İli"nin yekunlarına və Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan–Gürcüstan mədəni əlaqələri" adlı mərasim keçirilib.**



"Türk Ağsaqqallar İctimai Birliyi" (TAİB) və Marneulidəki "Çay evi" Təhsil və İnkişaf Mərkəzinin birgə təşkilatçılığı, Azərbaycanın Gürcüstandakı səfirliyinin dəstəyi ilə reallaşan tədbirdən öncə şəhərdəki Mədəniyyət Mərkəzində Ulu öndərin həyat və fəaliyyətini əks etdirən elektron fotosərgiyə baxış olub.

Azərbaycanın Gürcüstandakı səfirliyinin müşaviri Eldar Bayramov çıxış edərək Heydər Əliyevin həyat və fəaliyyəti barədə geniş məlumat verib. Vurğulayıb ki, müasir Azərbaycan və Gürcüstan dostluğu və qardaşlığı da məhz Ümummilli liderin adı ilə bağlıdır. "Təhsil və İnkişaf Mərkəzi"nin direktoru Emin Əhmədov soydaşlarımızı qarşıdan gələn Yeni İl və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edib.

Qonaqlar – "Türk Ağsaqqallar İctimai Birliyi"nin sədri, akademik Südeyf İmamverdiyev, Əməkdar jurnalisti Telli Pənahqızı, tarixçi alim, akademik Sabir Tağıyev Azərbaycan dövlətinin inkişafında və dünya ölkələri sırasında layiqli yer tutmasında Ümummilli liderin xüsusi xidmətləri barədə danışıblar. Tədbir çərçivəsində gürcü tarixçi alim, politoloq Quram Marxuliyaya Turan Elmlər Akademiyasının akademiki fəxri adı təqdim olunub. Gürcüstan Mədəniyyət Akademiyası İcraiyyə Şurasının sədri, Gürcüstan Sosial Elmlər Akademiyasının akademiki Şota Maqlakelidze Ulu öndərlə bağlı xatirələrini bölüşüb.

Tədbir bədii hissə ilə davam edib.

***Nizami MƏMMƏDOV***
**Gürcüstan, Marneuli**

# Parlaq ömrün hekayələri



**Mil-Muğan Regional Mədəniyyət İdarəsinin dəstəyi, Sabirabad Rayon Mərkəzləşdirilimiş Kitabxana Sisteminin təşkilatçılığı ilə Əməkdar mədəniyyət işçisi, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi işlər üzrə direktor müavini Zahirə Cabirin Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr etdiyi "Böyük azərbaycanlı" adlı hekayələr kitabının təqdimat mərasimi keçirilib.**

Mərasimdə Mil-Muğan Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı, Sabirabad Rayon İcra Hakimiyyəti başçısının 1-ci müavini Həsən Həsənov, mədəniyyət işçiləri və məktəblilər iştirak ediblər. Çıxış edənlər kitabın ideya-bədii məziyyətlərindən söz açıblar. Bildirilib ki, Ulu öndərin parlaq ömrü və fəaliyyəti ilə bağlı hekayələr milli liderin parlaq obrazını kiçikyaşlı oxuculara anlatmaqda dəyərli mənbədir. Mərasimdə məktəblilər ölməz rəhbərə həsr olunmuş müxtəlif şeirlər səsləndiriblər.

Sonda müəllif kitab üzərində yaradıcılıq işindən danışıb, yeni nəşrin nüsxələrini "Hophopnamə" Kitab Mərkəzinə və Sabirabad Rayon Mərkəzi Kitabxanasına təqdim edib.

***XQ***

"Xalq TV"-nin qonaqları

# Ağsaqqalla söhbət

## *Əməkdar jurnalist İlyas Adıgözəllinin xatirələr aləmi*

**Əvvəla, İlyas müəllim, həqiqətən, xoşbəxt müdir imiş. Çünki "onun əlinin altında" çalışmış jurnalistlərin hamısı, təbii ki, bu gün yaşayanlar, daim onu axtarır, görmək, salam vermək, haqqında nə isə yazmaq, danışmaq istəyirlər. Bu müdrik insan həm Dövlət Radiosunun Xəbərlər baş Redaksiyasının Baş redaktoru (orada çox vəzifələrdə çalışıb) vəzifəsində çalışdığı illərdə, həm də "Araz" radiosunun rəhbəri olduğu dövrdə həmişə, hamının sevimli dostu, mehriban həmkarı olub. Mən onunla birlikdə işlədiyimiz altı ilə yaxın müddətdə kimisə incitdiyini görməmişdim. Doğrudur, efir üçün hazırlanan materiallara qarşı olduqca tələbkar idi. Ancaq səhvlərimizi elə deyirdi ki, guya, heç nə olmayıb.**

İkinci, onun haqqında yazanda və ya danışanda "Bismillah!"dan sonra dərhal haşiyə çıxmamaq olmur. Necə ki, mən indi eləyəm. Bir dəfə yazmışdım ki, uşaqlıq illərində ən çox sevdiyim təbiət hadisəsi "Peyğəmbər qurşağı"nın görünməsi və yox olması idi. Biz o vaxtlar göyqurşağını elə adlandırırdıq. Hər dəfə yağışdan sonra səmanın buludsuz tərəfindəki həmin möcüzənin yox olmasına edirdim. O rənglər tamamilə əriyib gedənə qədər dayanıb daha nələrinsə baş verəcəyini gözləyirdim... Amma heç nə baş vermirdi. Yeddi yaşımda da elə idim, yetmiş yaşımda da eləyəm. Həmişə rənglərin yaratdığı əsrarəngizlikdən, möcüzəyə bənzər anlardan nə isə gözləyirəm... və heç nə baş vermir. İndi – "Xalq TV"nin studiyasında da həmin göyqurşağını gördüm. Xatirələrdən ibarət, möhtəşəm bir göyqurşağı idi. Ancaq bu "göyqurşağını" küləklər yox, Fikrət Adıgözəlli gəlib apardı.

... Həmişəki kimi, yenə də baş verən ancaq ruhun təzələnməsindən və yaddaşın çözülmək bilməyən düyünlərinin növbəti dəfə dartılıb bərkiməsindən ibarət oldu. Fərq ondadır ki, indi göyqurşağına baxıb donuq, dinməz qalmıram. İndi xatirələr mənim üçün "Peyğəmbər qurşağı" olur. Özü də daha çalarlı, daha gectükənən.

Üçüncü, mətbuatdakı ilk himayədarlarımdan olan Nahid Hacızadənin "Yada düşdü" kitabını oxuyanda da elə olmuşdum, Dilarə Vəkilova ilə Əlövsət Başirlinin birgə ərsəyə gətirdikləri "Bizim dünya" kitabının çoxrəngli, çoxsəsli və çoxmərtəbəli təəssüratlarının əsrarəngiz sehrinə düşəndə də. Elə İlyas Adıgözəllinin Borçalının Sadaxlı kəndindən başlayaraq, bugünkü ünvana – Bülbül prospekti 30-a gələnədək keçdiyi yolların cüzi bir hissəsinə məhz onun öz söhbəti vasitəsilə şahidlik edəndə də eyni əhvalı yaşadım. Səssiz və hərəkətsiz, eynilə göy qurşağına baxdığım kimi. Gözümün önünə nələrin gəldiyini yaza bilirəmmi ki... Mümkün deyil. Özü də canlı təmasla, daha çox xatirələrin çözülməsi və yaşın xeyli artmasına görə daha kövrək hisslərlə.

Etiraf edim ki, mətbuata gəlişində, yolda və ümumən bu sahədəki qırx ilə yaxın fəaliyyətimdə himayədarlarım çox olub. "Qalibiyyət" (indiki adı "Qəbələ"dir) qəzetinin redaktoru Ramazan İsmayılov, orada çalışan şair Tacəddin Şahdağlı, sonralar Nahid Hacızadə, Ələkbər Abbasov, Dilarə Vəkilova, Məmməd İsmayıl, Babək Hüseynoğlu, Mailə Muradxanlı, İlyas Adıgözəlov, Hidayət Səfərli, Şamil Məcidov, Mövlud Süleymanlı, Heydər Zeynaloğlu, Zərxanım Əhmədli... Mahal İsmayıloğlu, Məmməd Nazimoğlu kimi səs-söz sahiblərinin qayğısını görməyim də həyatımda özünəməxsus izlər qoyub, dəyərli xatirələrə çevrilib. Ancaq insaf naminə deməliyəm ki, İlyas müəllimin adı bu siyahıda xüsusi şriftlərlə yazılanlardandır.

Dördüncü, ustad studiyamızda Borçalıdan Bakıya gəldiyi illərdə dolanacaq baxımından çətinliklərlə üzləşməsindən, müxtəlif qəzetlərə yazı göndərib qonorar almasından, hələ tələbəlik illərində indi qonağı olduğu redaksiyaya on dəfələrlə gəlməsindən, burada onun yazılarına diqqətlə yanaşılmasından, görkəmli müəllimi Şirməmməd Hüseynovun onun da oxuduğu qrupa "Super qrup" adı verməsindən ( həmin qrupun məzunlarından Ələkbər Abbasovun, Dilarə Vəkilovanın, Namiq Abbasovun, Yusif Kərimovun və başqa ondan çox tanınmış qələm sahiblərinin adını çəkdi), tələbəlik illərindən sonra "Abşeron" qəzetində çalışmasından, sonra yolunun dövlət radiosuna düşməsindən, oğlu – mətbuatımızda bir ailədə iki Əməkdar jurnalistin olması nümunəsini yaratmış Fikrət Adıgözəllinin püxtələşməsi üçün göstərdiyi prinsipiallıqdan... çox məsələlərdən danışdı.



Məni məmnun edən əsas fakt isə İlyas müəllimin həm tələbəlik illərindəki dost-yoldaşları, həm də sonrakı yarıməsrlik fəaliyyət dövründəki həmkarları haqqında danışarkən nümayiş etdirdiyi səmimiyyət və sədaqət oldu. İlk dəfə idi ki, hansısa həmsöhbətim hamıdan razı olduğunu dilə gətirirdi.

Beşinci, xatırlatdım ki, mən 1995-ci ildə Füzuli rayonundan olan bir məcburi köçkünü öz verilişimə dəvət etmişdim. Çadır şəhərciyində yaşayan həmin soydaşımız verilişin yazılması zamanı "mənim" dinləyicilərimi inandırmaq istəyirdi ki, Azərbaycan dövləti o torpaqları ermənilərdən ala bilməyəcək. O zaman İlyas müəllim demişdi: "A kişi, bu dövlətin rəhbərliyinə Heydər Əliyev gəlibsə, sən öz torpaqlarının işğaldan azad edilməsini görəcəksən. Allah o günü mənə də göstərsin!"

"Xalq TV"nin studiyasında İlyas Adığzəlliyə həmin faktı da xatırlatdım. Bu sətirləri məhz həmsöhbətimin həmin mövzu ətrafında danışdığı fikirlərdən bəziləri ilə tamamlayıram: "Bəli, torpaqlarımızın işğaldan azad ediləcəyinə inanmayanlar az deyildi. Ancaq inananlar daha çox idi. Mən ona görə inanırdım ki, Heydər Əliyevin siyasi uzaqgörənliyinə bələd idim. Ulu öndərin özü torpaqlarımızı azad edə bilmədisə də, onun siyasəti, strategiyası, məktəbi, ən başlıcası, siyasi varisi olan cənab İlham Əliyev xalqımıza və dövlətimizə möhtəşəm uğurlar qazandırdı, düşmənə diz çökdürdü, yurdlarımızı işğaldan azad etdi. Ona görə də həm ölkəmizdəki, həm də beynəlxalq aləmdəki soydaşlarımızın hamısı "Heydər Əliyev ili"ni mütəşəkkilliklə qeyd etdilər. Mən fəxr edirəm ki, oğlum Fikrət Adıgözəlli bu il idman jurnalisti kimi Ulu öndərin idman siyasətinə həsr edilmiş bir neçə mükəmməl veriliş ərsəyə gətirmişdir".

***İttifaq MİRZƏBƏYLİ,***
***Foto Cavid QAÇAYEVİNDİR***
***XQ***

Replika

# Havayı reklam lövhələri – dayanacaqlar?!



**Paytaxt Bakıda, eləcə də Gəncə, Sumqayıt, Mingəçevir və digər şəhərlərdə əlaqədar qurumlar geniş abadlıq işləri aparırlar. Sakinlər də bu işlərə öz töhfələrini verməli, ən azı, səliqə-sahmanı qorumalı, şəhərlərin estetik görkəminə xələl yetirməməlidirlər.**

Təəssüf ki, bəzən bunun əksi ilə rastlaşırıq. Məsələn, avtobus dayanacaqlarında "Kirayə ev", "İşçi axtarılır", "Dayə lazımdır", "Torpaq satılır" və digər belə elanlara tez-tez rast gəlinir. Məsələ burasındadır ki, dayanacaqlarda reklam və elanları yapışdırmaq üçün müəyyən hissələr ayrılıb və bunun üçün ödəniş etmək tələb olunur. Amma bundan yayınan şəxslər necə gəldi, elan çap edərək, bəsit şəkildə dayanacaq şüşələrinə vururlar. Ala-bula elanlar solur, cırılır, üst-üstə yapışdırılır, görüntüyə maneə törədir. Onsuz da xırda ticarət köşklərinin bərbad hala saldığı dayanacaqlar bir az da pinti məkana çevrilir. Hələ biz belə mənzərələrin qonaqlarda necə xoşagəlməz təəssürat yaratdığını demirik.

Xatırladaq ki, "Reklam haqqında Azərbaycan Respublikası Qanunu"nda açıq məkanda reklamla bağlı tələblərin pozulmasına görə fiziki şəxslər üçün 300–500 manat, vəzifəli şəxslər üçün 1500–2min 500 manat, hüquqi şəxslər üçünsə 5min–10 min manat cərimə nəzərdə tutulub.

Hər kəs bilməyə borcludur ki, reklam istehlakçısının diqqətini bu cür eybəcər üsullarla cəlb etmək tamamilə yolverilməzdir. Qanunun icrasına nəzarət etməli olan qurumlar da vəzifə borclarına daha məsuliyyətli yanaşmalı, dayanacaqların havayı reklam lövhələrinə cevrilməsinə göz yummamalıdırlar.

***Ə.DOSTƏLİ***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Rusiya–Ukrayna müharibəsi: “Görək kim-kimi yordu...”

**Rusiya–Ukrayna müharibəsi özünün ən gərgin dövrünə qədəm qoyub. Son günlər olduqca geniş ərazi boyu uzanan cəbhənin bütün təmas xətti boyu döyüşlər intenvsiv xarakter almağa başlayıb. Görünən budur ki, hər iki tərəf Yeni il ərəfəsində kiçik də olsa, qələbə qazanmağa cəhdlər edir.**



UNİAN agentliyi xəbər verir ki, hazırda ən gərgin vəziyyət Donetsk vilayətinin Marinka yaşayış məntəqəsi ətrafında yaranıb. Rusiya mühüm strateji əhəmiyyət kəsb edən bu şəhəri artıq ələ keçirdiyini iddia edir. Ukrayna rəsmiləri bunu təkzib edirlər və orada hələ də amansız döyüşlərin getdiyini bildirirlər.

Dünən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Aleksey Danilov bildirib ki, Marinka şəhərinin bir hissəsi onun həmvətənlərinin nəzarətindədir. O, həmçinin ağır bombardmanlar nəticəsində şəhərdə bir dənə də olsun salamat bina qalmadığını vurğulayıb. Danilovun sözlərinə görə, Marinkada dağıntılar Baxmutda olduğundan da çoxdur.

Bu arada Ukrayna Silahlı Qüvvələrinin “Tavriya” əməliyyat-strateji qoşun qrupunun komandiri, general Aleksandr Tarnevski BBC-yə müsahibəsində bildirib ki, 2024-cü il Ukrayna üçün daha çətin il ola bilər. Onun sözlərinə görə, mövcud resurslar müharibəni dabam etdirmək üçün kifayət deyil: “Kiyevə döyüş meydanında uğur qazanmaq üçün əlavə qüvvələr və vasitələr lazımdır”.

A.Tarnevskinin fikrincə, ərazilərin minalarla “bol olması” da əks-hücum əməliyyatlarına mənfi təsir edir: “Rusiya dünyanın ən güclü ordularından birinə malikdir. Onun müdafiəsi bir yox, bir neçə xətdən ibarətdir. Qarşı tərəf bu müdafiə xətlərini bir ayda deyil, bizim hücum hərəkətlərinə hazırlaşdığımız dövrdə yaradıb”.

Xatırladaq ki, Rusiya ilə Ukrayna arasında genişmiqyaslı müharibə ötən il fevralın 24-də başlayıb. Ukrayna bu ilin iyunundan geniş əks-hücum əməliyyatları keçirir. Lakin bu məqsədlə aparılan döyüşlər gözləntiləri doğrultmayıb. Bəzi mənbələr müharibənin hətta illərlə davam edəcəyini ehtimal edirlər.

Hazırda bu dağıdıcı müharibənin nə vaxt bitəcəyini proqnozlaşdırmaq çox çətindir. Tərəflər güzəştə getmək barədə danışmaq belə istəmirlər. Rəsmi Kiyevin mövqeyinə görə, Ukraynanın ərazi bütövlüyü tam təmin olunmadan müharibə başa çatmayacaq. Moskva da öz hərbi planlarında israrlıdır.

Lakin son aylar Qərbin Ukraynaya hərbi və maliyyə dəstəyi azalmağa başlayıb. Məlumdur ki, ABŞ Senatı Ukrayna üçün 61 milyard dollarlıq yardım paketinin müzakirəsini növbəti ilə saxlayıb. Silah-sursat sarıdan da Kiyevin çətinlikləri yaranıb.

Ukrayna Prezidenti Volodimir Zelenski bir müddət əvvəl bildirmişdi ki, Qərb dəstəyi dayandırsa, ölkəsi geri çəkiləcək. Bu bəyanat daha çox xəbərdarlığa bənzəyir. Bunu nəzərə alaraq, Avropa İttifaqı (Aİ) Ukraynaya 20 milyard avro məbləğində maliyyə yardımı göstərmək üçün ehtiyat plan hazırlayır. Bu barədə nüfuzlu “Financial Times” qəzeti bir çox etibarlı mənbələrə istinadən məlumat yayıb.

Məqalədə, həmçinin qeyd olunur ki, Macarıstanın Baş naziri Viktor Orbanın dekabrın ortalarında Aİ-nin sonuncu sammitində 2024–2027-ci illər ərzində Ukraynaya 50 milyard avro ayrılmasını nəzərdə tutan icmal büdcəsinə düzəlişin qarşısını almasından sonra bu istiqamətdə yeni maliyyə variantları axtarılır. Bunun üçün isə müəyyən vaxt lazımdır.

Yeri gəlmişkən, müzakirə olunan yeni sxem Aİ üzvlərinin qurumun büdcəsinə maliyyə zəmanəti verməsini nəzərdə tutur ki, bu da Avropa Komissiyasına (AK) Kiyev üçün kapital bazarlarından 20 milyard avro borc almağa imkan verəcək. Bu sxemin əsas üstünlüyü ondan ibarətdir ki, o, Aİ-nin bütün üzvlərinin razılığını tələb etmir, yəni, Budapeştdən yeni veto riskini aradan qaldırır.

Bununla belə, “Financial Times” nəşri qeyd edib ki, Almaniya və Niderland kimi bəzi ölkələrin bu cür zəmanətlər vermək üçün parlamentin təsdiqinə ehtiyacı olacaq. Bu planla bağlı qərar hələ fevralın 1-də keçiriləcək sammitdə verilə bilər və Brüssel ümid edir ki, vəsait 2024-cü ilin martına qədər Kiyevə çatmalıdır.

Göründüyü kimi, Ukraynanın yaxın günlər və həftələr ərzində əlavə maliyyə yardımları əldə etmək imkanları məhduddur. Müharibədə isə hər saat, hər gün böyük vəsaitlər xərclənir. Napoleon deyirdi ki, hər bir müharibəni udmaq üçün üç şey tələb olunur: pul, pul və yenə də pul!

Bir çox ekspertlərin fikrincə, Rusiya–Ukrayna müharibəsinin nəticəsini resurslar müəyyən edəcək. Hansı tərəfin hərbi və əsgəri resursları çoxdursa, təbii ki, onun uğur qazanmaq şansı da böyükdür. Rusiyanın, yoxsa Ukraynanın resursları daha tez tükənəcək? Bu məchulun cavabını isə əlahəzrət Zaman verəcək!

***P.ƏFƏNDİ,***
***M.HACIXANLI***
***XQ***

## Su-57-lərə sifariş artıb

**2023-cü ildə beşinci nəsil Su-57 qırıcıları üçün dövlət müdafiə sifarişi 2 dəfə artıb. TASS xəbər verir ki, bunu "Rossiya 24" telekanalına müsahibəsində Birləşmiş Aviasiya Korporasiyasının rəhbəri Yuri Slyusar bildirib.**

O, korporasiyanın dövlət müdafiə sifarişini yerinə yetirdiyini, məhsulları vaxtında təhvil verdiyini vurğulayıb. Eyni zamanda, korporasiyanın bəzi zavodları cədvəli qabaqlayıb.

“Bütün fabriklərdə sifarişlərimiz xeyli artıb. Yeni təyyarələrə gəlincə isə Su-57 təyyarələrinin sifarişi sözün həqiqi mənasında iki dəfə artıb”, – deyə Slyusar vurğulayıb.

Onun sözlərinə görə, Su-57 istehsalı çətin təyyarədir, lakin korporasiya onu sifarişçiyə çatdıra bilib. Korporasiya rəhbəri əlavə edib ki, 2024-cü il üçün sifariş daha böyükdür.

Sentyabrda məlum olub ki, Qaqarin adına Komsomolsk-na-Amure Aviasiya Zavodu növbəti seriyalı Su-57 qırıcılarını və Su-35S nəsil 4++ təyyarələrini Rusiya Müdafiə Nazirliyinə təhvil verib.

***XQ***

## “AZƏRİŞIQ” ASC

Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə aid tələblər proqramına əsasən pivot suarma tətbiq edilmiş və ərzaqlıq buğda əkilmiş sahələrin xarici elektrik təchizatının təmin olunması işlərinin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir:

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

LOT-1

Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə aid tələblər proqramına əsasən pivot suarma tətbiq edilmiş və ərzaqlıq buğda əkilmiş sahələrin xarici elektrik təchizatının təmin olunması işlərinin satın alınması.

İştirak haqqı 1500 manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Təşkilat– “Azərişıq” ASC
H/h: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
Əlaqələndirici şəxs Namik Heybətovdur.
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
Ünvan: AZ1009, Bakı şəhəri, M.Əliyev küçəsi 130.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə; (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir.)
4. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir.)
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir.)
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
7. İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir).
8. İddiaçının mikro, kiçik , orta və ya iri sahibkarlıq subyektlərinə aid olması barədə sənəd.
9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki).
10. İddiaçının son 3(üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar və analoji işlərdə təcrübəsi haqqında məlumat.
11. Dövlət sifarişi əsasında baş podratçı qismində iştirak etdiyi ən azı 1 ( beş milyon manatdan az olmamaqla) layihəni uğurla icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər təqdim edilməlidir.
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə sənədi.
14. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).

Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 5 fevral 2024-cü il saat 15.00-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14 fevral 2024-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olnan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 fevral 2024-cü il saat 15.00-da Bakı, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***“AZƏRİŞIQ” ASC-NİN***
***tender komissiyası***

İdman



# Voleybol: 2023-ün yekunları

## Faiq Qarayev baş məşqçiliyində qaldı

**Azərbaycanda hələ XX əsrin ortalarından məşhurlaşmağa başlayan voleybol bu günümüzdə də sevilir və populyarlığını artırır. Xüsusən qadın voleybolunun ölkəmizdə inkişafını vurğulamaq lazımdır. Təsadüfi deyil ki, dünyada ilk və 4 dəfə Olimpiya mükafatçısı olan voleybolçu məhz Azərbaycan voleybol məktəbinin yetirməsi olan İnna Rıskaldır. Bu inkişaf müstəqillik illərində də davam edib.**

Dekabrın 27-də Azərbaycan Voleybol Federasiyasının (AVF) 2023-cü ildəki fəaliyyətinə həsr olunmuş mətbuat konfransında müstəqillik illərində voleybolun inkişafından danışılıb, ölkəmizdə bu idman növünə olan böyük maraqdan söhbət açılıb.

Azərbaycan Gənclər və İdman naziri Fərid Qayıbov AVF-dəki son dəyişikliklərdən sonra sonra qısa müddət ərzində bu idman növünün inkişafı istiqamətində çoxlu işlərin görüldüyünü bildirib. “Xarı Bülbül” komandasının üzləşdiyi maliyyə problemi barədə danışarkən nazir qeyd edib ki, nazirlik hansısa kluba birbaşa dəstək göstərə bilməz. O, eyni zamanda deyib ki, Azərbaycanda klubların sayının artması üçün çalışmalıyıq.

Nazir 2023-cü ilin bizim üçün uğurlu olduğunu vurğulayıb:

– Yeni ilə yaxşı nəticələrlə gedirik. 30 ildən sonra Xankəndidə təşkil olunan futbol yarışı ilin ən vacib idman tədbiri idi. Bu il bizim üçün çox uğurlu oldu və burada voleybolçularımızın da payı var.

Tədbirdə müxtəlif vaxtlarda yığmanın “sükanı arxasında” olan Faiq Qarayevin yenidən voleybol üzrə qadınlardan ibarət Azərbaycan yığmasının baş məşqçisi vəzifəsinə təyinatı açıqlanıb. Azərbaycan Voleybol Federasiyasının prezidenti Şahin Bağırov təcrübəli mütəxəssisin ən azı 2026-ci ilə qədər yığmada baş məşqçilik edəcəyini deyib. Qurum rəsmisi voleybolun inkişafı üçün görülən işlər sayəsində yaxın 2-3 il ərzində yeniyetmələr arasında voleybola həvəsin artacağına legionerlərin sayının azalacağına ümid etdiyini bildirib:

–Bakıda və regionlarda bir sıra seleksiya işləri aparılıb. Bu idman növü ilə məşğul olan, müvafiq normalara uyğun 150-yə yaxın qız və oğlan seçilib. Bütün bunlar uşaq voleybolunun da inkişafı üçün vacib addımlardır.

Faiq Qarayev 2024-cü ildə voleybolda məşqçiliyinin 40 ilinin tamam olacağını bildirib. O qeyd edib ki, voleybol həmişə yüksəklərdə olub və o, hazırda gedən deqradasiya prosesləri kənardan izləyə bilməzdi:

– Bu təklifi qəbul edərkən çox fikirləşdim. Şərəfli və məsuliyyətli işdir. Voleybolda durğunluq hökm sürür ki, bunun da bir sıra səbəbləri var. Məndən soruşurlar ki, voleybolda yeni uğurlarımız nə vaxt olacaq. Baş məşqçi postuna seçiləndə qarşıma məqsəd qoydum ki, bu idman növünü inkişaf etdirməliyik. Geriyə yol yoxdur, ancaq irəli baxmalıyıq.

Bundan əvvəl yığmaya rəhbərlik edən türkiyəli Ataman Güneyligili əvəz edən 64 yaşlı mütəxəssis voleybol klublarının fəaliyyətinin dayandırılmasına da münasibət bildirib:

– Bu günə kimi 10-11 komanda fəaliyyətini dayandırıb. Belə olmasaydı, Azərbaycanda xeyli sayda voleybol klubu olardı. Baş məşqçi klubların 80-90 faiz “yükü”nün federasiyanın üzərində olduğunu da qeyd edib. Klubların sayını artırmaq əsas məqsədlərdəndir. Hazırda 11-12 voleybolçumuz xaricdə çıxış edir və onları geri qaytarmaq lazımdır.

***L.QURBANOVA***
***XQ***

## İsrail “Intel”dən 16,6 milyard dollar alacaq

**“Intel” rəsmi Təl-Əvivdən 3,2 milyard dollarlıq güzəşt aldıqdan sonra İsrailə, ümumilikdə, 25 milyard dollar sərmayə qoyacağını təsdiqləyib. Bu barədə “Bloomberg” məlumat yayıb.**



Vəsaitlər “Intel”in İsraildə yarımkeçirici istehsalını genişləndirmək üçün istifadə olunacaq. Xüsusilə, Amerika İT nəhəngi Kiryat Qatda yeni çip istehsalı zavodu tikmək niyyətindədir. Müəssisə minlərlə yeni iş yeri ilə təmin olunacaq. Şirkətin İsrail bölməsində hazırda 11,7 min nəfər çalışır.

İsrail hökuməti “Intel”dən yeni zavodu 2028-ci ilə qədər işə salmağı və onu, ən azı, 2035-ci ilə qədər dəstək göstərməyə xahiş edib. “Intel” növbəti on il ərzində İsrail təchizatçılarına 60 milyard şekel (təxminən, 16,6 milyard dollar) xərcləməyi vəd edib.

İsrail Maliyyə Nazirliyi “Intel”in investisiyasını ölkədə fəaliyyət göstərən bütün ticarət müəssisələri arasında tarixdə ən böyük investisiya adlandırıb.

***XQ***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki idarələr üçün polad təbəqələrin və ikitavrların satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 12-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.
Ünvan: Bakı, M.Useynov küçəsi 2.

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki idarələr üçün dizel generatorlarının satın alınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 11-i saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.
Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 285 (30401) 28 dekabr 2023-cü il, cümə axşamı

İdman xəbərləri

## AFFA-da onlayn seminar

**AFFA-nın Klubların Lisenziyalaşdırılması Departamentinin əməkdaşları tərəfindən ikinci onlayn seminar təşkil olunub.**

Klublarda çalışan azarkeşlərlə əlaqələndirici şəxslər və əlil azarkeşlərlə əlaqələndirici şəxslər üçün keçirilən seminarda Azərbaycan Premyer Liqasının XVI və XVII turlarında keçirilmiş oyunlarında fanatlarla bağlı təşkilati məsələlər zamanı görülmüş işlər barədə müzakirələr aparılıb.

Tərəfdarlarla əlaqələndirici şəxslərin fəaliyyəti üçün faydalı materiallar paylaşılıb.

## Kikboksçu mükafatçılar

**31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş kikboksinq üzrə kadetlər arasında muxtar respublika birinciliyi keçirilib.**



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "XQ"yə bildiriblər ki, yarışda 2 yaş kateqoriyasında 60 idmançı 14 çəki dərəcəsi üzrə mübarizə aparıb.

Nəticələrə əsasən, 6–8 yaş kateqoriyasında Cahangir Abdullayev (20 kq), Mircəlal Seyidov (22 kq), Yusif Qasımov (24 kq), Murad Məmmədli (26 kq), Nəsir Əliyev (30 kq), Xeyal Quliyev (30+ kq) qalib olublar. Adəm Cəfərov (26 kq), Məhəmməd Seyidov (28 kq), Uğur Nurməmmədli (30 kq), Mövlan Seyidov (32 kq), Tunar Abdullayev (37 kq), Xəyal Seyidov (42 kq) və Ayxan Oruczadə (42+ kq) isə 9-10 yaş kateqoriyasında 1-ci yeri tutublar.

## Ağırlıqqaldırma: yeni məşqçilər

**Ağırlıqqaldırma üzrə yığma komandaların məşqçilər heyətinin yeni tərkibi məlum olub.**

Azərbaycan Ağırlıqqaldırma Federasiyasının İdarə Heyətinin qərarına əsasən, rusiyalı mütəxəssis Maxtı Makkayev kişilərdən ibarət yığma komandaların baş məşqçisi təyin edilib. O, uzun müddət Rusiya yığmasında çalışıb,



ölkəsində ilin ən yaxşı məşqçisi seçilib. Makkayevin tələbələri dünya, Avropa çempionatları, Olimpiya Oyunları, digər beynəlxalq yarışlarda qalib və mükafatçı olublar.

Ukraynalı Denis Qotfrid onun köməkçisi funksiyasını yerinə yetirəcək. Asif Məmmədov böyüklər, Emil Əliyev gənclər, Oktay Muxtarov isə yeniyetmələr üzrə böyük məşqçi vəzifələrində çalışacaqlar. Sərdar Həsənov isə qadınlardan ibarət komandanın baş məşqçisi olacaq. Onun köməkçisi Əfqan Bayramov olacaq.

*Leyla SABİRQIZI*
*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Şaxta baba Füzulidə

**Otuz ildən sonra işğaldan azad olunan Füzulidə daha bir əlamətdar gün qeyd edilir. Füzuli sakinləri 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qeyd etməyə və Yeni ili öz doğma yurdlarında qarşılamağa hazırlaşır.**



Bayram ərəfəsində Yeni il Bayramının simvolları olan Şaxta baba və Qar qız Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbə gəlib.

Şagirdlər Şaxta baba və Qar qızı sevinc və həyəcanla qarşılayıblar. Şən kloun şagirdlərlə söhbət edib, onları duzlu-məzəli zarafatları ilə güldürüb.

Maraqlı görüşdən sonra Şaxta baba balacaları bayram hədiyyələri ilə sevindirib.

Qeyd edək ki, hazırda Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə 300-dən çox şagird təhsil alır.

*XQ*

## Qlobal qızılca – uşaqları qoruyun!

**Ümumdünya Səhiyyə Təşkilatının yaydığı (ÜST) məlumatda bildirilir ki, COVID-19 pandemiyası ilə əlaqədar olaraq, son 2 ildə dünya ölkələrində qızılcaya qarşı peyvəndlənmənin əhatə dairəsi azalıb.**
**Bu tendensiyanın nəticəsi olaraq 2022-ci ildə qızılcaya yoluxma halları 2021-ci illə müqayisədə qlobal miqyasda 18 faiz, ölüm halları isə 43 faiz artıb.**




ÜST və ABŞ-nin Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin (CDC) yeni hesablamasına görə, bu vəziyyət uşaqlar arasında çoxluq təşkil etməklə, təxmin edilən qızılcaya yoluxma hallarının 9 milyona, ölüm hallarının isə 136 minə çatması deməkdir. Hazırda qızılcaya yoluxma halları peyvəndlənmənin əhatə dairəsinin zəif olunduğu bütün ölkələr və icmalar üçün risk yaradır.

Məlumatda qızılcaya yoluxma hallarının geniş yayılmasının qarşısının alınmasında peyvəndin əvəzsiz rolundan bəhs edilir. Bildirilir ki, təkcə 2000-ci ildən 2022-ci ilə qədər qızılcaya qarşı peyvənd qlobal miqyasda 57 milyon insanın bu xəstəlikdən həyatını itirməsinin qarşısını almışdır.

Qızılca peyvəndi immunizasiya proqramlarının əsas komponentlərindən biridir. Qızılcaya qarşı peyvəndlənmə əhatəsinin 95 faizdən aşağı olduğu ölkələrdə xəstəliyin geniş yayılma riski meydana çıxır. Cari dövrdə qızılca əhalinin sağlamlığı üçün ciddi təhlükə yaratmaqda davam edir. 2022-ci ilin noyabrından 2023-cü ilin oktyabr ayına qədərki dövrdə ÜST-nin Avropa region ölkələrində 30 mindən çox qızılcaya yoluxma halı qeydə alınmışdır.

ÜST-nın Bakı ofisindən bildiriblər ki, təşkilat bütün ölkələri qızılca və digər xəstəliklərə qarşı hər bir uşağın peyvənd olunması istiqamətində səyləri artırmağa çağırır. Bundan əlavə, epidemiyaların qarşısının alınmasına kömək etmək üçün qlobal, regional, milli və yerli səviyyələrdə bütün səhiyyə tərəfdaşları güclü nəzarət sistemləri tətbiq etməklə, epidemiyaya cavab tədbirlərinin gücləndirilməsinə çalışmalıdır. Çünki uşaqlar peyvənd edilməzsə, qlobal qızılca təhlükəsi qalmağa davam edəcək.

**Z. HÜSEYNOVA**
**XQ**

Kosmos

## Yer kürəsi ən bahalı planetdir

***Amerikalı astrofizik Qreq Laflinin ağlına maraqlı fikir gəlib. O hesab edir ki, Günəş sistemi planetlərinin kütləsi və onların ölçüləri artıq heç kimə maraqlı deyil, lakin pul baxımından dəyəri yeni və aktualdır. Alim araşdırmalar nəticəsində belə qənaətə gəlib ki, Yer planetlərin arasında ən bahalısıdır.***



O, qiymətləndirməyə kimi planetin kütləsini, temperaturunu, sıxlığını, yaşını, eləcə də ona kosmik ekspedisiyaların enmə imkanlarını seçib. Nəticə olduqca maraqlı olub. Laflinin hesablamalarına görə, planet Yerə nə qədər oxşardırsa, onun dəyəri də bir o qədər yüksəkdir. Məsələn, Yerin qiyməti, təxminən, 5 trilyon dollardır.

Mars isə Veneradan daha bahadır. Yeri gəlmişkən, Marsda əvvəllər insanların yaşadığı və yalnız bundan sonra Yerə köçməsi ilə bağlı fərziyyələr mövcuddur. Bu amil "Qırmızı" planetin dəyərini artırır. Lafline görə tərkibində karbon kristalları olan və hətta ekspedisiyaya enmə ehtimalı belə olmayan planetlərin praktiki olaraq heç bir dəyəri yoxdur.

***P.ƏFƏNDİ***
***XQ***

Sağlamlıq

## Zoğal – yoluxmanın qarşısını al!

***Alimlərin araşdırmaları nəticəsində zoğalın tərkibindəki C vitamini sayəsində xərçəng hüceyrələrinin 4 saat ərzində məhv edildiyi aşkarlanıb. Zoğalla bağlı son tədqiqatların nəticələri elm aləmində böyük maraq doğurub.***



Belə ki, zoğal antioksidantları, iltihab əleyhinə və antibakterial xüsusiyyətləri ilə tanınsa da, son araşdırma bu meyvənin xərçənglə mübarizədə təsirli olduğunu sübut edib.

Kornell Universitetində aparılan araşdırmada zoğal ekstraktlarının süd vəzi xərçəngi hüceyrələrinə təsiri araşdırılıb və nəticələr təəccüblü olub. Xərçəng hüceyrələrinin əksəriyyətinin cəmi 4 saat ərzində yox olduğu müşahidə edilib.

Zoğalın faydaları çoxdur. O, zəngin antioksidant mənbəyidir. Tərkibindəki C, A vitaminləri və digər antioksidantlarla orqanizmi qoruyur. Zoğalın əsasını təşkil edən vitaminlər və antioksidantlar, həm də immunitet sistemini gücləndirir.

Zoğal qan təzyiqini aşağı salır, xolesterin səviyyəsini tarazlaşdırır və ürək-damar sağlamlığını dəstəkləyir. Meyvə sidik yolu infeksiyalarının qarşısını alır, bədəndə iltihabı azaldır. Liflə zəngin olduğu üçün həzm sisteminin sağlamlığını da dəstəkləyir.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava




***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 28-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Lakin axşama doğru bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Gün ərzində güclü şimal-qərb küləyi əsəcək, axşam mülayimləşəcək. Gecə 5-9°, gündüz 9-11° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin səhər dağlıq ərazilərdən başlayaraq, bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Əsasən Böyük Qafqazın ayrı-ayrı yerlərində intensiv olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-6° , gündüz 10-15° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-6° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## Qubada STEAM sərgisi

***Qubada keçirilən "Region məktəblilərinin STEAM sərgisi"ndə 31 məktəbdən 36 komanda iştirak edib. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunan sərgi Quba rayonu Zəki Kərimov adına Birinci Nügədi kənd 1 nömrəli tam orta məktəbdə təşkil edilib.***

Məqsəd bu sahə ilə maraqlanan şagirdlərin və müəllimlərin bir araya gətirilməsi, onların bir-birlərinin bacarıqları ilə tanış olması və qarşılıqlı bilgi mübadiləsi üçün əlverişli mühitin yaradılmasından ibarətdir.

Qeyd edək ki, Elm (Science), Texnologiya (Technology), Mühəndislik (Engineering), İncəsənət (Art), Riyaziyyatın (Math) birgə və inteqrasiya olunmuş şəkildə tədris etmək ideyası üzərində qurulan STEAM Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və Təhsil Nazirliyinin Təhsil İnstitutunun dəstəyi ilə 2019–2020-ci tədris ilindən start götürüb.

***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov və Nəsimi Rayon İcra Hakimiyyətinin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektor vəzifəsini icra edən Vazeh Əsgərova atası

**ELDƏNİZ ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə baş sağlığı verirlər.

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev və professor-müəllim heyəti universitetin ibtidai təhsil kafedrasının dosenti Şahkərəm Məmmədova anası

**GÜLQAYIT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) karyera planlaşdırılması və inkişafı kafedrasının kollektivi kafedranın dosenti Afaq Hüseynə atası

**CAMALƏDDİN HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3426
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00